www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 7 iyul 2014-cü il Bazar ertəsi № 172 (5881) Qiyməti 40 qəpik

**Xəbər**

## Lerikdə 3 uşaq atası intihar etdi

yazısı səh.3-də

**Gündəm**

### "Rusiya Ermənistana görə Azərbaycanla savaşmayacaq"



Moskvalı hərbi ekspertlərə görə, Kremlə Qarabağda ikinci cəbhənin açılması lazım deyil və yeni müharibə üçün onun yetərli qüvvəsi də yoxdur...

yazısı səh.11-də

### Müdafiə Nazirliyinin hüquq idarəsi rəisinə şok ittihamlar

yazısı səh.12-də

### Dini Komitəyə gecikən sədr təyinatının pərdəarxası

yazısı səh.6-da

*Ekspert:*

### "Müstəqillik dövründə Azərbaycan ilk dəfə ciddi seçimlə üzləşib"

yazısı səh.6-da

### Şeyxülislamdan maraqlı "həcc ixtisarı"

yazısı səh.3-də

### İqbal Ağazadənin Ermənistan açıqlaması müzakirələrə yol açdı

yazısı səh.9-da

### Binəqədi sakinləri zibilə düşüb - reportyorumuzun qeydləri...

yazısı səh.12-də

### "Ərəb baharı"na qarşı ASAN xidməti...

yazısı səh.10-da

### Sədərəkin buraxılan gömrük rəisi haqda daha bir xəbər

yazısı səh.10-da

### Azad Demokratlar Partiyası təsis edildi

yazısı səh.3-də

### Ölüsü dirisindən çox pul qazananlar

yazısı səh.14-də

**Ramazan ayının 9-cu günü**

İftar 21.30. İmsaq (azan) 4.48 (QMİ-nin cədvəli). 9-cu günün duası: "İlahi, mənə bu gün Öz geniş və vüsətli rəhmətini qismət et və məni aydın, qüdrətli dəlillərinlə hidayət et! Məni Öz məhəbbətinlə istədiyin əməllərin hamısına müvəffəq et! Ey istəklilərin ən yüksək Arzusu!"

İftar duası: "Allahım, Sənin rizan üçün oruc tutdum, Sənə inandım, Sənə güvəndim. Sənin ruzinlə iftar açır və Sənə təvəkkül edirəm. Ey bağışlayan Allah, günahlarımı bağışla".

ALLAH ORUCUNUZU QƏBUL ELƏSİN!

### Xaricdə yazılıb, Azərbaycana transfer edilən qorxunc ssenari

# ÖLKƏNİ MƏZHƏB SAVAŞINA KİMLƏR SÜRÜYÜR - TƏHLİL

Azərbaycanda etnik və dini müstəvidə savaş yaratmaq istəyənlər açıq fəaliyyətə başlayıblar; artıq sosial şəbəkələrdə Konstitusiya islahatları barədə mülahizələr deyil, hansı məzhəbə mənsub şəxslərin "qadınlarının cariyə ola biləcəyi" müzakirə edilir...

yazısı səh.9-da

Hafiz Məmmədov



# "Hafka" ölkədən niyə qaçmaq istəyib?!

Hafiz Məmmədovun maliyyə krizisinə girməsi xəbərləri bir oyundur; onun vəziyyəti heç də göründüyü qədər çətin deyil; "Hafka"nın Avropa banklarının yalnız birindəki hesabında 1 milyard avro var...

yazısı səh.4-də



*Hacı Əbdül:*

### "Xalq ayağa qalxsa, İŞİD təhlükəsi bunun yanında boş söhbət olacaq"

yazısı səh.7-də



Əlövsət Əliyev

### Sabiq polis rəisindən ciddi xəbərdarlıq

yazısı səh.10-da



*Leyla Yunus:*

### "Evimə yeni hücum gözləyirəm..."

yazısı səh.2-də

## Xanım İsmayılqızının oğlu haqq dünyasına qovuşub



**Məhnı bəstəçisi, Azərbaycan Jurnalistlər Birliyinin və Azərbaycan Yazıçılar Birliyinin üzvü Xanım İsmayılqızının oğlu dünyasını dəyişib. ansperss-in məlumatına görə, bu barədə şairənin sosial şəbəkədəki dostları məlumat verib. Onlar Xanım İsmayılqızına başsağlığı bildirməklə yanaşı, həmçinin mərhumun cavan olduğunu da təəssüflənərək qeyd ediblər.**

Orta məktəbini Eldar Məmmədov adına 189 №-li tam orta məktəbdə oxuyan Fərid Əliyev 1996-cı ildə məzun olaraq Azərbaycan Memarlıq və İnşaat Universitetinə daxil olub və oranı da uğurla bitirib. Şairənin oğlunun ürək tutmasından dünyasını dəyişdiyi bildirilir.

## NATO-dan genişmiqyaslı təlimlə bağlı açıqlama

**Bolqarıstanın Qara dəniz sahillərində "Briz-2014"ün genişmiqyaslı hərbi təlimlərinə start verilib. Axar.az xəbər verir ki, Böyük Britaniya, Yunanıstan, İtaliya və ABŞ-dan olan dənizçilər də bu hərbi təlimlərdə iştirak edir.**

NATO "Briz" hərbi təlimlərinin Rusiyanın Krımı işğal etməzdən əvvəl planlaşdırıldığını açıqlayaraq, indiki halda bu əməliyyatların xüsusilə vacib olduğunu vurğulayıb. Təlimin əsas məqsədinin Alyansın Şərqi Avropa üzvlərinə öz tərəfdaşlarına etibar edə biləcəklərini nümayiş etdirməkdən ibarət olduğu da bildirilib.

## Vətəndaşları internetdən ən çox asılı olan 10 ölkə

**Beynəlxalq Telekommunikasiya Birliyi internet asılılığının ən geniş yayıldığı 10 ölkənin adını açıqlayıb. anspress-in məlumatına görə, siyahının 1-ci pilləsində İslandiya dövləti yer tutub. Belə ki, İslandiyanın əhalisinin 96.2 %-i internetdən asılıdır.**

Siyahının 2-ci pilləsində Norveç dövləti yer alıb. Bu dövlətin isə əhalisinin 95%-i internetdən asılıdır. Daha sonra ardıcıl olaraq İsveç 94%, Hollandiya 93%, Danimarka 93%, Finlandiya 91%, Yeni Zelandiya 89.5%, İngiltərə 87%, Kanada 86.8% və İsveçrə 85.2%-lə siyahını davam etdirir.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

Ən başlıcası gündəlik
«Yeni Musavat» qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil, Telefonla zəng etməyiniz kifayətdir:

Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41

# "Evimə yeni hücum gözləyirəm"

## Leyla Yunus bu gün prokurorluğa getməyəcək: "Müstəntiqə dedim ki, sənədlər qaytarılandan sonra gələcəyəm..."

**Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus iyulun 7-də səhər saat 10-da Ağır Cinayətlərə dair İşlər üzrə İstintaq İdarəsinə çağırılıb. Bu barədə Musavat.com-a Leyla Yunus özü bildirib.**



Onun sözlərinə görə, ona müraciət edən müstəntiq İbrahim Ləmbaranskiyə bildirib ki, prokurorluq qanuna riayət etməlidir: "Dedim ki, prokurorluq qanuna riayət etsin, əmrə yox. Onlar qanunsuz olaraq mənim pasportumu, yoldaşımın pasportunu və evimin kağızlarını saxlayıblar. Onları gətirib qaytarsınlar, sonra mən onlarla görüşərəm. Görək indi ayın 7-də nə edəcəklər, evə kimi göndərəcəklər".

Hüquq müdafiəçisi deyib ki, müstəntiq iyulun 4-də ona zəng edərək ifadə verməyə dəvət edib: "Mən ona dedim ki, prokurorluq qanun və hüququmu pozur. Aprelin 28-də mənim, həyat yoldaşımın xarici pasportları və mənzilimin sənədləri qanunsuz olaraq götürülüb. İki aydan çoxdur sənədlərimiz qaytarılmır. Ona görə müstəntiqə dedim ki, sənədlər qaytarılandan sonra prokurorluğa gedəcəm. Ona bildirdim ki, rəhbərliyə qanun və hüquqlara riayət etməyi çatdırsın. Amma Ləmbaranski mənimlə kobud və təmkinsiz danışırdı. O, sənədlərin qaytarılmayacağını bildirdi və idarəyə gəlməyimi tələb etdi".

Leyla Yunus Meydan.tv-yə isə bildirib ki, media və həmkarlarına xitabən telefon danışığından 4 nəticə çıxarıb: "Prokurorluq əvvəlki kimi saxta ittihamlarla həbs etmək istəyir. 4 iyulda mənə üçüncü hücum oldu. Aprelin 28-də həyat yoldaşımla qanunsuz olaraq hava limanında saxlanılaraq 9 saat dindirilmişik, bu, prokurorluğun cinayəti idi. Mayın 29-da müstəntiq İbrahim Ləmbaranski ikinci dəfə məni dindirilməyə çağırdı, görünür, 9 saatlıq dindirilməm yetərli olmayıb. Mən prokurorluğa getməyə etiraz etmədim. Sadəcə, sənədlərimizin qaytarılmasını istədim, amma qaytarmadılar. Hətta məni polis zoru vasitəsilə aparmağa cəhd etsələr də, jurnalistlərin müdaxiləsi buna imkan vermədi. Üçüncü, yenidən mənzilimizə MTN-nin, polisin, prokurorluğun əməkdaşlarının hücumunu gözləyirəm. Prokurorluq qanun və hüquqları pozmaqda davam edir. Ona görə mövcud durumu diqqətdə saxlamağı xahiş edirəm".

**❑ RÖYA**



## "Rusiya ilə müharibəyə hazırlaşıram"

"Rusiyanın hücum etmək təhlükəsi var və mən müharibəyə hazırlaşıram". axar.az xəbər verir ki, bu açıqlama ilə Estoniya prezidenti Tomas Hendrik İlves çıxış edib.

O, rus ordusunun son bir neçə il ərzində xeyli dəyişdiyini deyib: "Rus ordusu son illər ərzində xeyli dəyişib. O, Gürcüstan müharibəsində dərsini götürdü və indi daha cəld hərəkət edir. Rusiyada tez-tez hərbi təlimlər keçirilir və indi Moskva qoşunlarını daha müasir silahlarla təchiz edir. Ona görə Baltik ölkələrinin düşüncələrini dəyişmək zamanı çatıb. Hazırda bizim orduda peşəkarların sayı çox azdır. Bu, Latviya və İsveçə də aiddir. Yeni ehtiyat hazırlamaq lazımdır. Biz, finlər və yunanlar hələlik Avropada sonuncu ölkələrik ki, ordu məcburidir. Nəzəri olaraq 30000 əsgər səfərbər edə bilərik. Profesionallığa gəlincə isə bir nəfər belə tapmarıq".

## Keçmiş polis əməkdaşı qaçırdığı evli qadını geri qaytardı

**İyunun 16-dan etibarən yaşadığı Sulutəpə qəsəbəsindən 2 övladı ilə bərabər yoxa çıxan gənc qadınla bağlı yeni xəbər var. Qadının həyat yoldaşı Eldar Əliyevin (ad şərtidir) İnterpress.az-a verdiyi məlumata görə, keçmiş polis əməkdaşı ilə bərabər Naxçıvana qaçdığı güman edilən gənc qadın hazırda Şamaxının Sünnid kəndindədir.**

Bu barədə E.Əliyevə qadın özü bu gecə telefonla xəbər verib. Şamaxıda nənəsinin evində olduğunu deyən və həyat yoldaşına rəsmi qaydada ayrılmağı təklif edən gənc qadın azyaşlı uşaqların harada olması barədə həyat yoldaşının suallarını cavablandırmayıb: "Məni ancaq uşaqlarım maraqlandırır. Onlar hardadır, kimin yanındadır - bunu bilmirəm. Buna görə də uşaqlarımla bağlı mənə məlumat verilməsini tələb etdim. Polisdən də tələbim ancaq uşaqlarımın tapılarağ mənə qaytarılmasıdır".

Məlumatlara görə, keçmiş polis əməkdaşı tərəfindən əvvəlcə Naxçıvana aparılan gənc qadın mətbuat və hüquq-mühafizə orqanlarının məsələyə müdaxiləsindən sonra geri, nənəsinin evinə qaytarılıb.

Hazırda E.Əliyevin müraciəti Binəqədi rayon 40-cı polis bölməsində araşdırılır.



## Bu gün hava buludlu olacaq

**Həftənin ilk iş günü Azərbaycanda hava dəyişkən buludlu olacaq və əsasən yağmursuz keçəcək. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosundan AzNews.az-a verilən məlumata görə, iyulun 7-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu hava şəraiti üstünlük təşkil edəcək. Gün ərzində hava əsasən yağmursuz olacaq. Abşeron yarımadasında temperaturun gecə 21-26 dərəcə isti, gündüz 34-38 dərəcə isti, Bakıda gecə 24-26 dərəcə isti, gündüz 36-38 dərəcə isti olacağı gözlənilir.**

## "Amnesty İnternational" güneyli siyasi məhbusu azad etməyə çağırdı

**"Amnesty İnternational" təşkilatı mayın 18-dən aclıq aksiyasına başlamış güneyli siyasi məhbusun durumu ilə bağlı təcili tədbir görülməsinə çağıran bəyanat yayıb. Beynəlxalq qurum 9 il həbsə məhkum olmuş Yeni GAMOH liderini "vicdan məhbusu" adlandıraraq, onun dərhal və qeyd-şərtsiz sərbəst buraxılmasını tələb edib.**

"Lətif Həsəni may ayının 18-də "yaş" aclıq aksiyasına başlayaraq siyasi məhbuslara qarşı pis davranışa etirazını bildirib və özünün Təbriz zindanından Kərəcdə yaşayan ailəsinə yaxın bir zindana aparılmasını tələb edib. O, iyunun 28-də Tehranın Evin həbsxanası və az müddət sonra Kərəcin Rəcayi-şəhr zindanına köçürülüb, hazırda ağır cinayətlər işləmiş məhbuslarla eyni bölmədə saxlanılır və aclıq etməyə davam edir", - deyə bəyanatda bildirilir.

"Amerikanın səsi" xəbər verir ki, sənəddə həmçinin Lətif Həsəninin siyasi məhbuslar bölməsinə göndəriləndək aclığa davam edəcəyini bildirdiyi, həmçinin onun sağlıq durumunun təhlükəli bir durumda olduğu qeyd edilib. İnsan haqları qurumunun bəyanatında deyilir ki, L.Həsəni öncədən də ürək, qan təzyiqi və mədəsi ilə bağlı ciddi problemləri olub. Bəyanatda Həsəni ilə birlikdə İran məhkəmələri tərəfindən 9 il həbsə məhkum olmuş Yeni Güney Azərbaycan Milli Oyanış Hərəkatı (Yeni GAMOH) təşkilatının digər üzvləri Mahmud Fəzli, Yürüş Mehrəlibəyli (Ayət), Şəhram Radmehr və Behbud Quluzadədən də bəhs olunub.

Uşaq hüquqlarının müdafiəçisi Səid Şirzad 33 gün öncə Təbrizdə öz iş yerində təhlükəsizlik qüvvələri tərəfindən tutuqlanıb. Onun yaxınlarından birisi bildirib ki, iki həftə öncə təhlükəsizlik məsullarından biri Səidinm ailəsi ilə əlaqə saxlayıb və onun Tehrana intiqal edildiyini bildirib, lakin bu günə qədər Səid öz ailəsi ilə heç bir əlaqə saxlamayıb və onun vəziyyətindən kimsənin xəbəri yoxdur. Səidin yaxınının dediyinə görə, onun hansı səbəbdən saxlandığı və nədə ittiham olunduğu kimsəyə aydın deyil. S.Şirzad 2012-ci il avqustun 21-də Qaradağda baş verən dağıdıcı zəlzələ nəticəsində təbii fəlakətdən zərərçəkənlərə yardım etmək məqsədi ilə Əhər şəhərinə gedib və təhlükəsizlik qüvvələri tərəfindən tutuqlanıb.

Azərbaycanlı milli-mədəni fəal Məhəmməd Xətibi isə Təbrizin İnqilab Məhkəməsinə çağırılıb. GünAz TV xəbər verir ki, M.Xətibinin məhkəməyə çağırılmasının səbəbi aprel ayında tutulması ilə bağlıdır. Fəal aprelin 5-də 20-ci istintaq şöbəsinə müraciət etdikdən sonra tutulub zindana salınmışdı. O, üç gün sonra 10 milyon tümənlik vəsiqə qarşılığında zaminə buraxılıb. O, heç bir qanuni fakt olmadan bölücü və sistemə qarşı olan qruplarla əməkdaşlıqda günahlandırılıb. M.Xətibi bundan öncə də Urmu gölünün qurudulmasına diqqət yönəltmək kimi xeyir əməlinə görə həbs edilmişdi.

**❑ Cavid TURAN**

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

# Şeyxülislamdan maraqlı "həcc ixtisarı"

## QMİ sədri əlavə xərc və məsuliyyətdən can qurtarmaq üçün həccin əsas atributlarından olan Miqatda ehram bağlanılmasını ləğv edir

**Bir qədər əvvəl "Yeni Müsavat"da həcc qadağaları başlıqlı bir yazı dərc olunub. Həmin yazıda qeyd olunurdu ki, bu il ilk dəfə olaraq həccə gedən zəvvarlara əlavə öhdəliklər sənədi imzalatdırılır. Sənəddə zəvvarların dini təriqətlərarası qarşıdurma yaradaraq ölümə təhrik etməsi, zina və spirtli içki qəbul etmələri halında ölüm cəzası alacaqları ilə bağlı xəbərdarlıq edilir. Bundan başqa siyahıda başqa qadağalar da var.**

Ancaq ən mühüm dəyişiklik zəvvarların Məkkəyə çatdıqları zaman həcc əməllərinin əsas atributlarından biri olan ehram (tikişsiz iki parçadan ibarət həcc ziyarəti geyimi - K) bağlaması qaydaları ilə bağlıdır. Həcc ziyarətinin qaydalarına əsasən, Məkkəyə gəlib çatan zəvvar onun əsas girişlərindən birində ehram bağlayır. Bu girişlər "miqat" adlanır. Dini mətnlərdə qeyd olunur ki, Miqat elə bir yerdir ki, Həzrət Peyğəmbər (s.ə.s) o nöqtəni Allahın hərəminə daxil olmaq üçün sərhəd təyin edib. Həcc ziyarətinə gedən hər bir şəxs Miqatda ehram bağlayıb Məkkəyə daxil olmalıdır. Hacılar müxtəlif səmtlərdən gəldiklərinə görə miqatlar da müxtəlifdir. Şəcərə məscidi (Zül-huleyfə), Cühfə, Yələmləm, Qərnül-Mənazil, Əqiq vadisi kimi məntəqələr Həcc ziyarətinə gələn zəvvarların Məkkəyə daxil olmamışdan əvvəl ehram bağladıqları ünvanlardır.

Azərbaycanlı zəvvarlar iki yol ilə ziyarətə getdiklərindən Şəcərə məscidi və Cühfə məscidində ehram bağlayırlar. QMİ isə bu qaydanı ləğv etməyə hazırlaşır. Yəni yeni qaydalara əsasən, zəvvarlar miqata aparılmayacaqlar. Bununla bağlı iki səbəb qeyd olunurdu: birincisi, miqata zəvvar aparılmasının baha başa gəlməsi və Səudiyyə Ərəbistanı hökumətinin qadağası.

Yeri gəlmişkən, Şeyx və yaxın ətrafı məhz bu faktoru qabardıb ki, miqata zəvvar aparılması yerli hökuməti qəzəbləndirir. Ancaq bizə çatan bilgilərə görə, qadağa heç də Səudiyyə ərəbistanı hökuməti ilə əlaqəli deyil, hörmətli Şeyx özü miqat ənənəsindən imtina etməyə çalışır. Ancaq bununla bağlı tutarlı səbəb gətirə bilmədiyi üçün Şeyxülislam daha çox Səudiyyə hökumətinin üstünə atır. Ancaq bu barədə geniş ictimaiyyətə məlumat verilmir, çünki ictimaiyyətə bu qərarın ər-Riyaddan verildiyi elan olunsa, o zaman Səudiyyə hökuməti və ya burdakı səfirlik təkzib verər və məsələ daha da qəlizləşər. Bu səbəbdən də Şeyxülislam məsələnin daha çox sakit halda həllini tapmasını istəyir.

Məsələ burasındadır ki, Azərbaycandan gedən zəvvar qrupları hazırda yalnız təyyarə ilə gedir və Ciddə hava limanında enərək avtobuslarla Məkkə şəhərinə gedirlər. Ciddədən Məkkəyə olan məsafə 247 kilometrdir. Məkkədən miqatın bağlandığı Şəcərə və ya Cöhfə məscidinə isə təxminən 100 kilometrlik məsafə var. Bu məsafə üçün təbii ki, əlavə xərc tələb olunur. Şeyxülislam ziyarətə gedənlərin hər biri üçün avtobus firmalarına əlavə vəsait ödəyərək onların miqata aparılmasını təmin edir. Bu isə 3500 və daha çox zəvvarı hesablayanda böyük məbləğ edir. QMİ sədri həm əlavə xərc, həm də işlərdən qurtulmaq üçün miqat ənənəsindən imtina olunmasını təklif edir. Bunun üçün yol zəvvarların miqatı, yəni ehram bağlanılmasını nəzir etməsi və Ciddədə aeroportdan enərkən ehram bağlamasıdır. Ancaq bu əməl zəvvar üçün, xüsusən də ziyarətdə bu işlərə rəhbərlik edənlər üçün əlavə məsuliyyət və ciddi zərurət olmadığı halda vacibdən imtina kimi ağır bir işdir.



Allahşükür Paşazadə

Bu baxımdan hazırda həcc təcrübəsi olanlar Şeyxin bu qərarından narazıdır. Ancaq QMİ sədri qərardan dönmək fikrində deyil, artıq həcc şöbəsinə bu barədə məlumat verilib.

❑ **KƏNAN**

# Azad Demokratlar Partiyası təsis edildi

## Sülhəddin Əkbər partiyanın sədri seçildi; yeni təşkilatda vaxtilə Müsavat üzvü olmuş şəxslər də təmsil olunur...







**İyulun 6-da VHP-nin qərargahında vaxtilə Müsavat rəhbərliyində, daha sonra isə eks-spiker Rəsul Quliyevin təşkilatında təmsil olunan Sülhəddin Əkbərin yaratdığı partiyanın təsis qurultayı keçirilib. Azad Demokratlar Partiyası adlanan təşkilatda Müsavatdan istefa vermiş bəzi digər şəxslər də təmsil olunub.**

Qurultayda ilk olaraq çıxış edən Partiyanın Təşkilat Komitəsinin sədri Sülhəddin Əkbər toplantıya qatılan hər kəsə öz təşəkkürünü bildirib: "Bu gün ölkəmizin siyasi həyatında önəmli bir hadisə baş verməkdədir. Bu mühüm hadisədə iştirak edən hər kəsə qurultay üzvləri və media nümayəndələri başda olmaqla, öz təşəkkürümü bildirirəm. Xalqımızın rifahı bizim üçün hər şeydən önəmlidir. Ona görə də Azad Demokratlar Partiyasını yaratmağı məqsədəuyğun hesab etdik. Qarşımızda duran əsas məsələlərdən biri 2015-ci ilin parlament seçkilərində öz partiyamızla iştirak etmək olacaq".

Sülhəddin Əkbər partiyanın nizamnaməsi, proqramı və bayrağındakı simvollar barədə qurultay üzvlərinə geniş məlumat verib.

Təşkilat Komitəsinin üzvü Tapdıq Abbas da partiyanın gərəcəyi işlər, qarşısında duran vəzifələr barədə qurultay iştirakçılarını məlumatlandırıb. Partiyanın nizamnaməsi, proqramı, gerbi səsə qoyulub və yekdilliklə qəbul edilib.

Daha sonra partiya sədrliyinə namizədlər irəli sürülüb. Qurultay üzvləri tərəfindən Sülhəddin Əkbər, Tapdıq Abbas və İlham Baratovun namizədliyi irəli sürülüb. Çıxış üçün söz alan Tapdıq Abbas və İlham Baratov namizədliklərini irəli sürən şəxslərə öz minnətdarlıqlarını bildirərək, namizədliklərini Sülhəddin Əkbərin xeyrinə geri götürüblər. Partiya sədrliyinə yeganə namizəd olduğuna görə, səsvermə açıq şəkildə keçirilib. Sülhəddin Əkbər yekdilliklə partiyanın sədri seçilib.

Qurultayda 7 nəfər Təşkilat Komitəsinə üzv seçilib. 50 rayon təşkilatının sədri, eyni zamanda Ali Məclis üzvü seçilib. 17 nəfərsə sərbəst Məclis üzvü seçiliblər. Bununla da qurultayın işi başa çatıb.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# Lerikdə 3 uşaq atası özünü asdı

**Lerik rayonunda intihar hadisəsi baş verib. Rayon mərkəzinin 3 km-liyində yerləşən Lüləkəran kəndinin 40 yaşlı sakini, 3 uşaq atası fərdi həyət evində özünü asaraq həyatına son qoyub.**

Rayondan aldığımız məlumata görə, Zülfüqar adlı mərhum rayon kommunal təsərrüfat sahəsində fəhlə kimi çalışırmış. Onun sakit təbiətli adam olması səbəbindən intihar xəbəri çoxlarını şoka salıb. Mərhumun sosial problemlər səbəbindən həyatına qıydığı iddia olunur. Hadisə ilə bağlı cinayət işi qaldırılıb, istintaq gedir.

❑ **Cavid TURAN**

# Dədə-baba standartları



**Samir SARI**

**Bir biz deyilik, dünya üzərində formanı məzmundan üstün tutan, vacib sayan, ondan imtina edə bilməyən, hətta imtinanı xəyanət bilən başqa toplumlar da var.**

Hələ başqa ölkələrdə daha pisdir, saqqalının uzun olmasına görə təhqir edilənlər olduğu kimi, saqqalının gödək olmasına görə başı kəsilənlər də olur.

Halbuki dindarlıq, möminlik məsələsində saqqal bəlkə də onuncu detaldır. Saqqalın inanca dəxli olsaydı, onda gərək kosalar kafir elan olunaydılar. Amma prinsipcə, kosa da dərin inanca malik ola bilər, tük örtüyünün seyrəkliyi buna mane olmur.

Eləcə də birinin saqqalının gur və uzun olması hələ onun əməli saleh mömin olduğuna dəlalət etməz.

Yəni saqqalın və şalvarın balağının uzunluğu-gödəkliyi məsələsi dini məsələ olmaqdan çox bərbərlərə və dərzilərə aid xüsusatdır və sırf zövq məsələsidir. Adam var ki, qırx ilin ateistidir, amma saqqalsız gəzə bilmir, elə bilir, saqqal ona daha yaxşı yaraşır, daha xarizmatik görünür. Hətta biri var, saqqalına baxıb elə bilirlər, molladır, sonra əynindəki qırmızı tişörtə zənd eləyəndə anlayırlar ki, molla tişört geyinməz, həm də qırmızı tişört.

Aydın məsələdir, mollanın, din adamının mundiri ciddi olmalıdır. Başqa cür onların sanbalı azalar. Bizdə muğamat oxuyanlar da həmişə kostyum geyir, qalstuk taxırlar. Ona görə ki, oxuduqları ciddi musiqi janrının sanbalına xələl gəlməsin. Xanəndə qırmızı (və ya mavi) tişörtlə əlinə qaval götürüb səhnəyə çıxsa, heç kəs onun "Mənsuriyyə"ni Yaqub Məmmədov qədər yaxşı oxuduğuna diqqət yetirməz, ertəsi gün hamı bir-birinə böylə deyər: "O nəydi, əə? Qaval hara, mayka hara?".

Eləcə də rep deyənlər səhnəyə kostyumda, qalstukda çıxsalar, Tupakın xatirəsinə xəyanət etmiş olarlar. Onlar həmişə sinəsinə və ya arxasına cürbəcür sözlər yazılmış, şəkillər yapışdırılmış tişörtlər geyməlidirlər, hətta ola bilər ki, yayın günündə başlarını örtsünlər - yağışdan islanacaqlarmış kimi.

Belə qəbul olunub. Forma, zahiri görünüş hər şeydən əfzəldir.

Formalara sədaqət göstərənlərlə bu mövzuda müzakirəyə başlayarkən adətən belə sözlər eşidərsən: "Dədə-babadan bizə belə qalıb". Əlbəttə, elədir. Amma dədə-babadan bizə təkcə saqqal qalmayıb, həm də eşşək arabası, fayton qalıb, bəs indi bir yerdən başqa yerə getmək üçün arabadan istifadə edirik, yoxsa "Aerobus"a, "Mersedes"ə cumuruq? Dədə-babamız mobil telefonla danışmayıb, amma biz android telefon işlədəndə yada salmırıq ki, dədə-babalar eldən-elə informasiya ötürmək üçün dağda tonqal qalayırdılar.

Yüzlərlə belə misal çəkmək olar. Bu misallar açıq-aşkar şəkildə göstərəcək ki, biz öz məişətimizdə, həyat tərzimizdə dədə-babaların standartlarından yüz dəfə kənara çıxmışıq.

Ona görə də gəlib 2014-cü ildə yaşaya-yaşaya min il əvvəlin geyim, görünüş tərzini yaşatmaq, təqlid etmək absurd işdir. Saqqalı dibindən təraş edərək, saçı qısa vurduraraq, əyinə Pyer Kardin kostyumu və ağ köynək geyərək, Versaçe qalstuku bağlayaraq da mömin olmaq, hətta mollalıq eləmək olar və heç kəs bu cür modern molladan narazı qalmaz. Yox, buxara papaq qoymaq vacibdirsə, zövq məsələsidirsə, bunun da yeri, zamanı var: qış, soyuq, qar-yağış. Belə daha rahat olar.

Bir dəfə üç-dörd musiqiçi ilə birlikdəydik, biri, nisbətən yaşlısı dedi ki, bizdən qabaqkı nəsil toylara trio (tar, kaman, qaval) ilə gedirdi, camaat da məmnun qalırdı. Cavan musiqiçilərdən biri də dedi ki, ağsaqqal, o vaxt sintezator yox idi, ona görə trio ilə gedirdilər, indi daha rahatdır.

Məzmunu qoyub formaya aşırı diqqət verməkdəndir ki, bəzən adam qara qarğaların içində ağ qarğa kimi, yeni yad-yabançı görünür. Belə olanda da qara qarğalar tökülüşür, kömür-filan götürüb ağ qarğanı boyayır, ən azı ala qarğaya çevirirlər.

Düzdür, orijinal olmaq, unikal görünmək yaxşı şeydir, amma bu, ehtirasların qızışdığı dövrdə şəxsi təhlükəsizliyi təhdid edəcəksə, Allah kəssin elə orijinallığı. Orijinal görünmək üçün uzun saqqal saxlayan rəssamı "ədə, bu vəhhabinin qabağını kəsin, qayçı gətirin" deyə küçədə böyüzm eləsələr, onun köməyinə Van Qoq da gəlməyəcək, Salvador Dali də. Çünki insanların kütləvi şəkildə dəliyə döndüyü bir zaman yetişib.



# Adiləşən rüşvət

Mahal İSMAYILOĞLU
mahal57@mail.ru

**Hər gün axşamüstü gün dönüb, kölgə düşəndə bizim binada yaşayan qocalar həyətdə baş-başa verirlər, ölkədaxili və beynəlxalq məsələləri saf-çürük edirlər. Daimi mövzu yoxdur, kim söhbəti hansı səmtə yönəltsə, müzakirə olunur... Amma dünyanın o üzünü də, bu üzünü də görmüş, keçmişlə indinin fərqini öz canında sınayan bu ixtiyarların sözündə-söhbətində çox mətləblər ortaya çıxır... Çəkinmədən dərd-sərlərini bölüşürlər...**

...Radioda xəbərlər səslənir. İstər-istəməz hamı qulaq asır. Ukraynada döyüşlər... İspaniya kralının qızı korrupsiyada ittiham olunur, daha kral istəmirlər... Sarkozini külli miqdarda pul aldığına görə polisdə sorğu-suala çəkirlər...

Araya ani bir sükut çökür. Yaşlı bir adam bu olayları dəyərləndirir: "Bunun nəyi kral oldu ki? Əgər o, ölkənin sahibidirsə, onunla haqq-hesab çəkən kimdir? Kralın qızı elə yaşamalıdır də..."

"Bizim cəmiyyətdə formalaşan düşüncə prizmasından yanaşanda, kralı nədəsə günahlandırmaq əcaib görünür. Elə heç özümüzü öz krallarının üzünə ağ olan, buna görə də "bizə kral lazım deyil!" - deyə etiraz edənlərin yerində təsəvvür edə bilmirik" - bunu da indi təqaüddə olan müəllim deyir .

"Düzdür, indi bizim ölkəmizdə nə şah, nə sultan, nə də kral var... Amma kralı da öz varı-dövləti ilə kölgədə qoyan, şahların, sultanların həsəd aparacağı varlılarımız var. Özü də çoxdur - sayasan, iki əlinizdəki barmaqlar da bəs eləməyəcək... Bəlkə də elə bu səbəbdən ispanlar bir kralın yaxasını silkələyirlər. Biz isə heç ayırd da edə bilmirik ki, ölkədəki talanın, rüşvətin, korrupsiyanın qədərindən söhbət düşəndə kimin yaxasından yapışaq... Odur ki, incəliklərə varmadan kimin kimdən daha varlı olduğunu götür-qoy edirik. Bundan da bezəndə, bir nəticə hasil olmayanda, əsl müsəlmana dönürük, deyirik ki, əşşi özgəsinin pulunu saymaq, ona göz dikmək günahdır..."

Elə o "çoxbilmiş" qoca İspaniya kralına yazığı gələnlərin üzünü yoxuşa dirəyir: "Bax, o gün özüm qəzetdə oxudum ki, Bakıda bir müəllimi tələbələrin hərəsindən yüz manat alıb qiymət yazırmış... Amma onu tutan, daha doğrusu, kiminsə əvvəlcədən bələdlədiyi məqamda başının üstünü alan isə Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin işçiləri olub... Nə işinə qalıb onların? Qoy hökumətimiz, dövlətimiz bir dənə də rüşvətə qarşı mübarizə idarəsi yaratsın... Az alanla çox alan biri-birlərinin ayağını tapdamasınlar. Çörəyinə qənim kəsilməsinlər... Başları az alana qarışır, çox alan da yaddan çıxır, zülmü-sitəmi də biz çəkirik..."

O biri qoca bu "intellektual" mübahisədə öz bildiyini doğru sayır: "Əşi, rüşvət deyilən nə varsa, elə o korrupsiya adlı bəlanın qabağına atılan yemdir. Hər səfə çəkən bir inək versə, elə ağanınkı naxır olur də..."

Daha bir qoca da tarixə istinad edir: "Mən min dəfə Allaha şükür eləyirəm ki, Fransada yaşamıram, elə bil başqa dərdləri-azarları yoxdur... Onların bir qoca prezidentləri var idi, bizim bir deputatımız da onun adını qudurmuş qoymuşdu... Adı nəydi?.."

"Deputatın, yoxsa prezidentin..."

Qocanın səsi bir az da ötkəmləşdi: "Prezidenti deyirəm..." O qocanın köməyinə yetən: "Jak-Şirakımı?" "Hə...həə" - deyə qoca canıyananlıqla başını yellədi: "Onun da yaxasına çökmüşdülər ki, Misirə istirahətə gedəndə niyə ailəni də özünlə aparıbsan... Bəyəm prezident olanın buna da ixtiyarı çatmır? Heç elə ölkədə prezidentliyin bir qara qəpik qədər də qiyməti yoxdur..."

O biri qoca isə tarixə istinad edir: "Fransızlar həmişə elə olublar... Seçiblər, bəh-bəhlə başa çıxarıblar. Aradan bir az vaxt keçən kimi haqq-hesab tələb ediblər. Düz gəlməyəndə isə endiriblər. Bizim camaat böyüyün üzünə ağ olmaz, biz tarix boyu şahsevən olmuşuq".

"Yox, hamısından yaxşı öz ölkəmizdi, biz qıraqda durub tamaşa edirik: bir də görürsən ki, illərlə haram yığanın bir anda yurdu-yuvası necə viran qalır. Birini vəzifədən çıxardırlar. Qalanlar qarğa-quzğun kimi daraşıb gedənin malını-mülkünü öz aralarında bölüşdürürlər... Baxırıq ürəyimizdən tikan çıxır. Lap kinolardakı kimi".

İspaniya kralından başlayan söhbət ölkəmizə yaxınlaşanda elə bunu müzakirəyə çıxaran qoca məsələyə nöqtə qoydu: "Vallah, billah, mən gözümü açandan görmüşəm ki, bu ölkədə rüşvət verməsən işin aşmır. Bir əmması var ki, əvvəl bu qədər deyildi. Gəlin Allaha şükür eyləyək ki, bu ölkədə yaşayırıq... Bircə artdıqca dönüb o zəhrimar korrupsiyaya çevrilməsin. Belə də yaşayarıq".

Bax, bu ölkədə böyük talan beləcə adiləşi.

# Məşhur iş adamını bitirən səbəblər...

## "Hafka" ölkədən qaçmaq istəyib; Hafiz Məmmədovun maliyyə krizisinə girməsi xəbərləri bir oyundur; onun vəziyyəti heç də göründüyü qədər çətin deyil; "Hafka"nın Avropa banklarının yalnız birindəki hesabında 1 milyard avro var...

**"Bakı" futbol klubunun prezidenti, "Hafka" kimi məşhurlaşan iş adamı Hafiz Məmmədov ölkədən qaçarkən saxlanılıb. Bu haqda qaynar.info saytı xəbər yayıb. Sayt iddia edir ki, Hafiz Məmmədov ölkədən qaçarkən hüquq-mühafizə orqanları tərəfindən Bakı Hava Limanında saxlanılıb və geri qaytarılıb.**

Məlumatı yayan mənbə iddia edir ki, hazırda iş adamı nəzarətdədir. Bakı Hava Limanından isə axar.az-a belə bir halın qeydə alınmadığını deyiblər. DİN də olaya qeyri-müəyyən reaksiya verib. Məsələnin maraqlı tərəfi isə budur ki, haqqında bu cür iddiaların getməsinə rəğmən, Hafiz Məmmədovun özündən, yaxud səlahiyyətli nümayəndəsindən heç bir təkzib, ya da hər hansı bir reaksiya yoxdur.

H.Məmmədovun adı son günlər mətbuatda çox hallanırdı. Belə ki, "Baghlan Group"-un prezidentinin biznes fəaliyyətindəki "axsamalar", ölkədə ən güclü futbol kulublarından biri hesab olunan "Bakı" futbol klubunun bazasının satışa çıxarılması, "Bank of Azerbaijan" ətrafında yaranan böhran və "Hafka"nın nəqliyyat naziri Ziya Məmmədovla əlaqələri medianın gündəmindən düşmürdü. H.Məmmədovun nəzarət səhm paketinə sahiblik etdiyi Fransanın "Lans" klubuna da son günlərə qədər on milyonlarla dollara yaxın borcu olub. İyulun 3-də isə "Hafka" "Lans"ın hesabına 10 milyon dollar ödəməklə borcu 11.5 milyona qədər endirə bilib. Virtualaz.org saytı xəbər verir ki, "Lans" klubunun prezidenti Jerve Martel H.Məmmədovun klubun bank hesabına 10 milyon avro köçürdüyünü təsdiqləyən sənədi təqdim edib. Xəbər verildiyi kimi, "Hafka" bu il yüksək liqada oynayacaq "Lans"ın 43 milyon avroluq büdcəsinin təxminən yarısını vermək barədə öhdəlik götürüb. Lakin o, may ayında ödəmə haqda sənədləri imzalasa da pulları hesaba köçürməyi ləngidirdi. Fransanın Peşəkar Klublara Nəzarət Komissiyası (DNCG) yetərli maliyyə qarantiyasının olmamasını və pulların iyunun 26-dək köçürülmədiyini əsas gətirərək klubun yüksək liqada oynamasına icazə verməyib. Jerve Martel "Hafka"nın kluba 10 milyon avro köçürdüyünə dair sənədi DNCG-yə təqdim edib və indi komissiyanın qərarının dəyişdirilməsini gözləyir. Lakin klubun büdcəsinin formalaşması məsələsi bununla da tam həll edilməyib. İndi "Hafka" vəd etdiyi qalan 10 milyon avronu da köçürəcəyinə dair möhkəm təminat verməlidir.

"The Daily Mail" qəzeti isə yazır ki, "Lans"a vəd etdiyi pulları çətinliklə tapıb göndərən "Hafka" İngiltərənin II liqada oynayan "Şeffild Uednesdi" ("Sheffield Wednesday") klubunun səhmlərinin 100 faizinin alınması üçün vəd etdiyi pulları da hələ ödəməyib. Baxmayaraq ki, klubun səhmlərinin alınmasına dair bütün sənədlər imzalanıb. İndi klubun keçmiş sahibi, prezident vəzifəsində qalan Milan Mandariç "Şeffild Uednesdi" üçün yeni futbolçu transferlərinə tərəddüd edir: "Bu, heç də xoş olmadı. Gözləmək məcburiyyətindəyik. Stüart Qrey kimi bir neçə futbolçu cəlb edib komandanı yaxşılaşdırmağa can atırdıq" - deyə M.Mandariç bildirib.



"Hafka"nın Azərbaycandakı klubu "Bakı" ağır maliyyə böhranındadır və bu günlərdə klubun səhmlərini onun əlindən nəqliyyat nazirinin oğlu Anar Məmmədov və Beynəlxalq Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyev alıb. Belə ki, "Hafka"nın Beynəlxalq Banka iri məbləğdə borcu var və səhmlər onun borcunun bir hissəsi kimi alınıb.

"Hafka"ya qarşı addım atanların sırasına nəqliyyat naziri Ziya Məmmədovun oğlu vasitəsi ilə qoşulmasının da özəl səbəbi var. Nəqliyyat naziri bu addımı ilə ona yaxınlığı ilə tanınan "Hafka"nın biznesinin tam nəzarətindən çıxmasına çalışır. "Yeni Müsavat"a daxil olan məlumata görə, H.Məmmədovun maliyyə vəziyyəti heç də göründüyü qədər çətin deyil. Onun Avropa banklarının birindəki hesabında 1 milyard avro pulunun olması haqda bilgi var. Və həmin para çox yüksək səviyyəli qarantiya altındadır. Yəni H.Məmmədov hansısa 20-22 milyonu tapıb "Lans" futbol klubuna ödəyə bilməyəcək qədər kasıb deyil. "Hafka"nın Azərbyacandan çıxarılmasının kökündə onun Fransada özünün məşhurlaşması yönündə atdığı addımlar, xərclədiyi fantastik pullar əsas rol oynayıb. Nəqliyyat nazirinə yaxın oliqarxın bu hərəkəti hakimiyyət daxilindəki 2 əsas qruplaşma rəhbərliyindən birinin xoşuna gəlməyib. Bundan sonra həmin qruplaşmanın nəzarətində olan Azərbaycan Beynəlxalq Bankına H.Məmmədovun məhkəməyə verilməsi və "Bakı" futbol klubunun əlindən alınması tapşırılıb.

H.Məmmədovla bağlı redaksiyamıza daxil olan məlumatları təsdiqləyən fikirləri bu ilin fevralında

"France Fotball" nəşrinə Fransanın "Mets" klubunun keçmiş müdafiəçisi, 2010-2011-ci illərdə "Bakı" futbol klubunda oynamış Stefan Barbikoni demişdi. Futbolçu

"Lans" klubunun yeni sahibi, azərbaycanlı oliqarx Hafiz Məmmədovla "Bakı"da oynadığı vaxtlarda "görüşdüyünü" deyib.

"Hafiz Məmmədov istəsə "Lans"a 20 milyon yox, lap 40 milyon avro da verə bilər! Futbol onun üçün qətiyyən qazanc mənbəyi deyil. Hafiz Məmmədovun bir neçə milyard avro pulu, Londonda, Dubayda, Bakıda və Moskvada fəaliyyət göstərən çoxsaylı neft-qaz, taksi, tikinti şirkətləri var" - deyə S.Barbikoni bildirib.

"Bakı"nın keçmiş oyunçusu "Hafka"nın Fransa futboluna pul qoymasının motivlərini "özünü təbliğ etmək istəyi" ilə izah edib. Stefan Barbikoni bundan əvvəl Fransa mətbuatına Hafiz Məmmədovun "Bakı" klubunun braziliyalı oyunçusunun uşağının anadan olması münasibətilə ona "bir uşaq arabası dolu pul verdiyini" demişdi.

"Lans" klubunun keçmiş müdafiəçisi, kapitanı və məşqçisi olmuş Jan-Gay Vallem isə "France Football"a açıqlamasında deyib ki, Hafiz Məmmədov bu kluba 20 milyon avro qoyubsa, deməli, onun nəsə gizli motivi olmalıdır. "Əgər o, 20 milyon avro yatırırsa, deməli buradan nəsə etmək istəyir" - deyə keçmiş kapitan bildirib.

Bu "gizli motiv" hər nədirsə, deyəsən tərs təpib və artıq iş adamını bitirməkdədir.

❑ E.HÜSEYNOV

# Prokurorluğun protesti protest doğurdu



**Respublika Baş Prokurorluğu Sabunçu Məhkəməsinin Bakı Dövlət Universitetinin (BDU) hüquq fakültəsinin sabiq dekan müavini, hüquq elmləri doktoru, professor Məhəmməd İmanlının məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülməsi barədə qərarından protest verib. Protestin verilməsinin səbəbi bəlli deyil. Bilinən odur ki, Bakı Apelyasiya Məhkəməsində protest əsasında məhkəmə prosesi keçiriləcək.**

Protestin verilməsinə protest edənlər də var. Redaksiyamıza müraciət edən və adının çəkilməsini istəməyən vəkillərdən biri deyib ki, prokurorluq M.İmanlıya münasibətdə ədalətli mövqedə deyil: "Narkomanları, cəmiyyət üçün daha təhlükəli olan şəxslərin məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülməsinə dair qərarlar, demək olar ki, hər gün verilir. Və həmin qərarlardan protest verilməsi çox nadir hallarda baş verir. Belə bir situasiyada M.İmanlının məntəqə tipli cəzaçəkmə müəssisəsinə köçürülməsini etiraz etmək anlaşılmır".

Qeyd edək ki, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə M.İmanlı 3 il müddətinə azadlıqdan məhrum edilib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014

# "Taktikanı dəyişmək lazımdır"

## İqbal Ağazadə: "Azərbaycan iqtidarı da cəmiyyətlə işləmir, təşkilatlar üzərində isə basqı qurur"

**İyulun 3-də Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat" qəzetinin qonağı olub. Müsahibənin son bölümünü təqdim edirik.**

(Əvvəli ötən saylarımızda)

***- Sizcə, Azərbaycan hökuməti öz vətəndaşlarının gedib böyük bir coğrafiyada amansız qətllərə, dağıntılara səbəb olan terrorçu təşkilata qoşulmasına niyə göz yumur?***

- Bu, yalnız Azərbaycanın problemi deyil ki? Bayaq dediyim kimi, çox təəssüf, XXI əsrdə din anlayışı təşkilat anlayışına çevrilib. İki gün öncə İspaniyada göstərilən bir kadr bütün ölkəni ayağa qaldırdı. Mən bir ispanın İŞİD-in tərkibində vuruşmasına aid kadrları nəzərdə tuturam. İndi bəlli olub ki, ispanəsilli bir neçə İspaniya vətəndaşı İŞİD-in tərkibində müsəlmanlara qarşı vuruşur. Onlar İspaniyada da İŞİD bayrağı dalğalanacağı ilə bütün vətəndaşları təhdid edib. İspaniyada bu məsələ ilə bağlı cəmiyyət institutları hakimiyyət qarşısında konkret tələblər qoydular, vətəndaşların terror qruplaşmalarına qoşulmaması üçün nəzarət mexanizminin daha da gücləndirilməsini tələb etdilər. Azərbaycanda İslam dini ilə bağlı təşkilatların möhkəmlənməsi üçün şərait var. Təbii, bunun əsas səbəbi ölkə vətəndaşlarının az qala 100 faizinin müsəlman olmasıdır. Azərbaycan kimi ölkələrdə bu tip problemlər ola bilər. Kapitalın əldə çox cəmlənməsi, kapitalın təhlükədən qorunması üçün birləşdirilməsi, ciddi ideoloji təbliğat aparılması kimi ciddi səbəblər bu cür təşkilatların coğrafiyasını genişləndirir. Ona görə də Azərbaycan iqtidarı bu sahədə cəmiyyətlə daha çox işləməlidir, nəinki təşkilatlarla. Azərbaycan iqtidarı da cəmiyyətlə işləmir, təşkilatlar üzərində isə basqı qurur. O basqı, demək olar, bütün hallarda əks-effekt yaradır. Malikinin İraqda sələflər üzərində yaratdığı basqı çox güclü idi, hətta demək olar, heç bir ölkədə belə ciddi basqı yox idi. Ancaq nə oldu? Sələflər 12 minlik ordu ilə ortaya çıxdılar. Yeni basqı, cəzanın ağırlaşdırılması heç də hər zaman problemin çözümünə gətirmir. Burada cəzanın ağırlaşdırılmasından daha çox təbliğat işlərinin maksimum gücləndirilməsinə ehtiyac var. Cəmiyyətin demokratikləşməsinə daha çox meydan verilməsi, açıq cəmiyyət institutunun təkmilləşdirilməsi, siyasi partiyaların daha üstün duruma gətirilməsi bu prosesləri əngəlləyə bilər. Əgər belə olarsa, insanlar seçim anında məqsədi bilinməyən təhlükəli dini cərəyanların yanında yox, siyasi institutların yanında olmağa üstünlük verər. Şərq ölkələrinin ən böyük bəlası o oldu ki, siyasi dəyişikliklər zamanı ortada siyasi institutlar olmadı və radikal dini cərəyanlar bütün təşəbbüsü asanlıqla ələ ala bildilər. Azərbaycanda siyasi institutların zəifləməsi ayrı-ayrı dini qruplaşmaların ölkəyə ayaq açmasına və daha çox tərəfdar toplamasına səbəb oldu. Azərbaycan hakimiyyəti, nəhayət, indi siyasi institutların önünü açmalıdır ki, proseslər siyasi institutlar vasitəsilə gerçəkləşsin. Çünki siyasi institutlar öz fəaliyyətlərində ideoloji olaraq dünyəviliyi seçən, dünyəvi dəyərlərlə hərəkət edən təşkilatlardır. Onlar kimlərinsə evində qanundan kənar, silahlı və ya silahsız, pullu və ya pulsuz fəaliyyət göstərən qurumlar deyil.

***- İqbal bəy, mövzuya uysa da, uymasa da, bir sual verək: bu yaxınlarda namaz qıldığınız zaman çəkilən şəkliniz yayıldı. Şəkli bir neçə sayt "İqbal Ağazadə namaza gəldi" başlığı ilə yaydı. Biz "türmə yoldaşı"yıq. Mən bilirəm ki, siz illər öncədən namaz qılırsınız.***

- Mən 10 ildən artıqdır namaz qılıram.

***- Yəni "namaza gəldi" başlığı 10 il gecikib...***

- Belə də demək olar. Biz sonuncu dəfə Türkiyədə olanda Süleymaniyyə məscidində idik. Tale elə gətirdi ki, dostlardan biri şəkli çəkib paylaşdı, mən də onun səhifəsindən şəkli paylaşdım, beləcə qısa zamanda sosial şəbəkələrdə yayıldı. Mən bunu təbliğat üçün etmədim. Yenə deyirəm, din mənim üçün inam, iman məsələsidir. Din mənim üçün təşkilat anlamına gəlmir.

***- Təşkilatınızın durumu necədir? 2015-2018 havasına, açılımına hazırsınızmı?***

- Hələ 2014-cü il uğrunda çalışırıq.

***- Konkret nəyi nəzərdə tutursunuz?***

- 2014-cü il bələdiyyə seçkilərinə hazırlaşırıq. Düşünürük ki, ən azı 900 subyekti əhatə edən namizədlər siyahımız olsun.

***- Bayaq dediniz, bələdiyyələrin heç bir səlahiyyəti yoxdur. Səlahiyyətsiz orqana seçilmək Ümid Partiyası üzvlərinin nəyinə lazımdır?***

- Səlahiyyət də yoxdursa, cəmiyyətdə nüfuz da yoxdur. Hakimiyyət qəsdən gətirib o vəziyyətə çatdırıb ki, prosesdə iştirak edən az olsun. Biz bunu dərk edirik və prosesdə qazancımız nə qədər az olsa da, iştirak etmək qərarı vermişik. Biz bunu həm də ona görə edirik ki, proses özü özlüyündə dayanmasın. Ona görə də mümkün qədər çox dairədə Ümid Partiyası üzvlərinin namizədliklərinin irəli sürülmələrini təşkil edəcəyik. Bu günə qədər təxminən 2500 qədər üzvümüzün sənədləri hazırlanıb qarşıdakı ayda da çalışacağıq ki, proses davam etsin. Sentyabrda biz seçkiyə tamamilə hazır olmağı düşünürük.

***- 2015-ci il parlament seçkilərinə hazırlıqlar necə gedir?***

- 2015-ci il hazırlıqları, 2014-cü ilin hazırlıqlarından asılı olacaq.

***- Sizin parlament seçkilərinə yönəlik "125-lər kulubu" adlı projeniz də var. Necə gedir işlər? Bu klub bələdiyyə seçkilərinə hesablanmayıb deyəsən.***

- Bu, sərbəst bir projedir. Mən də onun iştirakçılarından biriyəm. Proses davam edir.

***- Bu parlament seçkisinə "125-lər"in üzvü kimi gedəcəksiz?***

- Bəli. Bir məqamı da vurğulayım - mən "125-lər"in adından danışmağa səlahiyyətli deyiləm.

***- İqbal bəy, bu yaxınlarda Müsavat Partiyasının qərargahında Düşüncə Mərkəzi yaradılıb. Bu formata necə baxırsınız?***

- Düşüncə Mərkəzində dostlarımız var. Onlara kifayət qədər hörmət edirik. Ancaq düşünürəm ki, heç bir halda bir mərkəz siyasi partiyalardan hər hansının funksiyasını yerinə yetirə bilməz. Mən düşünürəm ki, Ümid Partiyası Düşüncə Mərkəzinin funksiyalarını bu qurumun özündən daha çox yetirir. Mən bu məsələyə daha çox çay süfrəsi arxasında oturub müzakirələr aparmaq kimi yanaşıram. Konkret qərar qəbul olunmursa, qərar qəbul olunsa belə, onu icra edəcək mexanizm yoxdursa, burada hansı effektli işdən danışmaq olar?

***- Bəlkə gələcəkdə Düşüncə Mərkəzi sizin dediyiniz funksiyaları həyata keçirəcək mərkəzə çevriləcək?***

- Bir neçə partiya var ki, onların birliyi təmin edilməsə Düşüncə Mərkəzi ciddi mərkəz olmayacaq. Müsavat Partiyası, Ümid Partiyası, ADP, AXCP bir yerdə olmayacaqsa, ciddi fikir mərkəzi, ya da müxalifətin başqa formatlı ciddi birliyi olmayacaq. Bundan öncəki dönəmlərdə bunu görmüşük. Düşüncə Mərkəzi adının mənasını gerçəkdən daşımaq istəyirsə, bütün müxalif gücləri özündə birləşdirməlidir. Bu partiyalardan biri bu funksiyanı təkbaşına yerinə yetirə bilməyəcək.

***- Siz "Asiman formatı"nı təklif edirsiz?***

- "Asiman formatı"nı mən təklif etmirəm. Bunu cəmiyyət təklif edirdi. Amma orada biri əskik, ikisi artıq da ola bilər. Bu, çox şeyi dəyişməz.

***- Sizcə, belə bir təşəbbüsə ümumiyyətlə ehtiyac varmı? Sizcə, ümumiyyətlə Qərbin demokratik açılıma, bütövlükdə müxalifətə baxışları necədir? Qərbin müxalifətdən konkret bir istəyi varmı? Qarşılıq olaraq nə vəd olunur?***



**"Qərbin Azərbaycan müxalifətindən yox, Azərbaycandan istədikləri var"**

- Qərbin Azərbaycan müxalifətindən yox, Azərbaycandan istədikləri var. Təbii, Azərbaycandan istədiklərinin içərisində Azərbaycan müxalifətinin üzərinə düşən vəzifələr də var. Bu gün Azərbaycan müxalifətinin böyük hissəsi Qərb təsisatlarından çox incikdir. Ona görə də Qərblə başqa dildə danışmağa meyllidirlər. Müxalifət təmsilçilərinin Qərb dairələri ilə görüşlərində bu inciklik çox aydın hiss olunur. Bəzən Qərbə deyilir ki, siz bu işi görməliydiniz, etmədiniz. Qərb bəzən bu məsələlərdən şoka düşür ki, Azərbaycan müxalifətinin demokratikləşmə prosesində üzərinə düşən vəzifəni bizmi yerinə yetirməliyik, yaxud bu addımları sizin əvəzinizə bizmi atmalıyıq?

***- Siz bu məsələdə Qərbin tərəfindəsiniz?***

- Bəli, mən Qərbin tərəfindəyəm. Azərbaycan müxalifəti olaraq bizim üzərimizə düşən vəzifələr var. Məsələn, sabah bələdiyyə seçkiləri gəlir. Biz özümüzə sual edirik. Biz bu prosesin yürüməsi üçün nə etdik? Bu gün bu proqnozu burda deyirəm, 2 aydan sonra bu reallıqla üzləşəcəyik - Azərbaycanın qosqoca müxalifət partiyaları sentyabr ayında qərar verəcəklər ki, bələdiyyə seçkilərində partiya üzvləri könüllülük prinsipi üzrə iştirak edəcək. Yəni partiya işləməyəcək, kim gedir, getsin. Bu qərar da birmənalı olaraq hakimiyyətin xeyrinə işləyəcək. Ona görə də iqtidar deyir ki, müxalifətin gücü yoxdur. Bəli, bu gün Ümid Partiyasının seçkidə iştirak edəcək 16 min üzvü yoxdur. Bunun obyektiv səbəbləri var. Bu vəziyyəti hakimiyyət yaradıb. Qorxu var, basqı var. Keçən bələdiyyə seçkilərində bir gecə rayonların birində 106 nəfər Ümid Partiyası üzvünü namizədliyini geri götürməyə məcbur elədirlər. Məcburən, zorla. Hətta bu şəraitdə belə biz düşünürük ki, seçkiyə getməliyik. Biz hesab edirik ki, partiyalar birləşməlidir, kim hansı bölgədə güclüdürsə, o namizədin qələbəsi üçün ortaq çalışmalıdır. Azərbaycan müxalifəti bilirsizmi nə edir? Ətrafına insan toplamaq yerinə, illərlə ətrafında olan insanları da qaçırır. Ona deyir iqtidara işləyirsən, buna deyir sənin keçmişin qaranlıqdır, o birisinə deyir, sən gələcəyə düz baxmırsan. Beləcə, hər kəsi özündən uzaqlaşdırır. Bu da gücün itirilməsinə səbəb olur. Dünyaya, qonşumuz Türkiyəyə baxmaq lazımdır. Keçmişində hansı mövqeni tutması, hansı partiyanın üzvü olmasından asılı olmayaraq insanlar şəraitə uyğun davranır, bəzən bu partiyadan digərinə transfer edir. Demokratlar var ki, qatı dinçi mövqeyi olanlarla eyni masa arxasında əyləşib müzakirələr aparır. Çünki müxalifətçiliyin fəlsəfəsi ətrafına daha çox insan toplayaraq hakimiyyətə gəlməkdir. Bu taktika dəyişməlidir.

***- Belə başa düşdük, yay boyunca istirahətiniz yoxdur.***

- Yox, inşallah, bütün yayı işləyəcəyik. Sentyabrın 1-də partiya olaraq bələdiyyə seçkilərində üzərimizə düşən kvotanı yerinə yetirməyi düşünürük. Ayrı-ayrı rayonlarda müşavirələrimiz var, Bakıda bir neçə toplantı gözlənilir.

***- Uğurlar olsun.***

**Qələmə aldı**
**Aygün MURADXANLI**



# 100-dək saymaq problemi

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Əslində başqa mövzudan yazmaq istəyirdim. Əlimi klaviaturaya uzatmışdım ki, mobil telefonuma növbəti intiharla bağlı qara xəbər gəldi. Bu dəfə Lerikdə 3 uşaq atası özünü asaraq həyatına son qoyub. Rayon mərkəzinin 3 km-liyindəki Lüləkəran kəndinin 40 yaşlı sakini kommunal təsərrüfat sahəsində fəhlə kimi çalışırmış...**

Elə bir gün olmur ki, intihar olayı baş verməsin. Elə srağagün Xaçmaza dayısıgilə qonaq gedən 18 yaşlı gənc atasının ölümünə dözməyib özünü asmışdı. Təsəvvür edin, evə gələn qonaq kəndiri boğazına keçirir. Dəhşətlisi odur ki, bir müddət öncə bu gəncin atası da eyni üsulla - özünü asaraq həyatına son qoyubmuş.

Balaca bir ölkədə nə qədər qara xəbərlər olarmış...Musavat.com-un xəbər bülletenində bir xəbər oxudum, adamın ürəyi parçalanırdı. Siyəzəndə Ceyranbatana gedən kanalda 12 və 13 yaşlı qardaşların ata-anası bu dərdə dözməyərək özlərini elə övladlarının batdığı kanala atmaq istəyib. Böyük faciədir, adam xəbəri belə həyəcansız oxuya bilmir, buna ata-ana ürəyimi dözər? Üstəlik də qardaşlardan birinin meyiti hələ də tapılmayıb.

FHN daha iki yeniyetmənin isə Kürdə batması haqda xəbər yayıb. Bu dəfə də 14 və 16 yaşlı yeniyetmələr nəzarətsiz ərazidə çimərkən boğulub ölüb. Görün təkcə su ilə bağlı neçə ailədə müsibət, vay-şivəndir.

Son günlər yenə də orduda bıçaqlama, "ehtiyatsızlıqdan" əsgər yoldaşını güllələmə xəbərləri yayıldı. Kimisi hospitala, kimisi də həbsə getdi. Düzdür, ordu da cəmiyyətin bir hissəsidir. Amma cəmiyyətin digər kateqoriyalı insanlarından fərqli olaraq əsgər daim nəzarət altında olmalıdır. Bəs, hardadır o əsgərin tağım, bölük, hissə, briqada komandiri? Deməli, kimsə, nəsə yerində olmayıb ki, əsgər bıçaq götürüb yoldaşının qarnına soxub, ya düşmənə tuşlamalı olan avtomatı əsgər yoldaşlarına çevirib gülləni boşaldıb. Digər tərəfdən əsgərin elementar silahla davranmaq problemi varsa, onda vay bizim halımıza. Heç olmasa deməyin "ehtiyatsızlıqdan" olub.

Demək olar ki, hər gün ağır yol qəzaları baş verir. Özü də bir ailənin bir neçə üzvünün həlak olması ilə. Sonuncusu haqda APA xəbər yayıb. Sumqayıt "Mercedes"in aşması nəticəsində sürücü və qardaşı ağır xəsarət alıb, anası və qardaşının həyat yoldaşı isə ölüb. Bütöv bir nəslin həyatına zərbədən söhbət gedir. Yollarda az qala ailələrin soyqırımı baş verir, genefondumuza zərbə vurulur, nə qədər uşaq valideynsiz qalır, talelər qırılır.

Bütün bu ölümlərin, intiharların səbəbi insan həyatının ucuzlaşmasıdır. Allahın verdiyi həyatdan, can sağlığından ki, şirin başqa bir şey yoxdur. İnsan övladı yarandığı gündən yaxşı yaşamaq, gün-güzəran görmək üçün çalışır. Ancaq bizim ölkədə insanlar arasında öz həyatına qıyanların, qıymaq istəyənlərin sayı çoxalır. Dəhşətlisi budur. Özü də hər yerdə. Piyada keçidini qoyub sürətli yolu digər tərəfə keçmək istəyənlə kəndiri boğazına keçirən, ya zəhər içib özünə qəsd edən arasında mahiyyətcə elə ciddi fərq yoxdur. Hər ikisi tələsir, ölümə doğru. Sanki hamı həyatından bezib. Polisin 20 manatlıq cərimə sanksiyası da təsir eləmir. Təkcə bir il ərzində Azərbaycan kimi kiçik ölkədə 2 minə yaxın adam yollarda həlak olursa, bu, dəhşətli rəqəmdir.

İntihar edənlərin doğru-dürüst statistikası məlum deyil, amma gündəlik qara xəbərləri toplayanda böyük siyahı alınır. Bunun üzərinə tikintidə, daş karxanasında, orduda ehtiyatsızlıqdan ölənləri, suda batanları, qazdan boğulanları da gələk. Cəmiyyət olaraq fəlakətli durumdayıq.

Bu cür ucuz ölümlərin artmasının bir səbəbi də bizim kütləvi savadsızlığımızla bağlıdır. Piyada yolu hardan keçməyin lazım olduğunu, sürücü sürət həddini aşmağın ölümə apardığını, suya girən dərinə getməyin təhlükəliliyini anlamır, nəticədə ailələr gözüyaşlı qalır. İntihara əl atanlar da bir anlıq düşünmür ki, bu, çıxış yolu deyil. 3 uşaq atası özündən sonra o körpələrin taleyinin necə olacağını düşünsə, bu yola əl atmaz. Az qala dəb halını alıb intihar məsələsi. Evdə söz-söhbət olur, ər, ya arvad özünü pəncərədən aşağı tullayır. Adam hərdən düşünür, biz nə ilə qidalandıq ki, bu kökə düşdük?

Bizim küll halında reabilitasiyaya, psixoloji yardıma ehtiyacımız var. Alimlər hesablayıb ki, istənilən intihara əl atmaq istəyən şəxs o anda əl saxlayıb 100-ə qədər sayarsa, öz fikrindən daşına bilər. 100 il yaşaya bilmədik, "günah özümüzdədir". Bəlkə heç olmasa hərdən millət olaraq 100-ədək sayaq...

# "Müstəqillik dövründə Azərbaycan ilk dəfə ciddi seçim qarşısındadır"

## Zəfər Quliyev: "Manevr etməyin də limiti var və bu limit bitəcək..."

**Geostrateji baxımdan mürəkkəb və maraqların toqquşduğu bölgədə yerləşən Azərbaycan supergüclərin diqqət mərkəzindədir. Rusiyanın Avrasiya İttifaqı layihəsini Azərbaycanın da hesabına böyütmək, Qərbin isə regionda möhkəmlənmək, bölgə dövlətlərini Avropa Birliyinə yaxınlaşdırmaq istəyi toqquşur.**

Bu toqquşmada arada qalan isə Azərbaycan da daxil olmaqla keçmiş SSRİ respublikalarıdır. Azərbaycan hakimiyyəti artıq xeyli vaxtdır Rusiya ilə Qərb arasında manevrlər etməklə prosesi ciddi itkilərsiz aparmaqdadır. Rəsmi Bakı mümkün olan bütün manevr imkanlarını işə salaraq, hələ ki, duruş gətirir. Tərəflər arasında manevr etmək və hər iki tərəflə bərabər məsafə saxlamaqla, potensial təhlükələri önləməklə xətti nə vaxta qədər davam edə bilər? Azərbaycanın bu manevrləri sonadək həyata keçirə biləcəkmi, yoxsa bir qırılma nöqtəsi olacaq?

Bu suallarla müraciət etdiyimiz politoloq Zəfər Quliyev bildirdi ki, Azərbaycan ciddi bir seçim qarşısındadır. Müstəqillik dövründə ilk dəfə olaraq Azərbaycanın qarşısında sərt formada seçim problemi durub: "Ona görə ki, əvvəlki illərdə Azərbaycan daimi manevrlər etsə də, ümumi geosiyasi strateji xətt şübhə altına alınmırdı. Azərbaycan Avropaya doğru inteqrasiya kursunu davam edirdi və müasir dünyanın bir hissəsi olmağa çalışırdı. İndiki mərhələdə ki, Qərblə Rusiya arasında sərt formada konfrontasiya yaranıb, bu, istər-istəməz bütün postsovet ölkələrini, o cümlədən Azərbaycanı seçim qarşısında qoyur. Bu situasiyanın nə qədər davam etməsi tək Azərbaycandan asılı deyil. Ona görə də istər-istəməz bu, ilk növbədə Rusiya-Qərb münasibətlərinin inkişafından asılı olacaq. Moskva doğrudan da neoimperiya siyasətini, postsovet ölkələrini nəyin bahasına olur-olsun Avrasiya İttifaqına daxil etmək xəttini sərt formada davam etdirəcəksə, istər-istər Qərblə münasibətlərdə gərginlik dərinləşəcək. Belə bir vəziyyətdə Azərbaycan Rusiya və Qərbin təzyiqləri arasında qalmaqda davam edəcək. Azərbaycan isə bu iki güc arasında manevr etməkdədir. Təzyiqlər artdıqca manevr etmək də çətinləşəcək".



Zəfər Quliyev

Politoloq hesab edir ki, indiki vəziyyətdə rəsmi Bakı hələlik uğurlu manevrlər edir, nə Rusiyaya, nə də Qərbə cavabını birmənalı ortaya qoymur, vaxt udur: "Azərbaycana Rusiya və Qərb təzyiqlə yanaşı, təkliflər də edir. İndiki mərhələ üçün doğrudur ki, bütün təklifləri dinləmək lazımdır. Lakin sözsüz ki, bir seçim anı olacaq, indiki vəziyyət daimi davam edə bilməz, manevr etməyin də limiti var və bu limit bir mərhələdə bitəcək. Seçim anı gələndə mən hesab edirəm ki, bizim ölkə rəhbərliyi Konstitusiyanı, Azərbaycanın milli, dövlət maraqlarını unutmamalıdır. Nə qədər cəlbedici təkliflər olsa belə, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü güzəşt predmeti ola bilməz. Qarabağla bağlı Rusiyadan nə qədər cəlbedici təkliflər olsa belə, burada qırmızı xətlər olmalıdır. Qırmızı xətt ilk növbədə Azərbaycanın müstəqilliyidir, ərazi bütövlüyüdür. İstərdim inanım ki, Azərbaycan sonadək bu qırmızı xətləri keçməyəcək, uğurlu bir seçim edəcək. Mən hesab edirəm ki, hakimiyyət uzun illərdir yürütdüyü strateji xətdən geri çəkilməməlidir, müasir dünyaya inteqrasiyanı davam etdirməlidir".

❑ Etibar SEYİDAĞA

# Dini Komitəyə sədr təyinatının ləngiməsinin pərdəarxası

## İki aydan çoxdur boş qalan posta uyğun namizədin tapılması istiqamətində məsləhətləşmələr gedir; yaxın zamanda təyinat gerçəkləşə bilər...

**Azərbaycanda dini sahəyə əsas cavabdeh qurum olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədri postu artıq iki aydan çoxdur boşdur. DQİDK-in sədri Elşad İskəndərov bu il mayın 2-də qəflətən tutduğu vəzifədən azad edilib. Komitə sədrinin işdən çıxarılmasının əsl səbəbi bəlli olmasa da, bir çox mütəxəssislərin rəyincə, sabiq komitə sədri öz işinin öhdəsindən gəlib.**

Məhz E.İskəndərov vəzifəyə təyin olunduqdan sonra ölkədə həddən artıq gərgin olan dini situasiya xeyli dərəcədə yumşaldı, hakimiyyətə qarşı əsas müxalif qüvvələrdən birinə çevrilmiş dini icmalar tədricən neytrallaşdırıldı, hətta dövlət komitəsi bir çox din xadimləri ilə əməkdaşlıq etməyə, icmalarla yaxından işləməyə başladı. Hesab olunurdu ki, E.İskəndərov bu sahədə uğurlu kadrdır və uzun müddət işləyəcək. Ancaq proseslər tam tərsinə cərəyan etdi və E.İskəndərov sələflərindən xeyli az işləyə bildi. Xatırladaq ki, Dini Komitənin birinci sədri Rafiq Əliyev bu postda 5 il (2001-2006-cı illər), Hidayət Orucov isə 6 il (2006-2012-ci illər) çalışıb.

Maraqlıdır ki, Elşad İskəndərovun işdən çıxarılması dini sahə ilə əlaqəli olan iki məqamla üst-üstə düşdü. Birinci hadisə Azərbaycanda başlayan "nurçu ovu" idi. Ötən ilin axırlarından etibarən Türkiyədə F.Gülən camaatı ilə AKP hökuməti arasında başlayan savaş sonradan Azərbaycana sıçradı və Bakıda olan "camaat"a yaxın şəxslər "vurulmağa" başladı. Qəribə də olsa E.İskəndərov vəzifədən çıxarılmadan öncə mediada ona qarşı aparılan qaralama kampaniyasında komitə sədrinin adı "nurçu" kimi hallanırdı.

Bu istiqamətdə ikinci maraqlı məqam Dövlət Komitəsi sədrinin işdən azad edilməsinin Azərbaycanda radikal dini cərəyanlara qarşı aparılan kampaniya ilə eyni dövrə təsadüf etməsi idi. Yanvar ayından ölkədə radikal təkfirçi qruplara qarşı edilən çağırışların fonunda hökumət təkfirçilərin əsas toplaşdığı məscidlərə qarşı addımlar atmağa başladı. Bir sıra bölgələrdə, o cümlədən Xaçmazda, İsmayıllıda, Şamaxıda və Bakı ətrafında Müşviqabad məscidində radikal çağırışlar edən din xadimləri və icma rəhbərləri məscidlərdən uzaqlaşdırıldı. Bu proses davam edirdi, ancaq E.İskəndərovun işdən çıxarılması ilə dayandı.

Əlbəttə, E.İskəndərovun işdən çıxarılmasının bu iki hadisədən hansı biri ilə əlaqədar olduğu, yaxud ortada başqa amillərin olduğunu demək mümkün deyil. Ancaq bir şey aydındır ki, indiki məqamda Komitə sədri postunun boş qalması məqsədə uyğun deyil. Ölkədə din sahəsində vəziyyət getdikcə daha da pisləşir. Sabirabadda yas məclisində bir neçə vəhhabinin mollanı döyməsi, ondan bir ay sonra isə yenə həmin rayonda bir şəxsin təbliğat aparan sələfini döyərək saqqalını kəsməsi, bu videonun yayıldığı gün Müşviqabadda radikalların yerli şiə dindarlara hücum edərək döyməsi gərginliyin artan istiqamətə getdiyini göstərir. Doğrudur, həm şiə ruhanilər, həm də sələfilərin lideri Qamət Süleymanov olayı pisləyən bəyanat verib. Ancaq bunun əksinə olaraq qızışdırıcı və körükləyici çağırışlar da oldu.




Bütün baş verənlərin fonunda indi əsas yük həm də DQİDK-in üzərinə düşür. İcmalar arasında münasibətləri qaydaya salmaq, düşmənçiliyin böyüməsinin qarşısını almaq, radikal, bölücü və nifrət çağırışları edən ruhanilərin məscidlərdən uzaqlaşdırılması, tolerantlığın təbliğinin təşkili kimi mühüm işlər DQİDK-in üzərindədir. Ancaq hazırda komitə sədri postunun boş qalması prosesləri daha da çıxılmaza dartır.

Hazırda komitə sədri vəzifəsini əvəzedici kimi aparan sədr müavini Səyyad Aran bu sahədə o qədər də qərarlı görünmür. Bu da ona işarədir ki, komitə sədri postu üçün yeni kadr axtarılır. Bu günlərdə posta təyinatla bağlı bir sıra məlumatlar əldə etmişik. Bizə gələn bilgilərə görə, hakimiyyət dini sahədə ciddi tədbirlər görmək xəttini tutub. Bunun üçün bir qədər əvvəl DQİDK-da yeni, üçüncü müavin postu təsis olunub və keçmiş MTN zabiti, uzun illər din sahəsinin kuratoru olmuş Siyavuş Heydərov bu vəzifəyə təyin olunub. Başqa bilgilərə görə, hakimiyyətdə hazırda komitəyə yeni sədrin təyinatı ilə bağlı məsləhətləşmələr gedir. Yeni sədr vəzifəsinə dini situasiyanı bilən, eyni zamanda təcrübəli və işgüzar şəxsin təyin olunması gözlənilir. Müəyyən namizədlərin olması ilə bağlı məlumatlar gəlsə də, hələlik konkret şəxsin müəyyən edilmədiyi qeyd olunur. Ancaq hazırda yeni sədrin müəyyən olunması ilə bağlı proses davam etdiyi üçün sədr təyinatının hər an baş verməsi ehtimalı da qalır.

O da bildirilir ki, yeni sədr Naxçıvan qruplaşmasından olmayacaq, daha çox hakimiyyətin ikinci soyadına bağlı şəxs olacaq. Bizə çatan başqa bir mənbənin bilgilərində isə yeni sədrlə bağlı ilkin qərarın olduğu, hələlik detallar üzərində işlər aparıldığı qeyd olunur. Bütün hallarda gələn məlumatlar, o cümlədən dini situasiyanın gündən-günə gərginləşməsi yeni sədr təyinatını tezləşdirir.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014



# "Şeyx getməlidir"

## Hacı Əbdül: "Bir gün xalq ayağa qalxsa, İŞİD təhlükəsi bunun yanında boş söhbət olacaq"

**Baxış bucağı"**

**Xalq arasında "Tövbə məscidi" kimi tanınan İmam Hüseyn məcidinin axundu Hacı Əbdülün proseslərə öz baxış bucağı var. Bir çoxlarından fərqli olaraq sözünü konkret deməyi bacaran Hacı Əbdülün vaxtilə söylədiyi məşhur fikirlər bu günə qədər yaddaşlardadır. "Yeni Müsavat"a müsahibəsində kifayət qədər sərt tonda Şeyxülislamı istefaya çağıran məscid axundu hətta bu postu daşımağa hazır olduğunu da bəyanladı. Sensasion fikirlərlə dolu müsahibədə Hacının şəxsi həyatında baş verən yeniliklərdən də hali olduq.**

***- Son vaxtlar İraqda başlayan qətliamlar, İŞİD terrorçu təşkilatının şiələrə, türkmənlərə qarşı törətdiyi qırğınlar bir din adamı kimi sizi narahat edirmi?***

- Əlbəttə ki, narahat edir. Biz bunu bilirdik və gözləyirdik. Hələ Allaha yalvaraq ki, bu hadisələr Azərbaycanda da olmasın. Burda da vəziyyət təhlükəlidir. Biz 20 il dedik, bunun qarşısını almaq lazımdır, amma heç kim əhəmiyyət vermədi.

***- Daha çox nəyə görə siz bu təhlükəni real sayırsınız?***

- O qüvvələr çox yerdə kök salıblar. Azərbaycanda da onların möhkəm kökləri var. Hansısa məqamda, fürsət düşən kimi o qüvvələr burda da başlaya bilərlər.

***- Bəs indiki vəziyyətdə onların qarşısını almaq üçün nə etmək lazımdır?***

- Xalq ayıq olmalı, səfərbər olmalıdır, ruhanilər camaatla möhkəm işləməlidir. Bundan əlavə, televiziyada heç olmasa həftədə bir dəfə İslam proqramları hazırlanmalı, əhali arasında təbliğat aparılmalıdır, camaat maariflənməlidir. Allah göstərməsin, bu gün o qüvvələr burda ayağa qalxsa, aləm bir-birinə qarışar. Onsuz da xalq doyub. Həm də bəzi ruhanilərin, dindarların dinə barmaqarası baxışından. Bu gün baş verən söküntülər, töküntülər, camaatın zorla evindən çıxarılması, haqsızlıqlar adamları cana doydurub. Bu gün xalq bir kibritin alışmasına bənddir. Allah uzaq eləsin. Günün birində bu xalq ayağa qalxsa, "İraq Şam İslam Ordusu" var ha, o ordu bunun yanında boş söhbət olacaq. Bizim dövlətimiz bir az ayıq olmalı, hakimiyyət xalqın qeydinə qalmalıdır. Ələlxüsus da oliqarxlara bu qədər fürsət verilməməlidir.

***- Bildiyimizə görə, siz Şeyxin də fəaliyyətindən narazısınız...***

- Əlbəttə ki. Məgər Şeyxin fəaliyyəti var? Şeyxin heç bir fəaliyyəti yoxdur. Nə fəaliyyət, bu, fəaliyyətdir? Şeyxin fəaliyyəti onda olar ki, məscidlərdə, televiziyada İslamın təbliği, xalqın maariflənməsi üçün addımlar atar. Günün birində elə hadisələr baş verə bilər ki, heç kəs onun qarşısını ala bilməz. Elə bu günlərdə Cümə məscidinə hücum etmişdilər. Yaxşı ki, dövlət onun qarşısını aldı. Amma elə etmək lazım idi ki, vəziyyət gəlib bu səviyyəyə çatmasın.

***- Şeyxülislam, yəqin ki, namaz vaxtı azanın verilməsini, məscidlərin fəaliyyətinin genişlənməsini istərdi. Sizə elə gəlmirmi ki, bu qadağalar onun iradəsinə zidd məsələlərdir və heç özünü də razı salmır?***

### "Bir şeyx ki, cihada hazır deyil, onun qalması yaxşıdır, ya getməsi?!"

- İradəsindən kənardırsa, onda orda iradəli bir şeyx otursun. Bu, sənin vəzifəndir, işindir. Belə şey olar? Oturubsan orda, susursan. Sən Allahın nökərisən, Allahın buyruğuna əməl etməlisən.

***- Hacı, belə demək olarmı ki, siz dolayısı ilə Şeyxi istefaya çağırırsınız?***

- İstefa məsələsi deyəndə ki... Onun "fatihə"si çoxdan oxunub.

***- Bu gün belə geniş beynəlxalq əlaqələrə malik olan ikinci bir ruhani varmı ki, Şeyxi əvəzləsin?***

- Çoxdur. Deyirsiniz adlarını deyək, onları da vurub sıradan çıxartsınlar? Bir şeyi deyim, dünya, region bizim nəyimizə lazımdır? Sən öz ölkəndə şeyxlik eləyə bilmirsənsə... Bu gün bizə evimiz lazımdır.

***- Amma Şeyxin alternativini göstərə bilmədiniz...***

- Biri elə mən özüm.

***- Siz Şeyxi əvəz edə bilərsiniz?***

- Canın da alaram, niyə olmuram?

***- Məncə, indiyədək belə iddianız olmayıb.***

- Heç indi də iddiam yoxdur. Amma vəziyyəti dəyişməyə hazıram.

***- Allahşükür Paşazadəni əvəzləsəniz, öncə islahatlara haradan başlayarsınız?***

- İlk öncə şeyxin özündən başlayaram.

***- Yəni?***

- "Yəni"si çoxdur, lap çox. Bunları indidən demək olmaz.

***- Ramazan ayı olsa da, Azərbaycan televiziyalarında azan səsi eşidilmir. Siz bu barədə nə deyə bilərsiniz?***

- Ay oğlum, bəs mən nə deyirəm. Bu Şeyx getməlidir. Elə belə-belə şeylərə görə getməlidir. Ramazan ayıdır, əhalisinin 90 faizi müsəlman olan ölkədə azan eşidilmir. Belə şey olar? Belə müsəlmançılıq olar?

***- Maraqlıdır, Şeyxlə sonuncu görüşünüz nə vaxt olub?***

- Çoxdan, yadıma gəlmir. Sizin sualınızdan sonra görüşəcəyəm. Hökmən görüşüb bəzi məsələlər barədə suallarıma cavab istəyəcəyəm. İstənilən halda o, bizim şeyximizdir.

***- Siz heç onun keçirdiyi tədbirlərə dəvət olunursunuzmu?***

- Dəvət olunanda iştirak edirəm, təbii ki.

***- Sizin rəhbərlik etdiyiniz məscid də paytaxtın köhnə "Sovetski" məhəlləsində yerləşir və ara-sıra məscidin də söküləcəyi barədə xəbərlər yayılırdı. Vəziyyət necədir?***

- Yox, o söküntülərin bizim məscidə dəxli yoxdur. Məni məscidin yox, ölkənin gələcək taleyi daha çox narahat edir. Bir Allah şahiddir ki, çox narahatam. Mən öz dəstəmlə bir həftə ərzində gedib İçərişəhər "Cümə" məscidində oturdum. Hücum edib hədələmişdilər. Gedib orda oturdum, məscidə nəzarət elədim ki, qəfildən gələrlər, aləm dəyər bir-birinə. Ordan Ruhanilər İdarəsinə, Hacı Salmana zəng elədim ki, siz hara baxırsınız, kimi gözləyirsiniz? Hacı Salman da Şeyxə deyib. Ondan sonra orda əməliyyat keçirildi. Yoxsa hansısa tədbir görmək fikirləri yox idi. O əməliyyat tapşırığını verənə də, icra edənə də halal olsun. Ancaq ümumən mən gah orda, gah burda əməliyyatların keçirilməsi tərəfdarı deyiləm. Mən kütləvi şəkildə maarifləndirmə işlərinin aparılması tərəfdarıyam. Onların əksəriyyətinin heç İslam dinindən xəbəri yoxdur.

***- "Cümə" məscidində həmin qüvvələr tərəfindən sizə qarşı hər hansı müqavimət olmadı ki?***

### "Hətta qadınlar da tövbəyə gəlir, əsasən də narkotikə görə..."

- Onlar bildilər ki, mən ordayam, yox oldular. Bir də ki, həmin qüvvələr mənə müqavimət göstərə bilməz.

***- Necə bilirsiniz, bu gün Azərbaycana daha çox təhlükə hardan, hansı qüvvələrdən gəlir?***

- Azərbaycana ən böyük təhlükə gəlir yox e, gəlib, burda oturub. Sadəcə, bir məqam gözləyir ki, ortaya çıxsın. Ona görə də hər an ayıq olmaq lazımdır.

***- İŞİD özünü xəlifə elan edib. Gerçək islamçı bizik deyirlər, amma baş kəsirlər. Üstəlik, Azərbaycanı da öz təsir dairələrinə aid edirlər...***

- Onların İslamdan xəbəri yoxdur. Azərbaycanda əhalini başa salmaq, təbliğat aparmaq lazımdır ki, belə halların qarşısı alınsın. İraqda bu hadisələri törədənlər Amerika və İsrailin qullarıdır. Orda təbliğat yoxdur, pul var.

***- Bu gün Azərbaycanda əsas söz sahibi iqtidardır, yəqin, hakim düşərgəyə ünvanlı mesajınız var...***

- Sözsüz ki, söz sahibi iqtidardır. Bu gün hakimiyyət xalqı düşünmürsə, heç olmasa özünü düşünsün.

***- Köhnə dostunuzla, eks-prezident Ayaz Mütəllibovla münasibətlər nə yerdədir?***

- Bizim köhnə dostluğumuz yoxdur. Hər hansı münasibətimiz-zadımız da yoxdur.

***- Bakıya dönüşündən sonra yəni heç bir görüşünüz olmayıb? Yubileyi oldu, təbrik də etmədiniz?***

- Yox, heç bir əlaqəmiz yoxdur.

***- Bəs, onun özündən necə, sizə müdafiə işlərinizə görə təşəkkür-filan oldumu?***

- Bizim təşəkkürə ehtiyacımız yoxdur, bu işləri Allah xatirinə eləmişik. Allahın adı olan yerdə təşəkkürə nə ehtiyac?

***- Ölkədəki təhlükəli durumdan danışdınız. Müqəddəs Ramazan ayında iqtidarlı-müxalifətli qüvvələrin iştirakı ilə bir tədbir təşkil oluna, barışıq istiqamətində addımlar atıla bilərdi. Siz necə, belə təşəbbüslərə ehtiyac görürsünüzmü?***

- Ehtiyac, əlbəttə ki, çoxdur. Belə addım atılsa, çox gözəl olar. Yaxşı olar ki, belə addımlar dövlət tərəfindən atılsın.

***- Elə din xadimləri, məsələn, Şeyx də belə addım ata, bir iftar süfrəsi açıb bütün tərəflərin nümayəndələrini dəvət edə bilər.***

- Sözsüz ki, Şeyx də edə bilər. O da bir hakimiyyətdir.

***- Bəs, sizin kimi din xadimləri necə, belə bir təşəbbüs göstərə bilərmi?***

- Bu, o dərəcəyə gedib çıxmaz. Çünki bu, çox ağır söhbətdir. Bunu ya dövlət eləməlidir, ya da Ruhani İdarəsi. Bizim o imkanımız da yoxdur. Özümüzü güclə dolandırırıq. O boyda millətə iftar verə bilmərik. Amma onlar eləyə bilər.



### "Hakimiyyət xalqı düşünmürsə, heç olmasa özünü fikirləşsin"

***- Yeri gəlmişkən, məsciddə nəzir qutularına ciddi nəzarət varmı?***

- Kim istəyir gəlsin, nəzirə nəzarət eləsin, nəzir də onların olsun. Nəzir olur. Amma o qədər olur ki, heç mühafizənin pulunu da ödəmir. Mən öz məscidimizdən danışıram, başqalarını demirəm.

***- Nəzirin azalmasını siz nə ilə izah edərdiniz?***

- Nəzir odur ki, könüllü surətdə verilir. Camaatın durumu ilə bağlıdır. Olan verir, olmayan nə versin? Camaatın vəziyyəti ağırdır. Bu, nəzirə də təsir göstərir. Bizim elə vəziyyətimiz həmişə eyni olub. Əvvəl necəydiksə, bu gün də o kökdəyik.

***- Azərbaycanlıların səsinin Suriyadakı döyüşlərdən gəlməsi, orda döyüşüb həlak olmaları sizi mömin insan olaraq narahat etmirmi? Məsələn, din xadimləri döyüşən gəncləri Qarabağda döyüşməyə çağıra bilərmi?***

- Bu gənclər artıq Azərbaycana ciddi təhlükədir. Çünki onlar güllə atır, adam öldürür. Ancaq din xadimləri Suriyaya axışan gəncləri Qarabağ savaşına yönəldə bilməz. Din xadimi cihad elan edə və əhalini cihada hazırlaşdıra bilər. Bir ruhani, din xadimi ki, deyə "mən özüm cihada hazır deyiləm, o, başqalarını cihada necə hazırlaya bilər?" Bu mövqeyin sahibinin dediyindən belə çıxır ki, onunçün başqa yerdə cənnət yoxdur, cənnət elə bu dünyadadır. Şeyxin idarəsinin mövqeyi budur ki, biz cihada hazır deyilik. Yəni bu, o deməkdir ki, biz cənnət istəmirik. Bir şeyx ki, cihada hazır deyil, onun qalması yaxşıdır, ya getməsi?! Qoy bu suala cavab verilsin...

***- İdmanla məşğul olursunuzmi?***

- Mən hər zaman idmanla məşğul oluram. Artıq 75 yaşın içindəyəm. Amma idmanımdan qalmıram.

***- Balaca balanız necədir?***

- (gülür) Canınıza dua eləyir. O da mənimlə birgə məşq eləyir. Öz yerimə hazırlayıram.

***- İndi neçə yaşı var?***

- Beş. Amma ondan da balacaları var.

***- Yəqin nəvələrdir...***

- Yox, öz uşaqlarımdır. 3 balaca uşağım var, 5, 3, 1 yaşındadırlar.

***- Maşallah olsun, Hacı. Allah saxlasın!***

- Maşallah günün olsun...

***- Hacı, tövbəyə gələnlərin sayı necə, azalıb, yoxsa artıb?***

- Çoxalıb. Hətta qadınlar da tövbəyə gəlir. Əsasən narkotikə görə tövbəyə gəlirlər. Narkotik camaatın anasını ağlatdı.

***- Yenə şallaqlayırsınız?***

- Tövbəyə gələni yox, tövbəsini pozanı şallaqlayırıq.

***- Məmurlar özləri, ya övladları da gəlirmi yanınıza?***

- Yox, hələ gəlmirlər. Amma vaxtı var, gələcəklər. Biz bu gün hamını tövbəyə çağırırıq. Tövbə qapısı bütün xalqa, millətə açıqdır. Yazıqdır bu millət...

❑ **Elşad PAŞASOY**

“Şeyx getməlidir”

# İşğal edilən dəniz



Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxınlarda rəhmətə gedən Qabriel Qarsia Markesin "Patriarxın payızı" romanı diktatura haqda yəqin ki, dünyada ən yaxşı romandır. Mən təsəvvür eləmirəm ki, diktaturanın absurdluğunu bundan təsirli yazmaq mümkündür. Markes mövzunu möhürləyib, ştamplayıb, qoyub rəfə.**

Hansı situasiya istəsən orda tapa bilərsən. Bizim Azərbaycan tipli dövlətlərdə yaşayanlar üçün, təbii ki. Alman, amerikalı, ingilis, fransız üçün bəlkə "Patriarxın payızı" anlaşılmazdır. Biz isə elə qəşəng anlayırıq... Yeri gəlmişkən, Afaq Məsudun tərcüməsində bu romanı qəti oxumayın. Məsud onu məhv eləyib, romanın sür-sümükləri qalıb. İmkan varsa ispanca, ingiliscə, rusca oxuyun.

Srağagün Fatmayı-Goradil tərəflərdə dəniz axtaranda yenə Markes yadıma düşdü. Təsəvvür edin, düz 6 kilometrə yaxın (telefonda GPS proqramı ilə kilometrajı dəqiq ölçdüm) gəzəndən sonra dənizə bir balaca dəlik, çıxış yolu da tapa bilmədim! Bu görməmiş yapistlər hər tərəfi hasarlayıblar. Hasarlar azı 3 metr hündürlüyündədir, arxasında heç bir istirahət obyekti, turizm sektoru-zad yoxdur, sadəcə dənizi hasarlayıblar, vəssalam! Adam əsəbindən partlayır, bu qədər həyasızlıq olarmı?

Abşeron yarımadası böyük bir türmə kimi hasara alınıb, qara azərbaycanlılar dənizi ancaq nəcisli bulvarda-zadda görə bilər. "Patriarxın payızı" romanında diktator öz ölkəsinin altını-üstünü xaricilərə satır, bir gün dənizi də satır. Markes bunu unikal təsvir eləyib, romanda təxminən belə cümlələr var (yadımda qalan): "İşbaz amerikalılar şlyüzlərlə dənizin okeana birləşən hissəsini bağladılar. Sonra böyük tanker-gəmilər gətirib dənizin suyunu doldurub Amerikaya apardılar. Camaat bir gün yuxudan durub buxtanın ölü dibini gördülər. Dəniz yox idi".

Həmin istiqamətdə yolun üstündə "Sərhədçi" istirahət-idman kompleksi var. Sərhəd qoşunları üçündür. Adam qüssə ilə fikirləşir ki, sərhəd deyəndə bunlar nəyi nəzərdə tutur. Azərbaycanlıların dənizə çıxmaq üçün cəhdi sərhəd pozuntusundan betər sayılır. İndi biz orta əsr səyyahlarının günündəyik, dənizdə "Hindistana yol" axtarırıq. Kim bilir, bəlkə bu qadağa və hasarlar bizim öz Amerikamızı kəşf etməyimizə səbəb olacaqdır? Zarafat edirəm, heç zad olan deyil.

Təkliflər də bu istiqamətdədir. Bazar iqtisadiyyatının klassik qanunundakı kimi: tələb təklifi formalaşdırır. İstədiyiniz yar idi, yetirdi pərvərdigar. Dəmir əl arzu edirdiniz, indi dəmir hasarınız var. Bir-birinizin saqqalını yolub, şalvar balağını güdüb dombalaq aşın. Atalar sözünə keçmişkən, birini də yazaq: Gözəlağa çox gözəl idi, vurdu çiçək də çıxartdı.

Məsələn, Nəqliyyat Nazirliyi bu yaxında təklif elədi ki, rayon maşınlarını Bakıya buraxmaq olmaz. Gəlsinlər, maşını paytaxtın girişində saxlayıb özləri taksi ilə, piyada, sürünərək - kimə necə sərfəlidirsə - şəhərə girsinlər, "Alov qüllələri"nə, Bayraq Meydanına, bulvardakı baobab ağacına baxıb qayıtsınlar. Abşeron qazamatına girişin ildə neçə dəfə olmasını da tənzimləməyin vaxtıdır. Yoxsa bəziləri paytaxtı su yoluna döndərib. Su yolu - açığı, bu ifadə qüvvədən düşmüş sayılır. Dənizə girmək mümkün deyilsə, su yolu nədən asan sayılır?

Ancaq yapistlər müəyyən qiymət müqabilində, müəyyən kilometrlərdə dənizə giriş deşikləri qoysalar savab qazanardılar. Məsələn, qarşıdan gələn bələdiyyə seçkilərində məntəqələrə axışıb cənab prezidentin müdrik siyasətinə səs verərdik. Əvəz yaxşı şeydir. Naxçıvanda Sədərək gömrüyünün şefi Mirməhəmməd əkəni türkiyəlilər tutub aparmışdılar, sərhədimizə amansız yağı basqını yapmışdılar. İndi qəzet yazır ki, gömrükçümüzü zindandan alıb gətirmişik. Əvəzində isə Ərdoğan üçün burdakı bəzi liseylərin başını vermişik. Baş ver, baş al - orta əsr feodal dövlətlərində qayda bu cür idi.

Düzü, mən bilmirəm Şirvanşah İbrahimin vaxtında nehrəmlilər Fatmayıda dənizə girə bilirdilər, ya yox...

# "Ukraynanın separatçılardan təmizlənməsi Azərbaycan üçün nümunədir"

## Elxan Şahinoğlu: "Poroşenko əsas verir ki, biz də istənilən zaman torpaqlarımızı işğalçılardan azad edə bilərik..."

**Ukrayna ordusu ölkənin şərqində separatçı qüvvələrə qarşı təmizləmə əməliyyatlarını davam etdirir. Şənbə günü hərbçilər separatçıların əsas mərkəzlərindən biri olan Donetsk vilayətinin Slavyansk şəhərini, axşam isə Kramatorsk şəhərini terrorçulardan azad ediblər.**

Ukrayna prezidenti Petro Poroşenko əməliyyatların davam etdirilməsi ilə bağlı göstəriş verib. Prezident bildirib ki, silahlı qüvvələrə Donetsk və Luqansk bölgələrini separatçılardan təmizləmək göstərişi verib. Ancaq bütün bunlarla yanaşı, separatçı bölgələrdə qarşıdurmalar davam edir.

Separatçılara qarşı Ukrayna ordusunun, xüsusən də prezident Poroşenkonun qətiyyətli hərəkəti maraqla qarşılanıb. Hesab olunur ki, məhz Ukrayna prezidentinin qətiyyətli addımları nəticəsində ölkənin şərqindəki separatçılara ciddi zərbələr vurulub.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, siyasi analitik Elxan Şahinoğlu bildirib ki, Ukrayna prezidentinin yeganə yolu separatçılara qarşı qətiyyətli hərəkət etmək idi. Əks halda bu əməliyyatlar uğursuz ola bilərdi: "Ukrayna prezidenti atəşkəsə son verib separatçıları məhv etmək əməliyyatını sürətləndirməklə doğru qərar verib. Əlbəttə, bu, hər iki tərəfdən, o cümlədən mülki əhali arasında itkilərin artması deməkdir, ancaq məsələnin axırına çıxmaq lazımdır. Ukrayna ordusu fasilə versə və ya separatçılarla danışıqlara getsə, bu, Ukraynanı parçalamaq istəyən qüvvələrin xeyrinə olacaq".

Elxan Şahinoğlu deyir ki, Moskva açıq-aşkar Ukraynada Dağlıq Qarabağa bənzər nəzarətsiz bölgə yaratmaq istəyir ki, gələcəkdə bu münaqişə ocağı vasitəsilə Kiyevə təzyiq etsin. Ekspertin fikrincə, Ukrayna hakimiyyəti bunu bildiyi üçün separatçılara qarşı hücumları davam etdirir. Ancaq E.Şahinoğlu deyir ki, vəziyyətin bu şəkildə davam et-



Elxan Şahinoğlu

məsi Putini müdaxiləyə də sövq edə bilər: "Kiyev Moskvanın planlarını pozmaq istəyir. Bunun üçünsə qısa müddətdə Donetk və Luqanski separatçılardan təmizləmək lazımdır. Bu, çətin olacaq, ancaq başqa alternativ yoxdur. Ukrayna ordusunun və milli qvardiyanın uğurla irəliləməsi həm separatçıları, həm də onların arxasında dayanan Kremli ağır vəziyyətə sürükləyib. Separatçıların özləri hazırkı məğlubiyyətə görə artıq Kremli və şəxsən prezident Vladimir Putini günahlandırmağa başlayıblar. Bu isə o deməkdir ki, Putin yaxın gələcəkdə özünə ciddi problem yaradacaq. Bu məğlubiyyəti ona nə separatçılar, nə də ki, ölkə daxilindəki şovinist qüvvələr bağışlayacaq. Putin separatçılara vəd etdiyi dəstəyi verə bilmir. Putin Krımdan fərqli olaraq Donetsk və Luqanska Rusiya qoşununu yeridə bilmir. Əks halda, bu, genişmiqyaslı Rusiya-Ukrayna müharibəsinə, o cümlədən Qərbin sanksiyalarının daha da sərtləşməsinə yol açacaq. Ona görə Putin hələ risk etmir. Ancaq bilmək olmaz, separatçıların ağır məğlubiyyəti Putini düşüncəsiz addıma da sövq edə bilər. Məsələ burasındadır ki, Rusiyanı idarə edənlər tarixən məntiqlə hesablaşmayıblar. Krımın işğalına sevindilər, daha anlamadılar ki, bu, gələcəkdə onlara böyük siyasi, iqtisadi və sosial problemlər yaradacaq, digər tərəfdən, qardaş adlandırdıqları ukraynalıları birdəfəlik itirdilər. İndi də Putinin müvazinətini itirib, Ukraynanın şərqinə müdaxilə edəcəyini istisna etmək olmaz. Ukrayna və beynəlxalq aləm bu ssenariyə də hazır olmalıdırlar".

Qeyd etdiyimiz kimi, Ukraynada uğurlu antiterror əməliyyatları Azərbaycanda da maraqla qarşılanıb. Ukrayna hakimiyyətinin qətiyyəti nəticəsində Rusiyanın dəstəklədiyi separatçı qüvvələrin əzilməsi eyni hadisəni Azərbaycanın da edə biləcəyi haqda fikirlərin yaranmasına səbəb olub. Elxan Şahinoğlu deyir ki, Poroşenkonun Ukraynanın şərqini separatçılardan təmizləməsi Azərbaycan üçün də müsbət nümunədir: "Ukrayna prezidenti Azərbaycana əsas verir ki, o da istənilən zaman torpaqlarını işğalçılardan azad edə bilər. Digər tərəfdən torpaqlarımız işğalçılardan azad edilərkən Qərb Ukrayna misalında olduğu kimi ərazi bütövlüyü prinsipindən çıxış etməlidir. Əgər Ukrayna böhranı olmasaydı, ATƏT Parlament Assambleyasında ərazi bütövlüyü prinsipinin hamı üçün əsas götürülməsi bəndi "Bakı bəyannaməsində" yer almazdı. Demək, bizim üçün də münbit şərait yaranıb. Yetər ki, bu şəraitdən uğurla istifadə edə bilək".

❑ KƏNAN

# Qarabağ məsələsində Rusiya, yoxsa Qərb daha ədalətlidir?

## Elxan Mehdiyev: "Fransa istəyir ki, bu münaqişə tamamilə həll olunsun, ABŞ tərəfi isə..."

**Ermənilərin Azərbaycana qarşı müharibəyə başlamasından 25 il, Qarabağ cəbhəsində atəşkəs imzalanmasından isə 20 ildən artıq vaxt keçməsinə baxmayaraq münaqişənin həlli istiqamətində heç bir irəliləyiş yoxdur. Bu vəziyyətin yaranmasında dünya birliyinin ədalətsiz mövqeyinin, işğalçını öz adı ilə çağırmamasının da rol oynadığı şübhəsizdir.**

Azərbaycan cəmiyyətində belə bir rəy hakim kəsilib ki, Rusiya və Qərb Qarabağ məsələsində ədalətsiz mövqe tutur. Qarabağ məsələsində Rusiyanın yoxsa, Qərbin daha çox ədalətli mövqe tutması məsələsində fikirlər haçalanır. Bu mövzuda söhbət etdiyimiz ki, Sülh və Münaqişələrin Həlli Mərkəzinin sədri Elxan Mehdiyev bildirdi ki, xristian faktoru, Qərb dünyasının, o cümlədən Rusiyanın Türkiyəyə qarşı uzun müddət ermənilərdən istifadə etməsi məlumdur. Bu faktor ermənilərin tanınmasına, təsir imkanlarının yaranmasına gətirib çıxarıb. Ermənilərin mövqelərinin möhkəmlənməsi on illər boyu davam edən prosesdir: "1991-ci ildə müstəqillik əldə etdiyimiz və müharibənin getdiyi dövrdə Azərbaycanın Qərblə əlaqəsi yox idi. Amma ermənilər artıq Avropada, ABŞ-da yaşayırdılar. Ermənistana da məhz onlar yol göstərirdilər. Bizim isə bu cür üstünlüyümüz yox idi. Beləliklə də Qarabağ münaqişənin həllinə hazır deyildik. Rusiyanın və Qərbin Qarabağ məsələsində daha çox ermənilərin marağına uyğun davranışının, qeyd etdiyim kimi, uzun tarixi var".

Ekspertin fikrincə, Qara-



Elxan Mehdiyev

bağ məsələsində daha çox ədalətsiz mövqe isə həmişə Rusiya tərəfindən nümayiş etdirilir. Nə vaxt münaqişənin həllinə cüzi də olsa meyl müşahidə edilsə, Rusiya prosesin dayanması üçün əlindən gələni edir. Ermənistanın Avropa Birliyinə yaxınlaşmasına da Rusiya imkan vermir: "Qərb təkcə ABŞ-dan ibarət deyil, Avropanın iri dövlətlərini də nəzərə almaq gərəkdir. Mən düşünürəm ki, Qarabağ məsələsində Rusiya və ABŞ-la müqayisədə Fransa daha çox səmimidir. Fransa istəyir ki, bu münaqişə tamamilə həll olunsun. ABŞ tərəfi isə bir çox hallarda təxribatçı mövqedə durub. Bu da həm Konqresdəki ermeni qüvvələrinin təsiri ilədir, həm də ABŞ vitse-prezidenti Co Bayden, ABŞ-ın BMT-dəki nümayəndəsi Samanta Paura erməni məsələsində ən böyük dəstəkçi olublar. Onlar erməni işğalçılığına göz yummağı, sadəcə bizim öz aramızda kompromis tapmağımızı təklif edirlər, Krım məsələsində birmənalı münasibəti, Qarabağ məsələsində nümayiş etdirmirlər. Bu da başlanğıcda dediyim məsələdən doğur. Ermənilər ABŞ-la bu cür yaxınlıqdan, Rusiya ilə isə hərbi ittifaqdan arxayınlaşaraq işğalçılıqlarını davam etdirirlər. Beləliklə, görürük ki, Qarabağ məsələsində Rusiya və ABŞ-ın ədalətsiz mövqeyi münaqişənin həllinə imkan vermir. Ermənilər bu cür ədalətsizliklərin köməyi ilə prosesi 20 ilə gətirib çıxarıblar".

❑ Etibar SEYİDAĞA

## Xaricdə yazılıb, Azərbaycana transfer edilən qorxunc ssenari



# Ölkəni məzhəb savaşına kimlər sürüyür - təhlil

### Azərbaycanda etnik və dini müstəvidə savaş yaratmaq istəyənlər açıq fəaliyyətə başlayıblar; artıq sosial şəbəkələrdəki Konstitusiya islahatları barədə mülahizələr deyil, "hansı məzhəbə mənsub şəxslərin qadınlarının cariyə ola biləcəyi" müzakirə edilir

**Siyasi müstəvidə ciddi heç nə baş vermir. Tam səssizlikdir. Müxalifət də "qızğın fəaliyyətdən" yorulub, yay tətilinə getməyə hazırlaşır. Müxalifətin siyasi səhnədən qısa müddətli gedişi də yəqin ki, heç nəyi dəyişməyəcək. Ölkənin siyasi müstəvisi tam durğunluq içindədir.**

Lakin son günlər ölkədə baş verənlər kataklizmlərin heç də uzaqda olmadığından xəbər verir. Demokratik institutları, sekulyar təsisatları və milli-demokratik siyasi güc mərkəzlərini sıradan çıxardan hakimiyyət indi yeni rəqiblə üzbəüz qalıb. Son 10 gündə Azərbaycanın ən müxtəlif bölgələrində şiə - sələfi qarşıdurması pik həddinə çatıb. Ehtimal etdiyimiz kimi, müxalifəti və mətbuatı məhv edilən Azərbaycan cəmiyyətində marginallıq başlıca dəyər olmağa başlayıb.

İllər öncə vurğulamışdıq ki, siyasi azadlıqların olmadığı, insan haqlarının, din və vicdan, mətbuat azadlığının boğulduğu, sosial ədalətsizliyin baş alıb getdiyi ölkədə yeganə hərəkətverici amil məzhəb savaşı, etnik qarşıdurma, vətəndaş qarşıdurmaları olacaq. Azərbaycanda son günlər müşahidə edilən məzhəblərarası gərginlik heç də yalnız İŞİD-lə bağlı yaranan ajiotaj deyil. Təkfirçi və terrorçu İŞİD-in bu ölkəmizdəki proseslərə təsiri son dərəcə minimaldır.

Sadəcə olaraq, Azərbaycanda etnik və dini müstəvidə savaş yaratmaq istəyənlər artıq açıq fəaliyyətə başlayıblar. Bunun belə olacağını da illər öncə vurğulamışdıq.

Gərginlik durmadan artır. Bu dəfə qarşıdurma dəyirmi masalarda təzahür etmir. Artıq ölkədə siyasi ideologiyalar arasında "beyin fırtınası"ndan da söhbət getmir. Vəziyyət daha qəlizdir. Kənar baxışla görünən budur ki, bir qrup təkfirçi şəxs digər radikal - təkfirçi şəxslərə müharibə elan edib.

Son günlər bu qarşıdurma ən iyrənc formada özünü göstərməkdədir. Bütün "keyfiyyət" dəyişikliyi sosial şəbəkələrdəki müzakirələrə də təsirsiz ötüşməyib.

Artıq sosial şəbəkələrdəki Konstitusiya islahatları barədə mülahizələr deyil, "hansı məzhəbə mənsub şəxslərin qadınlarının cariyə ola biləcəyi" müzakirə edilir. Deqradasiya göz önündədir. Baş verənlər yalnız cəmiyyət üçün fəsadlar yaratmır. Eyni zamanda iqtidarın özünün perspektivini qara rəngə boyayır.

> **"Bu günədək iqtidar siyasi diskussiyaları müxalifət partiyalarının ziyalı liderləri ilə aparırdı; bundan sonra isə nəyisə dinləmək iqtidarında olmayan saqqalkəsənlərlə danışmaq zorunda qala bilər..."**

Son 20 ildə Azərbaycanın siyasi sistemini məhv edən hakimiyyət indi öz əkdiyini biçməyə məhkum edilib. Təkfirçi dini cərəyanların əsas siyasi amilə çevrilmə tendensiyası fəsadların xəbərçisidir. Bu günədək iqtidar siyasi diskussiyaları müxalifət partiyalarının ziyalı liderləri ilə aparırdı. Bundan sonra isə nəyisə dinləmək iqtidarı olmayan saqqalkəsənlərlə danışmaq zorunda qala bilər. Bunun belə olacağını ehtimal etmişdik. Bu, hələ ilkin işartılardır. Daha böyük hadisələrin astanasında dayandığımızı da ehtimal edə bilərik. Son günlər Sabirabadda və Müşfiqabadda baş verən "məzhəb müharibəsi" olduqca ciddi bir prosesin xəbərçisidir.

Burada söhbət heç də ayrı-ayrı zombiləşmiş fanatlardan getmir. Müşahidə edilənlər xaricdə yazılıb, Azərbaycana transfer edilən qorxunc bir ssenariyə daha çox bənzəyir. Görünən budur ki, Azərbaycanda etnik və dini qarşıdurmanın yaradılması istiqamətində ilk addımlar atılıb. Ölkədə belə qarşıdurmaları mümkün edən amillərin hamısı mövcuddur. Ölkədə baş verən sosial ədalətsizlik və korrupsiya halları təkfirçiliyin və etnik separatizmin inkişafına rəvac verir.

Azərbaycanda müşahidə edilən sələfi-şiə qarşıdurmasının gizlinlərinin isə din ilə ümumiyyətlə bağlılığı yoxdur. Şimal bölgəsində sələfi əqidəli insanların gün-gündən güclənməsi və onların arasında şiəçiliyə nifrət hisslərinin aşınması gələcəkdə Azərbaycanda dini müstəvidə baş verəcək qanlı regional toqquşmaların göstəricisi ola bilər. Öncələrdə vurğulamışdıq ki, ölkənin cənub bölgəsində də iki ölkənin təsiri aydın hiss olunur - İran və əlbəttə ki, əsas dolanışıq mənbəyi olan Rusiya. Bu bölgədə şiəliyin əsas amil olması isə gələcəkdə şimal və cənub bölgələrinin dini müstəvidə savaşının xəbərçisidir.

Belə bir savaş baş verərsə, yaxın gələcəkdə müəyyən təxribatçı qüvvələrin "Müstəqil Ləzgistan" və "Talışıstan" yaratmaq cəhdlərinin mümkünlüyünü ehtimal edə bilərik. Baş verənlərin altqatında Azərbaycanın parçalanması, dünyəvi sisteminin dağıdılması cəhdlərinin durduğu göz önündədir. Siyasi sistemi dağıtmaqla, mötədil və intellektual islamı darmadağın etməklə iqtidar ölkənin gələcəyinə baltalar endirmiş oldu.

Artıq ölkə daxilində oturuşmuş vətəndaş sülhündən danışmaq imkansız görünür. Yaxın günlərdə Azərbaycanda dini və etnik qarşıdurmaların daha da dərinləşə biləcəyini ehtimal edə bilərik. Artıq işə düşmüş ssenarini yarıda durdurmaq olduqca çətin görünür.

Dini və siyasi müstəvidəki savadsızlıq, gerizəkalılıq, parlaq lider çatışmazlığı elə belə də vəziyyət yaratmalı idi. Proseslər dalana dirənmək üzrədir...

❑ **Azər RƏŞİDOĞLU**

# Diktatorların pulları niyə qayıtmır?



**Hüseynbala SƏLİMOV**

**Bu günlərdə Fransadan iki xəbər gəldi. Birində deyildi ki, rüşvət almaqda ittiham edildiyinə görə sabiq prezident N.Sarkozi saxlanılıb. Digər xəbərdə isə bilidirilirdi ki, Fransa S.Hüseynin 20 milyon dollarını İraqa qaytarmaqdan imtina edir.**

Maraqlıdır. Bir xəbərdə Fransa haqqında müsbət fikir yaranırdı. Zarafat deyil, prezidenti (sabiq olsa da!) məhkəməyə çəkirlər.

İkinci xəbər isə bunu tamamilə alt-üst edirdi. Belə alınırdı ki, dövlət səviyyəsində reketlik etmək olar, amma şəxslərə bu imkan verilmir. Dünyanın həqiqətən də qəribə işləri varmış.

Diktatorların pulları, ümumiyyətlə, maraqlı məsələdir. Doğrudan da "ərəb baharı" nəticəsində devrilən diktatorların pulları necə oldu? Onlardan təkcə birinin - M.Qəzzafinin təxminən iki yüz milyard dollarlıq sərvətinin olduğu bildirilirdi.

Prosesin əvvəlində ümidlər böyük idi. Hamı bu pulları sayırdı. Amma məsəl var, deyirlər ki, sən saydığını say, gör, böyük dövlətlər nə sayır!

Deyirlər ki, hamıdan ağıllı V.Yanukoviç hərəkət etdi. Pulları özü ilə Rusiyaya apardı. Nə demək olar? Aparmağına aparıb, amma kiminləsə bölüşüb-bölüşmədiyini bilmirik. Yəqin bölüşməmiş ola bilməz. Adama siyasi sığınacağı elə-belə vermirlər ki...

İndi P.Poroşenko və daha bir oliqarx- Dnepropetrovskinin qubernatoru öz pullarını Ukrayna üçün xərcləyirlər. Buna görə hətta V.Putin ikincini özünün bir nömrəli düşməni elan edib.

Mənim daha çox V.Yanukoviçə acığım tutur. Bu adam öz ölkəsi üçün guya ki, on milyard dollar dilənirdi. Yaxşı ki, ona heç kim heç nə vermədi. Yoxsa həmin pullar da Rusiyaya axacaqdı... Halbuki bu adamın Rusiyaya apardığı pullara Ukraynanın bəlkə də on illik qaz ehtiyaclarını ödəmək olardı.

Burada uduzan bütün hallarda millətlərdir. Elə bir hər yerdə eyni model, eyni ssenari işləyir. Əvvəlcə bir diktatoru keçirirlər millətlərin boğazına. İllər uzunu ona dözürlər. Diktator da necə var, ölkəni talayır. Sonda həmin diktatoru devirirlər. Nəticədə it də gedir, ip də!

Bəli, deyirlər ki, guya bütün ölkələr S.Hüseynin pullarını qaytarıb, təkcə Fransa qalıb. Doğrusu, bunun nə qədər dürüst-doğru olduğunu bilmirik. Təbii ki, pullar birdən-birə qayıda bilməz, ən azı banklar buna getməz. Amma əksər hallarda pullar, ümumiyyətlə, qayıtmır.

Bəzən diktatorun yerinə gəlmiş hakimiyyəti qınayırlar. Məsələn, İranda belə oldu. İran rejimini bəhanə gətirərək şahın apardığı pulları qaytarmadılar. Əksər hallarda bu pullar nə diktatorun özünə qismət olur, nə də ki, onun talan etdiyi millətə.

Heç H.Mübarəkin də pulları az deyildi. Amma müttəfiqləri və özü təhlükəni sovuşdura bildi. İndi məlum deyil ki, onun yetmiş milyardlıq sərvətinin taleyi necə olacaq?

Yeni, post-modern diktatorlar bir qədər fərqli yolla gedirlər. Onlar pul toplamır. Pullarını xarici ölkələrdəki iqtisadiyyatlara yatırırlar. Görünür, bu yol daha təhlükəsizdir. Bəlkə də...

Ən acısı, ağırı isə budur ki, dünya 21-ci əsrdə də onlardan qurtula bilmədi. Bir vaxt "Sehrli xalat" filmində xan deyəndə uşaqlar gülürdü. Amma indi təkcə bu Azərbaycanda onlarla əsl xan var. Bəlkə də keçmişdəki xanlar daha mütərəqqi idi. Ən azı ona görə ki, onlar öz xəzinələrindən oğurlamırdılar...

İndiki xanlar isə əsl bəladır. Bəzən fikirləşirsən ki, heç Tanrının da onlardan xəbəri yoxdur. Bu adamlar nələr etmir? Nələr fikirləşmir?..

Əslində bizdə, yəni keçmiş sovet ölkələrində bir qədər fərqli olmalı idi. Ona görə ki, biz bərabərliyin əsas meyar olduğu ölkələrdən çıxmışdıq. Bizi rəiyyətə çevirmək elə də asan olmamalı idi. Amma nə məlum oldu? Sən demə, bir vaxt sovet adamı kimi vəsf edilən homosovetikus dünyanın ən aciz adamı imiş!..

İndi növbəti əsrdə nələrin olacağını proqnozlaşdırmaq qalır. Nə ola bilər? Bəli, dünyada diktaturalar və avtoritar rejimlər elə bir qüdrətə malik deyillər.

Onlar daha çox kiçik dövlətlərin aciz millətlərinə hökmranlıq edə bilirlər. Deməli, ən böyük problem odur ki, dünyada hələ də aciz millətlər qalır. Bəli, nahaq yerə demirlər ki, hər bir xalq yaşadığı siyasi rejimə, sistemə layiqdir.

Bu fikri həmişə təkzib etməyə çalışmışıq. Amma vaxtaşırı onun dəmir məntiqi ilə hesablaşmaqdan başqa carəmiz olmayıb. Nə etmək olar?..

# Ermənistan Güney Qafqaz üçün açar, yoxsa problemdir?

### İqbal Ağazadənin açıqlaması müzakirələrə yol açdı

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin "Yeni Müsavat"a müsahibəsində Ermənistanla bağlı dilə gətirdiyi bir yanaşma müzakirə mövzusuna çevrilib. İqbal Ağazadə deyib ki, Güney Qafqaz üçün açar dövlət Azərbaycan deyil, Ermənistandır.**

"Biz Avrasiyanın, Rusiyanın yanında yer alsaq, Ermənistan dərhal Qərbin yanında yer alacaq. Bunu hər kəs bilir. Dağlıq Qarabağı qaytarmasa, Azərbaycanın nə işi var Avrasiya İttifaqında? O birliyə qoşulmağın nə mənası qalır? Biz birmənalı bilirik ki, Rusiya işğal olunmuş Azərbaycan torpaqlarını qaytarmayacaq. Qaytarsa, Ermənistanı itirəcək. Azərbaycanın isə burada uzun müddət davam gətirəcəyinə inanmır. Çünki bilir ki, istənilən halda növbəti hakimiyyət dəyişikliyində Avrasiyadan çıxma prosesi sürətlənəcək. Gürcüstanı itirib, Azərbaycana güzəştə gedib Qarabağı qaytarsa, Ermənistanı itirir, Azərbaycan da növbəti mərhələdə birlikdən çıxacaq. Bu gün Rusiya Ermənistan vasitəsilə regiondadır. Bunu hər birimiz qəbul edirik", - deyə deputat bildirib.

Politoloq Qabil Hüseynli isə Ermənistanın Güney Qafqaz üçün açar dövlət olması üçün əsasların olmadığını düşünür. Onun sözlərinə görə, Ermənistan Güney Qafqaz üçün açar dövlət yox, problem dövlətdir: "Dövlətin açar rolunu oynaması üçün onun geosiyasi, geostrateji, coğrafi əhəmiyyəti, enerji və intellektual resursları, hərbi gücü, qonşulara təsir imkanlarının olub-olmadığını əsas götürmək lazımdır. Qeyd



Qabil Hüseynli

olunan parametrlərin heç birinə Ermənistan cavab vermir. Ermənistan kiçik bir dövlətdir, sadəcə, həmişə himayə altında olub. Ermənistana regionda müsəlman dünyasının kürəyinə saplanmış xəncər kimi, anklav kimi baxıblar. Lakin bu gün Ermənistan açar dövlət deyil. Ermənistanın açar dövlət rolu oynaması barədə fikirləri bölüşə bilmirəm. Mən bilmirəm İqbal Ağazadə hansı rakursdan yanaşır ki, Ermənistanın açar dövlət olduğunu düşünür. Ermənistan regionda açar rolunu yox, problem rolunu oynayır. Bu problemi isə süni şəkildə yaradıblar. Dünyanın xəritəsini həmişə bir neçə dövlət cızıb. Toqquşmaları, millətlərarası münaqişələri də yaradan bir neçə dövlətdir. Ermənistan bu dövlətlərin hər birinin əlində maşa rolunu oynayıb. Son yüz ildə bunu sübut edən çoxlu sayda faktlar var. Ermənilər həmişə bu regionda alçaq missiya yerinə yetiriblər. Güney Qafqazda indiyə qədər baş verən bütün münaqişələrdə, terror hadisələrində Ermənistan iştirak edib. Bu dövlət region üçün problem olaraq yaradılıb".

Politoloq onu da dedi ki, Rusiya Ermənistanın arxasından çəkilsə, ermənilər heç problem yaratmaq iqtidarında belə olmayacaq. Türkiyə ilə Azərbaycan sərhədləri arasında səsini də çıxara bilməyəcək.

❑ **E.SEYİDAĞA**

# Sabiq polis rəisindən ciddi xəbərdarlıq

## Əlövsət Əliyev: “Çoxsaylı təriqətlərin mövcud olduğu Azərbaycanda islamın siyasiləşdirilməsi dövlət üçün təhlükəyə çevrilə bilər”

**“Azərbaycanda müxtəlif din və təriqətlərə bağlı olan 600-ə yaxın dini icma qeydiyyatdan keçib. Bu, vicdan azadlığının təmin edilməsi və vətəndaşların əqidə seçiminə hörmətlə yanaşılması baxımından müsbət haldır”.**

Azərbaycan Miqrasiya Mərkəzi İctimai Birliyinin rəhbəri, sabiq polis rəisi Əlövsət Əliyev son günlər ölkədə baş verən olayları “Yeni Müsavat”a şərh edərkən belə deyib. Onun sözlərinə görə, Azərbaycanda tarixən formalaşmış və xalqımızın xarakterikinə çevrilmiş tolerantlıq ənənələri də paralel olaraq müxtəlif təriqətlərin inkişafına şərait yaradıb: “Ölkədə eyni zamanda dini ekstremizm və dözümsüzlüyün təbliği halları ilə mübarizə də mövcuddur. Son günlər bəzi mətbuat orqanları İraqda baş verənləri İŞİD və həmin qruplaşmaya aid olanlar tərəfindən törədilən cinayətlər kimi deyil, qeyri-müsəlman ölkələrinin bəzi mətbuat orqanlarında olduğu kimi, təriqətlərarası, yəni sünni-şiə qarşıdurması kimi qələmə verirlər. Ehtiyatsızlıq, təcrübəsizlik və ya bəzən qəsdən İraqda baş verənlərin təriqətlərarası qarşıdurma kimi təqdim edilməsi yolverilməz və ziyanlıdır. Mən elektron KİV-lərdə ”Sabirabadda vəhhabinin saqqalını qırxdılar", “Ləzgi məscidində vəhhabilərə qarşı tədbir” , “Vəhhabilər şiələrə hücuma keçdi” və buna oxşar məlumatlarla, bəzilərinin facebook səhifələrindəki qorxulu çağırışlarla üzləşəndə narahatlıq keçirirəm".

Ə.Əliyevin sözlərinə görə, yazıların əksəriyyətində məlumat yükündən daha çox dini ekstremizmin qızışdırılması notları mövcuddur. Hüquqşünas qeyd edir ki, bu gün dünyada islama olan münasibət göz qabağındadır: “O da hamıya bəllidir ki, müsəlman ölkələrində bir-birini əvəz etməklə baş verənlər eyni zamanda islamın gözdən salınmasına xidmət edir. Bu cür kütləvi ehtiyatsızlıq Azərbaycanı növbəti münaqişələrin törədildiyi ölkələrdən birinə çevirə bilər. Azərbaycanın tolerantlıq nümunəsi kimi göstərilməsinə baxmayaraq, bu məsələyə həssaslıqla yanaşılmalı, xüsusilə dini saytlar təriqətlə bağlı yazılarla ehtiyatla davranmalıdırlar. İraqda və ya Suriyada törədilən cinayətlərin əksəriyyəti islamın müqəddəs hesab etdiyi dəyərlərin əleyhinədir. İnsanların yaşından, dini və cinsi mənsubiyyətindən asılı olmayaraq qətlə yetirilməsi, müqəddəs yerlərin dağıdılması, insanların daimi yaşadıqları tarixi vətəndən qovulması, böyük bir ərazinin döyüş və ya ölüm meydançasına çevrilməsi eyni zamanda islamın müəyyən etdiyi təməl prinsiplərə ziddir. Bu əməllər məqsəddən asılı olmayaraq sülh və insanlıq əleyhinə törədilən cinayətdir. Və yaxşı olar ki, mətbuat da baş verənləri bir qrupun sülh və insanlıq əleyhinə törətdiyi cinayət kimi təqdim etsin. Dünyanın istənilən ölkəsində islamın siyasiləşməsi əslində dini zəmindəki ekstremist əhval-ruhiyyənin güclənməsinə, təriqətlərarası qarşıdurmanın inkişafına xidmət edir. Çoxsaylı təriqətlərin mövcud olduğu Azərbaycanda islamın siyasiləşdirilməsi eyni zamanda dövlət üçün ciddi təhlükəyə çevrilə bilər. Yaxın gələcəkdə Suriya, daha sonra İraqda döyüş iştirakçısı olan şəxslərin Azərbaycana qayıdışı gözlənilir. Bəzilərinin fikrincə, onların bir müddət sonra ölkədə ciddi təhlükəyə çevriləcəyi də qaçılmazdır. Odur ki, həmin şəxslərin hər birinin müəyyən olunması və daim nəzarətdə saxlanılması vacib şərtlərdən biridir”.


Əlövsət Əliyev

Ə.Əliyevin fikrincə, dindən siyasi məqsədlər üçün istifadə etməyə çalışan, insanları radikallığa çağıran qüvvələrin fəaliyyətini genişləndirməsinə, xalqımızın yüz illər boyu formalaşmış dözümlülük ənənələrinə xələl gətirməsinə və ölkədəki dini-etiqad azadlığından sui-istifadə edilməsinə yol verməmək olmaz: “Bu, eyni zamanda mətbuatın yardımı və birbaşa iştirakı ilə həyata keçirilə bilər.

❑ **Cavid TURAN**

# Sədərəkin buraxılan gömrük rəisi haqda daha bir xəbər

## Onun girov saxlandığı barədə iddia var...



**Sədərək gömrük-keçid məntəqəsinin rəisi Mirməhəmməd Seyidovun azadlığa buraxılması haqda daha bir xəbər yayılıb. “Azadlıq”ın yazdığına görə, gömrük şefinin azadlığa buraxılması üçün Azərbaycan hakimiyyəti çoxsaylı cəhdlər edib. Lakin Azərbaycan hakimiyyəti ilə Ərdoğan arasında “nurçu məsələsi” tam həllini tapmadığı üçün Seyidovun azadlığa buraxılması mümkün olmayıb.**

Sədərək gömrük-keçid məntəqəsinin rəisi bir növ girov kimi saxlanılıb. Nəhayət, Azərbaycan hakimiyyəti ölkədə nurçu məktəblərinin bağlanması qərarını verdikdən və bununla da nurçulara sarsıcıdıcı zərbə vurduqdan sonra Seyidovun azadlığa buraxılması reallaşıb. İddia olunur ki, Seyidov məhz bu məsələyə görə azadlığa çıxıb.

Qeyd edək ki, Mirməhəmməd Seyidov həbsdən azad olunaraq İstanbul reysi ilə Bakıya göndərilib.

Xatırladaq ki, onu ötən il dekabrın 17-də Türkiyənin Qars şəhərinin hava limanında bu ölkənin Qaçaqmalçılıq və Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Şöbəsinin əməkdaşları saxlamışdı. Həmin vaxt Dilucu sərhəd-keçid məntəqəsində keçirilən əməliyyat zamanı Seyidovdan başqa 7 gömrük işçisi və 10 daşıma şirkətinin sahibi də daxil olmaqla 17 nəfər saxlanılmışdı.

Onlar cinayət törətmək məqsədilə təşkilat qurmaq, rüşvət alıb-vermək, maye yanacaq qaçaqçılığı etməkdə şübhəli bilinirdilər. Türkiyə mətbuatının məlumatına görə, saxlanılanların sorğu-sualı zamanı rüşvətin Sədərək gömrüyündə Mirməhəmməd Seyidov tərəfindən toplandığı, daha sonra Türkiyə tərəfinə aparılaraq, tərəflər arasında bölüşdürüldüyü ortaya çıxıb. Həmçinin, hər iki tərəfdən olan gömrükçülərin telefon danışıqları da məlum olub.

Məlumatlarda bildirilir ki, Türkiyə tərəfindəki gömrük məmuru Seyidovu cib telefonu ilə arayanda “Sancılandım, mənə dərman göndər” deyərək pay istəyirmiş. Seyidovun isə qarşı tərəfə “Sancın üçün dərman göndərdim” deyə cavab verdiyi bildirilir. Normal günlərdə isə Sədərək Gömrük İdarəsinin rəisi toplanan rüşvət pullarını paket içində əməkdaşlıq etdiyi adamlara pay verirmiş.

❑ **E.HÜSEYNOV**

# “Ərəb baharı”na qarşı ASAN xidməti...

## Deputatlar hökumətin 2011-ci ildən baş qaldıran sosial partlayışları qabaqlamaq üçün başladığı bu layihədən danışdılar; siyasi şərhçi iqtidar daxilində Rusiyaya bağlı şəbəkənin bu xidmətə müqavimət göstərdiyini deyir...

**Azərbaycan hökuməti sosial partlayışları, xalq etirazlarını qabaqlamaq üçün inqilabi bir proyekt həyata keçirdi. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin filialları fəaliyyətə başladı. Lakonik adı ASAN xidmət olan bu layihə iqtidarın “ərəb baharı”ndan qorunması ilə yanaşı sosial narazılıqların qismən azalmasına yardım etdi.**

İnsafən, indi şəxsiyyət vəsiqəsi, nikah şəhadətnaməsi, müxtəlif dövlət orqanlarından zəruri sənədləri ASAN xidmətdən çox asanlıqla əldə etmək olar. Həm operativ, həm də qeyri-rəsmi rüsum tələb edilmədən lazımi sənədləri almaq mümkündür. Dövlət başçısının Avropa Şurasının Nazirlər Komitəsində çıxışı zamanı da xüsusi vurğu ilə qabartdığı məsələ ASAN xidmət idi. Ölkə başçısı bunu reformist addım kimi qiymətləndirdi. Həqiqətən, dövlət qurumlarında süründürməçilik, rüşvət, saatlarla növbəyə durmaq və nəhayət 10 günlük sənədi 3 aya əldə etmək etirazları gücləndirirdi.

2011-ci ildə bölgələrdə etiraz aksiyalarının bir-birilə əvəzlənməsi də məhz özbaşınalıqlardan bezən xalqın üsyanı idi. Məsələn, həmin dövrdə “ərəb baharı”nın rüzgarından qorxan hakimiyyət rüşvət yığılmasına “məzuniyyət” verdi, məhkəmələr sadə vətəndaşların xeyrinə qətnamələr çıxardı, nazirlər bir-bir bölgələrə vətəndaşların qəbuluna göndərildi, icra başçıları camaatın ayağına getməyə başladılar. Bundan sonra ASAN xidmət layihəsinin reallaşdırılmasına start verildi.

Bəs olmazdı ki, ASAN xidmət icra hakimiyyətlərinin, komitələrin, nazirliklərin qəbul otaqlarında, sənədləşmə şöbələrində yaradılsın? Yaxud bütün dövlət qurumlarının sənədləşmə səlahiyyəti ASAN xidmətin ixtiyarına verilsin? Milli Məclisin iqtisadi siyasət Komitəsinin üzvü, deputat Vahid Əhmədov “Yeni Müsavat”a bu layihə haqda danışarkən qeyd etdi ki, səlahiyyətləri dövlət qurumlarına verməkdənsə, əksinə, ASAN xidmətin imkanlarını genişləndirmək lazımdır.

Deputatın sözlərinə görə, gələcəkdə digər dövlət orqanlarının da sənədləşmə işlərinin bu xidmətə verilməsi nəzərdə tutulub. V.Əhmədovun fikrincə, icra hakimiyyətlərinin, gömrük komitəsinin və digər qurumların sənəd işləri ilə bağlı səlahiyyətinin ASAN-a verilməsi daha yaxşı olardı: “Mən deyərdim ki, ASAN xidmətdə böyük işlər görüldü. Rüşvətsiz, vətəndaşla məmur arasında təmas olmadan sənəd almaq mümkündür. Bu, aşağı təbəqə üçün çox gözəl oldu. Onun fəaliyyəti genişləndirilməlidir. Bu layihə Azərbaycanda özünü doğrultdu. Hətta Avropada belə bir layihə yoxdur. Əsas məsələ odur ki, korrupsiya halları olan, məmurlarla vətəndaş arasında problem yaranan qurumların yavaş-yavaş sənədlə bağlı səlahiyyətləri ASAN xidmətə verilməlidir”.




Deputat bu proyektin regionlarda inkişafını vacib sayır: “Bu layihə prezidentindir. Çox gözəl ideyadır. Hesab edirəm ki, rayonlarda ASAN xidmətin inkişaf mütləq lazımdır. İnsanların asan şəkildə, rüşvət verməyib, qapıda gözləməyib sənədini almasına şərait yaradılıb”.

Parlamentin İqtisadi siyasət komitəsinin digər üzvü, deputat Əli Məsimli isə vurğuladı ki, korrupsiyaya qarşı ən effektiv mübarizə mexanizmi ASAN xidmətdir. Deputatın sözlərinə görə, ASAN xidmətə verilən səlahiyyətlərin nazirliklərin, komitələrin şöbələrində açılması heç nəyi dəyişməyəcəkdi: “Onda bunun nə əhəmiyyəti olacaqdı? ASAN xidmətin genişləndirilməsi, gömrük və digər problemli sahələr üzrə səlahiyyətlərin verilməsi lazımdır. Ancaq indiki model daha işləkdir. Eyni zamanda həm funksional, həm sahə üzrə fəaliyyətin genişlənməsi vacibdir. Yeganə razı qaldığım sahədir ki, işləkdir. Narazılıqları aradan qaldırır, vətəndaşlar rüşvətsiz iş görür”.

Milli Strateji Təhqiqatlar Mərkəzinin sədri, politoloq Natiq Miri hesab edir ki, qlobal səviyyədə dəyişikliklər baş verir, dünyada avtoritar siyasi rejimlər süquta uğrayır, onların yerində demokratik sistemlər inşa olunur. Siyasi şərhçinin sözlərinə görə, dünyada cərəyan edən proseslərin içərisində Azərbaycan da dəyişməlidir və hakimiyyət bunu dərk edir.

Politoloqun fikrincə, Qərb və ABŞ bu mənada Azərbaycan hökumətinə proqramlar təklif edir: “Bu proqramlardan biri də ASAN xidmətdir. Həqiqətən bu layihə hesabına vətəndaşlar rahatlıqla sənədlərini ala bilirlər. Korrupsiya elementləri aradan qalxıb, rüşvətin miqyası azalıb. Ancaq ASAN-a verilən səlahiyyətlər məhduddur və gələcəkdə genişləndirilməlidir. Görünən budur ki, hakimiyyət tələsmir”.

N.Miri bunu iqtidarın daxilində ruspərəst bir şəbəkənin mövcudluğu ilə əlaqələndirir: “Hakimiyyətdə güclü bir Rusiyaya bağlı şəbəkə var. Bu şəbəkə ölkəni Rusiyanın orbitinə itələyir. Bu anlamda Azərbaycanın önünü kəsiblər, ASAN xidmətə dövlətin digər strukturlarının səlahiyyətlərinin verilməsini ləngidirlər. Həmin şəbəkə buna imkan vermir Amma bu toxum cücərir, bu xidmətin regionlarda filialları açılır”.

❑ **E.SALAMOĞLU**

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

# “Rusiya Ermənistana görə Azərbaycanla savaşmayacaq”

## Moskvalı hərbi ekspertlərin qənaətincə, Kremlə Qarabağda ikinci cəbhənin açılması lazım deyil və bunun üçün onun yetərli qüvvəsi də yoxdur; “Rusiya Bakı ilə münasibətlərin pisləşməsini istəmir...”



**İşğalçı Ermənistanın Rusiya ilə müttəfiqliyə peşman olduğu getdikcə daha qabarıq şəkildə özünü büruzə verməkdədir. Bu ovqat qonşu ölkənin Avrasiya İqtisadi Birliyinə üzvlük məsələsində özünü aydın şəkildə göstərməkdədir. Xüsusən də qurumla bağlı Astanada keçirilən toplantıda Azərbaycan prezidentinin göndərdiyi məktub ətrafında yaranmış situasiya Ermənistanın ictimai-siyasi dairələrində dərin məyusluq doğurub, düşmən tərəfin Rusiyaya etimadını bir az da zədələyib.**

Bundan əlavə, işğalçı ölkə Rusiyanın Azərbaycana müasir hərbi texnika satmaqda davam etməsini də heç cür həzm edə bilmir və rəsmi Moskvanın izahatlarını qaneedici saymır. Ermənistanda düşünməyə başlayıblar ki, Rusiya müttəfiqliyə sadiq deyil, çünki məntiqlə Ermənistanla müharibə vəziyyətində olan Azərbaycana silah-sursat satmamalıdır. Üstəlik, qonşu ölkədə tez-tez Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində Rusiyanın digər üzv ölkələr qarşısında öhdəliklərini yada salırlar.

Moskvanın AB məsələsində açıq-aşkar Ermənistanla ikinci-üçüncü sort ölkə kimi davranması, Azərbaycana üstünlük verdiyini gizlətməməsi erməni yetkililərində ciddi məyusluq, narazılıq və narahatlıq doğurmaqdadır. Hətta erməni ekspert dairələrində Rusiyanın hansısa məqamda öz imperiya maraqları naminə öz forpostunu asanca satacağı barədə rəylər dolaşır. Paralel olaraq Rusiyanın Ermənistanın mövcudluğunun əsas qarantı olmasına şübhələr də qonşu ölkədə artmaqdadır.

***

“Rusiya qoşunları Ermənistanda Ermənistanı Türkiyə tərəfdən təcavüzdən qoruyur. Ancaq Dağlıq Qarabağ Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına aid deyil, ona görə də Qarabağ Rusiya inteqrasiya layihələrinə daxil edilməyəcək. Odur ki, yeni Qarabağ qarşıdurması başlasa, KTMT çərçivəsində heç bir tərəfdaşlıq münasibətləri və öhdəliklər işləməyəcək”. Bunu rusiyalı hərbi ekspert Pavel Felqenqauer Ermənistan KİV-ə müsahibəsində deyib.

Hərbi ekspertə görə, Rusiyanın Ermənistan qarşısında birbaşa öhdəliyi yoxdur: “Ermənistan Avrasiya inteqrasiya layihələrinə Qarabağsız qoşulacaq. Çünki Moskva Azərbaycanla münasibətlərini kəskin şəkildə pisləşdirmək istəmir. Əgər Qarabağda ciddi toqquşmalar başlasa, Kremldə düşünməyə başlayacaq, böhranın baş verməməsi üçün kömək etməyə çalışacaqlar, ancaq Rusiyanın avtomatik şəkildə erməni-Azərbaycan konfliktində və ya qarşılıqlı atışmasında iştirakını təsəvvür gətirmək çətindir. Hərçənd, qəti qərar Moskvada veriləcək. Biz Azərbaycanla münasibətlərin pisləşməsini istəmirik. Ona görə də qərar verilib ki, Ermənistan Gömrük İttifaqına KTMT kimi Dağlıq Qarabağsız daxil olmalıdır. Prinsipial olaraq Rusiya Ermənistanı tərəfdaş kimi görür, ancaq Azərbaycan da mühüm tərəfdaşdır, hərgah son vaxtlar bizdə narazılıq var ki, Bakı Qərbə həddən artıq yaxınlaşıb. Lakin bu narazılıq o dərəcədə güclü deyil ki, münasibətləri kəsək və açıq qarşıdurmaya gedək. Moskva həm Bakı, həm də İrəvanla yaxşı münasibətlər saxlamağa çalışır. Ona görə ki, biz təkcə erməni-azərbaycanlı mübahisələri yox, həm də Rusiyanın Güney Qafqazda təsirini bərqərar eləmək maraqlandırır. Ermənistan bizə lazımdır. Amma Azərbaycan da lazımdır”.



Mütəxəssisin qənaətincə, Qarabağda müharibə ümumiyyətlə, Rusiyanın maraqlarına cavab vermir: “Ələlxüsus da ona görə ki, Ukrayna böhranı səbəbindən Rusiyanın əlində Güney Qafqazda vəziyyətin gərginləməsi əleyhinə yönələcək yetərli sərbəst qüvvə və vasitə qalmayıb. Rusiyanın iki cəbhədə vuruşmaq üçün qüvvəsi yoxdur. Hazırda Moskva status-kvoya alternativ görmür. Bu birmənalıdır. Ukraynada situasiya düzəlməyənədək Moskvaya Cənubi Qafqazda hansısa kəskinləşmə, yeni gərginlik ocağı lazım deyil”.

****

“Təsəvvürə gətirmək çətindir ki, Ermənistana hücum olarsa, KTMT (Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı-red.) Azərbaycana qarşı hərəkət keçəcək”. Bu sözləri isə erməni portalına müsahibəsində başqa bir rusiyalı hərbi ekspert Aleksandr Qolts təşkilatın Ermənistan qarşısında öhdəliklərini şərh edərkən deyib.

Onun fikrincə, nizamnaməyə əsasən, formal olaraq o halda KTMT məsələyə reaksiya verməlidir: “Lakin hazırda Rusiya tərəfini başı Ukrayna hadisələrinə o qədər qarışıb ki, heç kim Azərbaycan-erməni sərhədindəki situasiyanı dəqiq bilmir. İkinci yandan, Ermənistan ona qarşı təcavüz olduğunu sənədli-faktlı sübut etməlidir”.

Hərbi ekspertin əminliyinə görə, Qarabağ ixtilafı ciddi münaqişədir: “Belə ki, Ermənistan KTMT-nin üzvüdür və Avrasiya inteqrasiya layihələrinə qoşulmaq astanasındadır, başqa yandan isə Moskva Azərbaycanla əlaqələri korlamaq istəmir, hansı ölkə ilə ki, Rusiya müxtəlif sahələrdə möhkəm tellərlə bağlıdır... Odur ki, Rusiyanın əsas vəzifəsi Azərbaycanı hərbi əməliyyatlardan çəkindirməkdir”.

***

Azərbaycanın Ukrayna olayları fonunda Rusiya üçün artan önəmini erməni təhlilçiləri də etiraf edirlər. Məsələn, politoloq Manvel Sərkisyanın zənnincə, belə davam eləsə, Ermənistan Avrasiya İttifaqına üzv olmayacaq: “Heç kim bizi ora götürməyəcək, əgər Azərbaycan orada olmasa”. O, hətta əmindir ki, əksinə ola bilər: “Azərbaycan quruma üzv olacaq, Ermənistan isə yox. Rusiyadan ötrü Azərbaycanın quruma üzvlüyü daha vacibdir, nəinki Ermənistanın...”

Ekspertlərin fikir və rəylərindən bir daha qənaət hasil olur ki, Rusiya Qarabağ konfliktinə müstəsna olaraq Güney Qafqazda öz siyasi-hərbi dayaqlarını, təsirini gücləndirmək vasitəsi kimi baxır və bu vasitəni heç bir halda erməni və ya Azərbaycan maraqlarına qurban verməyəcək. Hətta Ermənistanla formal olaraq hərbi-siyasi müttəfiqlik münasibətləri də bu yolda ona maneə qismində görünmür.

Deməli, Kremlin Qarabağ münaqişəsinin həllində maraqlı olması barədə Rusiya rəsmilərinin verdikləri bəyanat da boğazdan yuxarı deyilmiş sözlərdən başqa bir şey deyil. Rusiya postsovet ölkələrinin müstəqilliyi və suverenliyinin onda ötrü hansı dəyərdə olduğunu isə Krımın ilhaqı ilə o, bir daha, əyani nümayiş etdirib.

# Ermənistanla həmsərhəd kənddə istinad divarları çəkildi

## Mütəmadi atəş altında olan Əlibəyli sakinlərinin təhlükəsizliyi gücləndirilir...




**Tovuz rayonun Ermənistanla sərhəddə yerləşən Əlibəyli kəndindəki evlərin ətrafına istinad divarları çəkilir. Bu barədə ansperss-ə Əlibəyli kənd icra nümayəndəsi Valeh Rzayev məlumat verib.**

V.Rzayev bildirib ki, Beynəlxalq Qızıl Xaç Komitəsinin Bərdə rayonundakı bölməsi tərəfindən ermənilərlə sərhəddə yaxın ərazidə yerləşən Əlibəyli kəndinin 14 sakininin evinin ətrafına artıq istinad divarı çəkilib. Onun sözlərinə görə, istinad divarlarının çəkilməsi prosesi hazırda davam edir. Həmçinin, o da bildirilir ki, BQXK tərəfindən kənddə yaşayan ailələrə maliyyə yardımı edilib.

Valeh Rzayev qeyd edib ki, ermənilərin atəşkəsi pozması nəticəsində Əlibəyli kənd sakinlərinin evlərinə dəyən ziyan artıq müəyyənləşdirilib. Onun sözlərinə görə, evlərinin damı dağılan kənd sakinlərinə Azərbaycan Respublikasında Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyi tərəfindən dam örtükləri paylanılıb. Bundan əlavə, Agentlik tərəfindən Əlibəyli kəndində yaşayan bir kasıb ailənin evinin yenidən tikintisinə başlanılıb.

V.Rzayev onu da bildirib ki, Əlibəyli kəndinin içməli su, işıq və qaz təminatı ilə bağlı heç bir problemi yoxdur və hazırda kənd sakinləri gündəlik məişət işləri ilə məşğuldurlar.

Qeyd edək ki, istinad divarları Azərbaycan daxilində, Qarabağın separatçı rejimlə təmas xəttinə yaxın bəzi kəndlərində də inşa edilib.

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014

# Müdafiə Nazirliyinin hüquq idarəsi rəisinə şok ittihamlar

## Bəxtiyar Məmmədov: "Kişiyev qızıma qarşı təzyiqlər təşkil etdirir"

**"Hərbi Dəniz Qüvvələrinin (HDQ) vitse-admiralı Şahin Sultanovun və onun himayəçilərinin adını "Yeni Müsavat"a açıqladıqdan sonra qızıma qarşı təzyiqlər başlayıb. Şahin Sultanovun himayəçisi Rauf Kişiyev Müdafiə Nazirliyində xidmət edən qızıma qarşı açıq və ölümlə hədələyici təhdidlər həyata keçirib. Qızım bundan sarsıntı keçirib və həkimə müraciət etmişik. Rauf Kişiyevə açıq şəkildə bildirirəm ki, heç kim və heç nə məni əqidəmdən, düzgün bildiyim yoldan çəkindirə bilməz.**



Rauf Kişiyevə vaxtilə Şahin Sultanova dediyim sözləri təkrarlayıram - Azərbaycan mentalitetində kişinin qadınla mübarizəsi qəbuledilməzdir. İkincisi, görün siz nə gündəsiniz ki, müddətdən artıq xidmət edən bir əsgərlə, qadın hərbi qulluqçu ilə atasına görə mübarizə aparırsınız!"

Hüquq müdafiəçisi R.Kişiyevə müraciətlə deyib: "2011-ci ildə Bayıl qəsəbəsi ərazisində evləri plana düşmüş 600 saylı hərbi hissənin 2 yüksək rütbəli zabitinin və 1 məcburi köçkünün hüquqlarını təmsil etmişəm. Hazırda həbsdə olan Şahin Sultanov və onun fırıldaqçı dostu "kod555" ləqəbli Elxan Hacıyev hərbçi ailələrinə ayrılmış 2 milyon manat pul vəsaitini mənimsəyərək hər ailəyə təhdid altında, cədvəl əsasında əlbəəl cəmisi 10 min manat pul vəsaiti paylamış, bununla razılaşmayan 2 zabitə qarşı isə çoxsaylı qanunsuzluqlar etmişdir. Dərhal onu da vurğulamaq istəyirəm ki, bu qanunsuzluqla bağlı həm özüm, həm də müvəkkillərim tərəfindən şəxsən sizə, keçmiş nazir Səfər Əbiyevə saysız-hesabsız müraciətlər ünvanlanıb. Amma siz hüquq idarəsinin rəisi kimi heç bir tədbir görməmisiniz. 2 milyon manatın mənimsənilməsi isə artıq istintaq tərəfindən sübuta yetirilib. Şahin Sultanov gördükdə ki, zabitlər müdafiəsiz deyil, məni susdurmaq, onları isə qorxutmaq üçün MN-dəki havadarları, ilk növbədə isə hüquq idarəsinin rəisi hörmətli Rauf Kişiyev sizin ssenarinizlə məni şərləyib tutdurmaq qərarına gəldi. 18 noyabr 2011-ci ildə tərəfinizdən Müdafiə Nazirliyinə dəvət olundum. Bildirdiniz ki, keçmiş nazir Səfər Əbiyevin tapşırığı ilə Şahin Sultanov barəsində daxili araşdırma aparılır və mən bununla bağlı izahat yazaraq şikayətləri dayandırmalıyam(!) və onlardan imtina etməliyəm! Siz bunu bir tələb olaraq bildirdiniz və "səni həbs etdirərəm" şəklində hətta məni təhdid də etdiniz. Bundan əvvəl isə bu mövzulu xahişlər nazirliyin mətbuat xidmətinin rəisi Eldar Sabiroğlu, nazir müavini Çingiz Məmmədov, Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində dərs deyən doğma qardaşım Bayram Məmmədov tərəfindən də edilmişdi. Mən çoxsaylı xahişləri, nazirliyin nüfuzunu nəzərə alaraq şikayətlərdən imtina etməyim barədə izahat yazdım. 1 ay sonra da sifarişli şəkildə həbs edildim.

Şəxsən sizin sənədləri, yeni Ş.Sultanov barəsində aparılmış araşdırmanın nəticəsi olaraq tərtib edilmiş arayış-məruzənin və ya qərarın surətlərini təqdim etməməyinizə görə nahaq yerə 2 il 5 ay həbsdə olmuşam.

Artıq 3 ilə yaxındır ki, Şahin Sultanov barəsində aparılmış(?) araşdırmanın nəticəsi olaraq tərtib edilmiş arayış-məruzənin və ya qərarın surətini nə mən, nə də vəkillərim əldə edə bilmir. Çünki Müdafiə Nazirliyinin Hüquq İdarəsinin rəisi Rauf Kişiyev var gücü ilə həmin sənədləri verməkdən imtina edir. Bu günədək hələ də aydın deyil ki, Ş.Sultanov barəsində nazirlikdə araşdırma aparılıb, ya yox. Aparılıbsa, arayış-məruzənin və ya qərarın surətlərini hansı səbəbdən təqdim etmirsiniz? Yox aparılmayıbsa, niyə aparılmayıb və Ş.Sultanovun cinayətlərini kimin tapşırığı ilə ört-basdır etmisiniz və şəxsən sizin bu işlərdə marağınız nədir?

Şahin Sultanovun cinayət əməlləri barədə şəxsən mən, hüquqlarını təmsil etdiyim müvəkkilərim, habelə çoxsaylı dövlət orqanlarından Müdafiə Nazirliyinin, şəxsən sizin ünvanınıza saysız-hesabsız rəsmi məktublar daxil olmuşdur.Onlardan bir neçəsini nümunə üçün sadalayıram ki, vaxtınız olanda qaldırıb bir də baxasınız. Bəlkə gec də olsa başa düşəsiniz ki, söhbət nədən gedir. İndi başa düşdünüz ki, hansı şəkildə Şahin Sultanova himayəçilik etmisiniz? Bəlkə deyəcəksiniz ki, Ş.Sultanovun törətdiyi cinayət əməllərindən xəbərsiz olmusunuz. Hüquq İdarəsinin bütün hərbi hissələrdə, o cümlədən HDQ-də nümayəndəsi var və sizin oradakı təmsilçinizin vəzifə borcu idi ki, baş vermiş cinayət əməlləri barədə sizi məlumatlandırsın. Digər tərəfdən mətbuat artıq 3 ildir ki,Ş.Sultanovun cinayət əməlləri barədə yazır. Siz heç qəzet də oxumursunuz?"

Hüquq müdafiəçisi deyir ki, R.Kişiyev onu yaxşı tanımayıb: "Hesab edirəm ki, siz məni yaxşı tanımırdız, indi daha yaxından tanıyacaqsız. Çünki uzun illər ərzində Şahin Sultanovun cinayətkar mafiya dəstəsini himayə edərək topladığınız çirkin sərvət gözünüzü örtüb. Ölkədə korrupsiyaya qarşı mübarizə həyata keçirilir, ölkə başçısı hamını bu işdə fəal olmağa səsləyir, nazir Zakir Həsənov bu istiqamətdə daha ciddi addımların atılacağını bildirir, siz isə korrupsionerləri müdafiə edirsiniz".

Hüquq müdafiəçisi Əbiyev dönəmindən qalma kadrların dərhal uzaqlaşdırılmasını, qızına təzyiqlər edilməsi faktı ilə bağlı daxili araşdırma aparılmasını, "korrupsionerilərin himayəçisi" Rauf Kişiyevin dərhal vəzifədən azad edilməsini istəyib.

❑ **E.MƏMMƏDƏLİYEV**

***P.S.*** *Yazıda adı hallanan hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Binəqədi sakinləri zibilə düşüblər

## "Novxanı yolu" deyilən ərazidə qalaq-qalaq yığılan zibil isti yay günlərində sakinlərə əsl cəhənnəm əzabı yaşadır...

**Bakının Binəqədi rayonu sakinləri sözün həqiqi mənasında zibilə düşüb. "Yeni Müsavat"a müraciət edərək kömək istəyən, Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu Məhəmməd Əmin Rəsulzadənin adını daşıyan qəsəbənin "Novxanı yolu" deyilən ərazisində yaşayan sakinlər isti yay günlərində zibillərin daşınmadığından şikayət edirlər.**

Onların sözlərinə görə, bir aya yaxındır ki, evlərinin yaxınlığındakı zibilxanadakı zibillər daşınmır. Qalaq-qalaq üst-üstə yığılan zibil havaların isti keçdiyi bu yay günlərində sakinlər üçün əsl cəhənnəm əzabına çevrilib.

Ərazidə yaşayan Cəmilə Məmmədovanın sözlərinə görə, az qalsın bir metri aşan zibilə görə, dəfələrlə rayon icra hakimiyyətinə və bələdiyyəsinə müraciət ediblər: "İcra hakimiyyətindən bizə dedilər ki, zibildaşıyan maşınları az olduğundan zibilləri hər gün daşımaq mümkün deyil. Biz də onlara dedik ki, heç olmasa həftədə iki dəfə bu zibillər daşınsın. Razılaşdılar. Amma bir aydır ki, evlərimizin yaxınlığındakı zibillik təmizlənmir. Nəticədə baş çatladan üfunət evimizə dolur. Siçovulların əlindən evdə yata bilmirik. Evin döşəməsindən müxtəlif cür həşəratlar evimizə doluşur. Uşaqlarda qaşınma yaranıb. Həkimə apardıq, dedilər yoluxucu xəstəlik ola bilər, mütləq önləyici tədbirlər görülməlidir. Səhiyyə Nazirliyinə yazdıq ki, heç olmasa gəlib bu zibilliyi dərmanlasınlar. Oldu, deyib bizi yola verdilər".









Sakinlərin sözlərinə görə, rayon bələdiyyəsi hər ay evlərdən zibil pulu yığır. Rayon sakini Rauf Məmmədli daha bələdiyyəyə zibilə görə pul verməyəcəklərini deyir: "Bir aydır üfunətdən qapı-pəncərəmizi aça bilmirik. Bəhanələri də hazırdır, maşın yoxdur deyirlər. Bu zibillər nə vaxta kimi burda qalacaq? Evlərimizin dörd bir tərəfi neft buruqları ilə əhatələnib. Yay olan kimi üstü açıq neft gölməçələrində buxarlanma olur. Nəfəs ala bilmirik. Bir neçə dəfə, istifadəsiz quyuların üstünü bağlamaq istədik, bizi polislə, həbslə hədələdilər. Dövlət Neft Şirkətinə dəfələrlə müraciət etmişik. Hər dəfəsində bizə evlərimizin də olduğu sökülmə planını göndəriblər. İddia edirlər ki, guya bizim evlərimiz sənədsizdir, öz başına neftli ərazini zəbt edərək ev tikmişik. Havalar isti keçir, burdakı üstü açıq neft gölməçələrində baş verə biləcək hər hansı yanğın, partlayış yüzlərlə insanın ölümünə səbəb ola bilər".

Bazar günü olduğundan problemlə bağlı Binəqədi Rayon İcra Hakimiyyətinin məsələyə münasibətini öyrənə bilmədik.

Qeyd edək ki, zibillik Bakının dəyişilməz problemlərindən biri kimi qalmaqdadır. Ekoloqlar hesab edirlər ki, burada insan faktoru çox önəmli rol oynayır. Paytaxtın zibillik problemini həll etmək üçün isə hələ 2009-cu ildən başlayaraq Yaponiyanın aidiyyəti şirkəti ilə hökumət qurumları arasında danışıqlar aparılıb. Yaponiya şirkəti Balaxanıda cəmləşən zibillikdə zavod açıb. Zavod yığılan zibili yandıraraq enerji istehsal edir. Eyni zamanda Milli Məclis məişət tullantılarının nəzərdə tutulmuş yerlərdən kənara atılması və saxlanılmasına görə cərimələr tətbiq edilməsi ilə bağlı qərar verib. Dəyişikliklərə əsasən, məişət tullantılarını tutumlardan (urnalardan) kənar yerlərə atan fiziki şəxslər 20 manat, vəzifəli şəxslər 100 manat, hüquqi şəxslər isə 500 manat həcmində cərimə olunurlar.

Qanun həmçinin lazımi yerlərdə zibil qutularının qoyulmasını da nəzərdə tutub. Belə ki, şəhərlərdə və rayon (şəhər rayonları istisna olmaqla) inzibati ərazi vahidlərinin inzibati mərkəzlərində tutumların (urnaların) yerləşdirilməsi zamanı qanunvericiliklə müəyyən edilmiş məsafənin nəzərə alınmamasına görə vəzifəli şəxslər 500 manat, hüquqi şəxslər isə 1000 manat cərimə olunurlar.

❑ **Fərahim İLQAROĞLU**

**Fotolar müəllifindir**

YENİ MÜSAVAT
N 172 (5881) 7 iyul 2014

**Bir dəfə jurnalistika ilə bağlı seminarda media mütəxəssisi Zeynal Məmmədli Azərbaycan jurnalistlərinin geyimindən şikayətləndi. Dedi ki, bizim əksər kişi jurnalistlər deputat kimi geyinir. Tədbirə pencək, qalstukda getmələri, müsahibədə rəsmi şəxslərdən daha rəsmi görünmələri qüsurlarından biridir.**

# Jurnalistin geyimi... onun silahı imiş

## Dünya jurnalistikasında "dress kod" - geyim media nümayəndəsini vəzir də edər, rəzil də...



**Redaksiya ilə çimərliyi səhv salanların menyusuna...**

İndi isə yay gəlib. Hərdən tədbirlərdə, redaksiyalarda olanda "çimərlik geyimli" xanım jurnalistləri görüb də adamın ağlına bu sual gəlir: həqiqətən də jurnalist geyimi də onun daxili kimi azad olmalıdır? Cırıq şalvar, şort, "vyetnamka"... Səhər hansı ruh halında oyanırsa, o cür də geyinə bilərmi? Yoxsa jurnalistlər üçün xüsusi geyim normaları olmalıdır? Axı jurnalisti də hamı kimi geyiminə görə qarşılayıb, ağlına görə yola salırlar...

### Rusiyalı məmurlar pis geyinən jurnalisti tədbirə buraxmır

Öncə ondan başlayaq ki, haqqında danışdığımız məsələ dünya ölkələrində iş yerindən asılı olmayaraq "dress kod"la (geyim kodu) tənzimlənir. Bundan bir neçə il öncə Rusiya hakimiyyəti məmurları təhqir etdiyini əsas gətirərək jurnalistlər üçün "dress kod" tənzimlənməsini təklif etdi. Məmurların fikrincə, ciddi dövlət qurumlarının mətbuat konfranslarına qatılan jurnalistlərin geyimi "dostları ilə kabab partisinə gələn"lərin stilini xatırladır. Onların fikrincə, bu geyim tərzi jurnalistlərin etik norması ilə tənzimlənməlidir. Cırıq cins şalvarlar, bədənə kip sarılmış maykalar, vyetnamkalar, həddən artıq qısa yubkalar... Bunların heç biri jurnalistin əynində olmamalıdır. Moskva merinin mətbuat katibi Serqey Tsoy bildirib ki, məmurlar məcburi kostyum-şalvar və ya uzun paltarlarla bağlı şərt qoymurlar. Yeganə tələb təmiz və etik tərzdə geyinmədir. Hətta bununla bağlı müvafiq göstəriş də verilib. Belə ki, nazirlik binalarının mühafizəçiləri göstərilən normalara müvafiq geyinməyən jurnalistləri tədbirlərə buraxmırlar.

Bəzi tədbirlərdə isə jurnalistlərə qarşı belə yoxlama prosesi olmasa da, onların kimliyi, hansı media orqanını təmsil etməsini asanlıqla müəyyənləşdirirlər. Tədbirlərdəki qeydiyyat vərəqi məhz bunun üçündür. Tədbirin təşkilatçısı həmin vərəqi məhz mətbuat konfransı zamanı verir, hər kəs özünü, çalışdığı media orqanını ora qeyd edir. Son nəticədə isə təşkilatçı qeyri-etik geyimli jurnalisti belə müəyyənləşdirib, redaksiyaya bu barədə şikayətlə müraciət edir, bir daha həmin jurnalistin tədbirə gəlməməsini tapşırır.

Jurnalistlərin geyiminin yaratdığı bir qalmaqala nəzər salaq. Rusiyalı müğənni Filip Kirkorovla jurnalist İrina Aroyan arasında qalmaqal məhz sonuncunun açıq-saçıq geyiminə görə baş vermişdi. Mətbuat konfransında müğənniyə sual vermək istəyən jurnalist ondan məhz bu cavabı eşitmişdi: "Mən istəmirəm ki, siz şəklimi çəkəsiniz. Siz məni bezdirmisiz. Sizin çəhrayı, bədənə yapışmış koftanız, onun altından görünən bədən üzvləriniz, eləcə də mikrofonunuz məni qıcıqlandırır. Mən qeyri-professionalları sevmirəm, bura onların yeri deyil. Siz istəyirsiniz mən burdan gedim? Xeyr, digər həmkarlarınıza hörmət etdiyim üçün getməyəcəm. Amma əvəzində siz gedəcəksiz".

Bu sözlərə əhəmiyyət verməyən jurnalist xanımın növbəti sual vermə cəhdi isə F.Kirkorovun onun üstünə cumması ilə nəticələnmişdi. Nəticədə isə Rusiya mətbuatında geyim qalmaqallarından biri yaşanmışdı.

### Müsahibi danışdırmaq üçün onun zövqünə uyğun geyinməlisən

Elə bu məqamda da jurnalistikanın qızıl qaydalarından biri yada düşür: əgər sən müsahibini danışdırmaq, onu cəmiyyətə yaxşı yöndən tanıtdırmaq istəyirsənsə, onun geyim zövqünü də əvvəlcədən öyrənməlisən. Bu yaxınlarda Amerika qəzetlərindən birində striptizçi bir qadınla olduqca maraqlı bir müsahibə yayımlanmışdı. Müsahibəni götürən qadın jurnalist idi. Məlum olmuşdu ki, ümumiyyətlə, striptiz barda çalışanlar üçün mətbuat işçiləri sevilməyən personalardır. Amma müsahibəni götürən jurnalist bara elə bar geyimində gedib. Orada olarkən pivə içib, siqaret çəkib və müsahibini onun özünə yaxın hiss etməsi üçün əlindən gələni edib. Yoxsa ki, "həyatın dibinə necə düşdünüz" tipli sualla və ciddi geyimlə bu cür şəxsi heç cür danışdırmaq olmaz.

Ona görə də dünya jurnalistləri hesab edirlər ki, geyimləri onlara iş prosesində kömək edə bilər. Jurnalistika bir növ aktyorluq sənəti kimidir, hər an rola girmək, qiyafə dəyişmək bu işin qızıl qaydalarındandır. Geyimlə həmsöhbətə "özümüzünkü" olduğunu göstərmək, onunla eyni dalğada dolaşdığımız mesajını verməliyik.

### Qul bazarına dəst kostyumda, rəsmi tədbirə cırıq şalvarda getmə!

Ekspertlər hesab edir ki, jurnalistin vəzifəsi nə qədər aşağıdırsa, qarderobuna bir o qədər çox fikir verməlidir. Təbii ki, əgər bütün ömrü boyu aşağı statusda işləmək istəmirsə. Çünki jurnalistin hər cür situasiyaya uyğun geyimi olmalıdır. Məsələn, sən hansısa səfirliyin kokteyl dəvətinə dizi cırıq cins şalvar, topik və "şap-şap"la gedə bilməzsən. Bu, öncə özünə, sonra isə təmsil etdiyin media orqanının adına minus sayılır. Amma eyni zamanda bir qul bazarına reportaja da kostyum-şalvarda, qalstukda, dikdaban tuflidə getməyin qeyri-professionallıq sayılacaq. Redaksiyaya gələn şikayətçi ordakı işçilərin geyiminə baxıb, bu media orqanının nə qədər etibarlı, ciddi olmasına qərar verir ürəyində. Yüzlərlə, minlərlə insanın problemindən yazdığını iddia edən jurnalistin geyim seçimi ilə bağlı anormallığı, problemi onun ciddiliyinə də xələl gətirir.

Yaradıcı adamın səliqəli, eyni zamanda fərqli geyim tərzi onun yaradıcı insan kimi qabiliyyətinə də tərif gətirir.

### Reportyor geyimi - xüsusi punkt imiş...

Bu mövzuda diqqəti çəkən əsas nüans isə heç şübhəsiz ki, reportyor geyimidir. Ekspertlər birmənalı şəkildə işi daim qaçaqaçda olan reportyorların maksimum rahat geyim tərzinə müraciət etməli olduğunu deyir. Praktik şalvar - bir neçə cibi olsun, içinə qələm, bloknot, müxtəlif aparatlar yerləşdirmək mümkün olsun, krossovka və ryuqzak... Reportyorun "qızıl üçlüyü" budur. Xanım reportyorlar üçün də bu qayda keçərlidir. Üstəgəl heç bir halda dikdaban tufli geyinməmək. Bu, jurnalist işinin axsadılması anlamına gəlir.

Daha bir detal isə reportyorun öz geyimi ilə diqqət çəkməməsidir. Əgər sən hansısa hadisə yerinə partizan üsulu ilə gedib, ancaq məlumat toplamaq məqsədi daşıyırsansa, geyimin də "qışqırmamalı"dır. Heç kəs səni "həəə, o şortikli oğlan jurnalistdir", ya da "qısa paltarlı qız bizdən yazmağa gəlib" deyə xatırlamamalıdır.

Ya da reportyor heç bir halda hadisə yerinə xəz dəridə getməməlidir. Tutaq ki, bədbəxt bir hadisə baş verib, jurnalist də onu yazmağa və ya çəkməyə gedib. Axşam xəbərlərində jurnalist son dərəcə bahalı şubası ilə qəza barədə xəbər verir. Bu zaman bütün diqqət avtomatik olaraq onun şubasına yönəlir ki, bu da heç korrekt deyil. Əksinə, vulqar, həyasız görüntüdür.

### Geyim norması baş redaktorlar üçün də keçərlidir

Geyim həssaslığı baş redaktorlar üçün də keçərlidir. Əgər rəhbərlikdə təmsil olunan şəxs kişidirsə, işə hər gün dəst kostyumda, qalstukda gəlməlidir. Bu, onun işinə də geyimi qədər ciddi yanaşdığını göstərir. Xarizmatik görüntü işçilər üzərində də ciddi təsir gücünə malikdir. Psixoloqlar iddia edir ki, rəhbərlikdə təmsil olunan şəxslər nə qədər rahat, sadə geyim tərzinə müraciət edirsə, işçiləri arasında sözlərinin çəkisi bir o qədər aşağı düşür. Psixoloji baxımdan işçi də rəhbərini "özündən biri" kimi görür, onun tapşırıqlarına dostcasına yanaşmağa, yəni məsuliyyətsizlik etməyə başlayır.

Yox, əgər rəhbərlikdə qadın təmsil edilirsə, onun da dikdaban ayaqqabısının hündürlüyü, geyim stili qaydasında olmalıdır. O xanım heç bir halda gənc jurnalistlər kimi qısa, güllü paltarlar, dabanı yerlə gedən ayaqqabılar tərcih etməməlidir. Hər halda, Qərb mediasının "dress kod"larında belə yazıblar.

Sonda... Hamıya məlumat verən şəxslərin də bəzən yeni bilgilərə ehtiyacı olur. İlk növbədə redaksiyanın çimərlik, hovuzbaşı olmadığını bilmək kimi. Jurnalistin geyimi həm də onun silahıdır. Əsas odur, silahı özünə tərəf tuşlamayasan...

❑ Sevinc TELMANQIZI

# Gözəl ağa gözəl idi



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Aşıq gördüyünü çağırar deyiblər. Mənim də son günlər gördüyüm su çiçəyi xəstəliyi olduğu üçün bundan danışmaq boynumun borcu olub. Yaşadığım qəsəbənin (və nəinki bir qəsəbənin) uşaq bağçaları, uşaqları çiçək açıb. Necə deyərlər, Gözəl ağa gözəl idi, vurdu bir çiçək də çıxardı.**

Su çiçəyi xəstəlikdən daha çox epidemiya kimi yayılıb şəhərin canına. Əhməd Məmmədə, Məmməd Ayşəyə, Ayşə Zəhraya... Faydalı şey olsa, heç belə tez yayılmaz. Amma adı üstündə - epidemiya. Bizimkilər ancaq virusunu belə səxavətlə paylaşır...

Bilirəm, indi beynində bu tipli fikirləri keçirənlər tapılacaq ki, bəs su çiçəyi epidemioloji xəstəlikdir, bütün zamanlarda olub, olmalıdır, hər kəs ölümlü bu fani dünyada mütləq çiçək xəstəliyini dadmalıdı-filan... "Uşaq vaxtı bu xəstəliyi keçirmək insanların alnına yazılıb" kimi mövhumatçılıqdan isə hələ heç bəhs etmirəm. Birincisi, bu, stereotipdir. Özü də sovet dövründən qalma stereotip. Heç də "hər kəs su çiçəyi keçirməlidir" deyə bir qayda yoxdur. Maraqlanmışam, araşdırmışam, xaricdə buna qarşı peyvənd aparılır. Sadəcə, bizə tərəfə gəlib çıxmayıb. Səbəbi? Açıqlamalara diqqət edək:

Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorun epidemiologiya məsələləri üzrə müavini Afaq Əliyeva deyir ki, dünyada su çiçəyinə qarşı peyvənd işləri aparılsa da, bizim peyvənd təqvimənə daxil olunmayıb: "Bəzi ölkələrdə su çiçəyinə qarşı peyvənd aparılır, Səhiyyə Nazirliyi isə xaricdən daha təhlükəli xəstəliklərə qarşı vaksinlərin gətirilməsini təmin edir. Tədricən su çiçəyi və digər infeksion xəstəliklərə qarşı vaksinlərin alınması nəzərdə tutulur".

Respublikanın baş pediatrı Nəsib Quliyev isə bunu onunla əsaslandırır ki, su çiçəyinə qarşı peyvəndi aparmaq hələ ki, vacib deyil, bu xəstəliklərə qarşı tətbiq olunan peyvəndlər təkmil deyil. Yəni biri deyir, vaksinlərin alınması nəzərdə tutulub, alınacaq nə vaxtsa... nəvələrimizə, nəticələrimizə bu vaksinlərdən vurulacaq. O biri deyir, peyvəndlər təkmil deyil, ona görə də vacib deyil. Ortada ciddi bir infeksion xəstəlik var. Uşaqlar bir-birinə, sonra digər ailə üzvlərinə yoluxdurur, bunlar isə hələ fikirləşir.

Uşaqlığı 50-60-70-ci illərdə keçənlərin "su çiçəyi normal haldır" deməsini anlaya bilərəm. Əksər naz-nemətlərin əl altından satıldığı, tibbin bu qədər inkişaf etmədiyi dönəm üçün bu xəstəliklə mübarizə sıfır səviyyəsində ola bilərdi. Amma indi yox. Bilənlərə xatırladım, bilməyənlər isə öyrənsin. Bu xəstəliyin karantin müddəti tam 21 gündür. 21 gün karantin nə deməkdir, bilirsiz? Uşaq, uşağın ailəsi üçün həyatın 21 gün dayanması, həyət-baca yox, dəniz yox, gəzinti yox... Uşağın valideyni işləyirsə, işdən 21 günlük icazə, bütün ailəvi planların suya düşməsi.

Dinəndə ağızlarına çullu dovşan sığmır. Ölkədə sayı gündən-günə artan müalicə diaqnostika mərkəzlərinə baxsan, düşünərsən yəqin bu ölkə dünyada səhiyyənin ürəyinin döyündüyü məkandır. Hər il xaricdən gətirilən dərmanlar, vaksinlərdən isə hələ heç danışmıram. Amma bir kiçik virusun əlində yesir qalıblar. Uşaq bağçalarında su çiçəyi yayılması xəbəri yanvar ayından gündəmdədir. Sanki 41-45 müharibəsidir: almanlar gəlir, yaxınlaşır, az qaldı bizim kəndə girmələri... Nəyi gözləyirsiz, niyə gözləyirsiz?

Mən həkim deyiləm, amma adi valideyn məntiqi ilə düşünürəm ki, əgər bağçada bir neçə belə hal müşahidə olundusa, dərhal karantin elan edilməlidir. Bəli, bağçanın qapısına qıfıl vurmaq lazımdır təcili. Bəs "karantin" sözü nəyə görə yaranıb, təyinatı nədir? Niyə bütün uşaqların bir-bir "çiçək açması"nı gözləmək vacibdir? Karantin elan edin, camaat da öz başına, uşağının başına bir çarə qılsın.

Bilirsizmi əslində bu xəstəliyin bu qədər yayılmasının səbəbi nədir? Bağçalarda əksər hallarda uşaqlara nəzarət etmirlər, üzünə-gözünə, əlinə-ayağına necə deyərlər, gözünün ucu ilə də baxan yoxdur. Baxsalar, xəstə uşağın fərqinə varar, onu dərhal uzaqlaşdırarlar. Düzdü, xəstəliyin gizli dövrü var, həmin vaxt da su çiçəyi digərinə yoluxa bilər. Amma xəstəliyin aşkar dövründə, yeni səpişən vaxt bağçaya gətirilən neçə nəfəri görmüşəm gözümlə. Səpkili halda uşaqların yanına gətirilən balacanın onlarla beşcə dəqiqə ünsiyyətdə olması yetərlidir ki, virusu sürətlə yaysın. Ondan sonra da siz sağ, viruslar salamat, uşaq isə xəstə, "zelyonkalı"...

Gün-gündən "çiçəklənən" Azərbaycanda yaşayırıq, doğru. Amma bu, o demək deyil ki, hamımız 21 gün çiçəkli bir xəstəliklə boğuşmalıyıq. Yediyiniz pullardan biz az bu camaatın sağlamlığına həsr edin. Sizi aldadıblar: su aydınlıqdı, su çiçəyi yox...

## Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

*< Kiyev Dövlət Texniki Universiteti*
*< Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
*< Kremençuk Dövlət Universiteti*
*< Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
*< Kiyev Dövlət Dəniz Akademiyası*
*< Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
*< Tbilisi Dövlət Tibb Universiteti*
*< Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
*< Minsk Dövlət Universiteti*
*< Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
*< Qrodno Dövlət Universiteti*
*< Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
*< Volqoqrad Dövlət Aqrar Universiteti.*
*< Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A Nərimanov m-su**

**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



## Elan

**Bakının Türkan qəsəbəsində dənizdən 600-700 metr aralı, sahəsi 20 sot olan bag satılır. \Bağın orderi, 82 metr dərinlikdən çıxan şirin suyu, hasar və darvazası, meyvə agacları, 1 otaq və mətbəxdən ibarət kiçik tikilisi var. Qaz və telefon xətti yaxınlıqdan keçir. Qiyməti razılaşma yolu ilə.**

**Əlaqə tel: 070-611-64-15**



## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra **Tel: (012) 437-88-05; (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**


# Ölüsü dirisindən çox pul qazananlar

## Hansı məşhur ölümündən sonra nə qədər qazanır?









**Biz jurnalistlərin bəxtinə başqalarının yeyib-içdiyini, qazandığını, dərdini-sevincini yazmaq düşüb. Bu dəfə də dünya məşhurlarının, daha dəqiq desək, mərhum məşhurların ölümlərindən sonra necə qazanmalarından danışacağıq. Ağlınız bizlərə getməsin, onların ölüsü də para edir, dirisi də. Özü də xəyalınıza gətirə bilməyəcəyiniz qədər çox para.**

Maykl Cekson, Elvis Presli, Elizabet Teylor kimi Amerikanın simvoluna çevrilən şəxslərin ölləndən sonra bank hesablarındakı rəqəmlər daha da artıb.

### Onların qəbri milyonlarla "oynayır"

"Forbes" jurnalı ölləndən sonra ən çox qazanan məşhurların siyahısını tərtib edib. Həmin siyahıya görə, məşhur pop müğənnisi Maykl Cekson ölümündən sonra, 2012-ci ildə əldə etdiyi 170 milyon dollarlıq gəliri ilə yaşayan sənətçilər arasında ən çox qazanan Madonnanı da geridə qoyub. Yaxşı, bəs Cekson kimi məşhur bir müğənninin illərdir dinlənilən albomları yenidən necə satılır, gəlir gətirir? Bunun bir neçə səbəbi var. Birincisi, Cekson da Betti Peyc, Cenni Rivera, Elvis Presli, Bob Marli kimi toplum üzərində çox böyük təsir gücünə malik bir sənətçi olub. Ona görə də insanların ölmüş bir ulduzun filmlərinə və ya mahnılarına hələ də pul vermək istəmələri təbii bir vəziyyətdir.

Dünyasını dəyişmiş bir çox sənətçinin disklərinin müəlliflik hüququ CMG Worldwide şirkətindədir.

Cekson kimi ulduzların ölümlərindən sonra da qazanmağa davam etmələrinin daha bir səbəbi isə onların ancaq öz sənətləri ilə gündəmdə olmasıdır. Yəni, dinləyici qalmaqalsız və dedi-qodularsız, bir sənətçinin ancaq sənəti ilə maraqlanır.

Bu şəxslər təkcə keçmiş disklərinin yenidən bazara çıxarılmasından qazanmır. Onlar şəxsi əşya, geyim, bəzək əşyalarının satışından da xeyli gəlir əldə edir. Siyahıya diqqət edək. "Ən çox qazanan ölü məşhurlar» siyahısıda birinci yerə son bir illik qazancı 770 milyon dollar olan Maykl Cekson sahib çıxıb. Ceksonu 55 milyon dollar ilə Elvis Presli, 37 milyon dolarla da karikaturist Çarlz Şulz izləyib.

Siyahı aşağıdakı şəkildə davam edir.

4. Amerikalı sənətçi Elizabet Teylor - 25 milyon dollar.
5. Bob Marley - 18 milyon dollar.
6. Merlin Monro - 15 milyon dollar .
7. Con Lennon -12 milyon dollar.
8. Albert Eynşteyn - 10 milyon dollar.

### Ölülərin pulunu yeyən dirilər

Sual oluna bilər ki, bu böyük paralar kimin cibinə gedir? Siyahıda Motsart və Şekspir kimi məşhurların olmamasına diqqət edən oxucular anlaya bilər ki, siyahıya düşmək üçün həmin məşhurun bir varisi olmalıdır. Necə deyərlər, bu ölü məşhurlar pulu xərcləmirsə, onların əvəzində bu işi kim edir?

Elvis Preslinin illik qazancı iş adamı Robert Sillermana gedir. Məşhur sənətçi 1977-ci ilin 16 avqust tarixində dünyasını dəyişib. Daha sonra qurulan Elvis Presli Enterprises adlı şirkət qızı Lisa Marie Presli tərəfindən Robert Sillermana satılıb. Elvisin keçmişdə yaşadığı Gracelandda keçirilən turların, orada satılan əşyaların gəliri birbaşa Sillermana çatır. Sillerman dünyada Elvisin imicinin istifadə edildiyi hər ticari maldan pay alır.

Əksər məşhurların ölümündən sonra qazandığı pullar onun ailə üzvlərinə, nəvələrinə çatır. Bu da sırf varislik hüququndan vaxtında və düzgün şəkildə yararlanmaqdan gedir. Amma bu məsələdə bəzi istisnalar var.

Məsələn, məşhur fizik Albert Eynşteynin illik qazancı Qüdsdəki İbrani Universitetinin hesabına köçürülür. 1955-ci ilin 18 aprelində dünyasını dəyişən alim bütün varidatını sözügedən universitetə miras verib. Reklamçıların istifadə etdiyi imic şəkillərini satan Corbis şirkəti hesab edir ki, dünyada ən çox tələbat Eynşteynin saçları dağınıq olan fotosunadır.

Və ya Endi Varhol adlı pop art sənətçisinin illik 19 milyon dollarlıq gəliri Endi Varhol Sənət Vəqfinə köçürülür.

Sarışın aktrisa Merlin Monronun illik qazancı isə onun müəllimi Lee Strasberqin həyat yoldaşı Anne Strasberqin hesabına köçürülür. M.Monro 1962-ci ilin 5 avqustunda intihar edib. Həmin vaxt bankdakı 92 min 781 dolları ögey bacısı və anasına, bütün əşyalarını isə ona aktrisalıq dərsi verən, son illərdə onun üzərində böyük psixoloji gücə malik olan Lee Strasberqə vəsiyyət edib. Lee Strasberq ölləndən sonra miras onun həyat yoldaşı Anne Strasberqə qalıb. Merlin Monronun bütün işlərini hazırda CMG Worldwide adlı müəlliflik hüququ şirkəti həyata keçirir.

❑ **Sevinc TELMANQIZI**




*Əyləncəli, sürətli, asan!*

Speak English

*Klassik metodlardan fərqli olaraq, Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
✓ Əla tələffüz və güvənlə danışmaq
✓ Real ingiliscə söhbətlər

BONUS English EXPLOSION dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2. (012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63 (İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*


# Türkan haqda yazdıqlarımıza reaksiya gəldi

## Mollağa Məmmədov: "Hacı Rahil də dəniz sahilinin hasarlanmasının tərəfdarı deyil"



**"Yeni Müsavat"ın 30 iyun tarixli sayında "Kriminal qaydalarla idarə olunan kənd - Türkan" sərlöhvəli reportaj təqdim etmişdik. Həmin reportaj Türkanda gördüklərimiz, eşitdiklərimiz əsasında hazırlanmışdı.**

Redaksiyamıza müraciət edən Mollağa Məmmədov reportajda yer alan bəzi fikirlərlə razı olmadığını söylədi. Bildirdi ki, Türkan qəsəbə icra nümayəndəsi Hacı Rahil Babayevin səlahiyyətli nümayəndəsi kimi redaksiyamıza təşrif buyurub: "Hacı Rahil Babayevin adını kriminalla bağlamaq düzgün deyil. Onun adını Xəzər İcra Hakimiyyətinin başçısı ilə hallandıra bilərdilər. Yəni ona paxıllıq edirlər, ona görə belə sözlər deyilib. O yazıda mənim də adım kriminal kimi çəkilir. Türkanın icra nümayəndəsi Hacı Rahil bizim hörmət bəslədiyimiz prezidentin nümayəndəsidir. Qəzetinizdə isə yazılır ki, Türkan kriminal qaydalarla idarə olunur. Bu, düzgün məlumat deyil. Kimlərsə bizə paxıllıq edir deyə, belə yanlış məlumat verir".

Həmin reportajda Türkan qəsəbəsinin ərazisindən qanunsuz olaraq torpaq daşınması haqda məlumat verilirdi. M.Məmmədov deyir ki, bu məsələ ilə hüquq-mühafizə orqanları məşğul olmalıdır: "Hacı Rahil icra nümayəndəsidir, sahə müvəkkili deyil. Belə məsələlərlə sahə müvəkkili məşğul olmalıdır. Hacı Rahilin borcudur ki, icra nümayəndəsi olaraq bununla bağlı Ekologiya Nazirliyinə, İcra Hakimiyyətinə məlumat versin".

M.Məmmədovun sözlərinə görə, torpaq alğı-satqısına da icra nümayəndəsinin qarışmasının heç bir səlahiyyəti yoxdur: "Deyiblər ki, guya Hacı Rahil torpaq alır, satır. Axı o, kimə torpaq verə bilər ki? Bunlar düzgün olmayan məlumatlardır. O, kənd sakinlərinin qayğısı, problemləri ilə məşğul olur. Araşdırsınlar görsünlər Hacı Rahilin restoranı, daş karxanası var, ya yox. Əgər Türkandan dəniz kənarından torpaq daşınırsa, Ekologiya Nazirliyi, dəniz kənarı hasarlanırsa, Sərhəd Qoşunları hara baxır? Dəniz sahilinin 75 metrlik zolağına Sərhəd Qoşunları nəzarət etməlidir. Hacı Rahil də dəniz sahilinin hasarlanmasının tərəfdarı deyil".

M.Məmmədov reportajda onun haqqında yazılan hissə ilə də razı deyil: "Araşdırsınlar görsünlər həmin o "Eldar" restoranı mən Mollağanındır, ya yox".

❑ **E.MƏMMƏDƏLİYEV**

# Mìlyonları gözüyaşlı qoyan

# “Dünya kuboku”










## Jül Rime ilk dəfə adını daşıyan baş mükafatı öz çantasında Uruqvaya gətirmişdi

**Futbol üzrə Braziliyada keçirilən XX dünya çempionatı finiş mərhələsinə çatır. İyunun 13-dən dünyanın bütün qitələrindən 32 komanda dünya kubokunu başı üzərinə qaldırmaq üçün mübarizəyə qoşulsa da, indi onların sayı cəmi 4-dür. İyulun 12-də isə yalnız iki komanda bu kuboku qazanmaq üçün meydana çıxacaqlar.**

Bu yazıda gələn həftəsonu sahibinə və milyonlarla azarkeşə sevinc gətirəcək dünya kubokunun tarixi haqda danışacağıq.

Futbol üzrə dünya çempionatı və dünya kuboku fransız Jül Rimenin adı ilə bağlıdır. 1873-cü ildə Fransada anadan olan J. Rime dünya futbolunun inkişafında misilsiz xidmətləri ilə tarixə düşüb. Onun xidmətləri haqqında danışanlar ümumi olaraq belə deyirlər: “Öz zamanından başlamış müasir dövrümüzədək futbolun inkişafında Jül Rime qədər xidməti olan ikinci şəxs olmayıb və olmayacaq”.

Xristian-demokrat baxışları ilə seçilən J.Rime Parisin “Red Star” futbol klubunun təsisçisi və ilk prezidenti olub. Birinci dünya müharibəsində iştirak edən Rime cəbhədən qayıtdıqdan sonra 1919-cu ilin aprel ayının 11-də Fransa Futbol Federasiyasının prezidenti olur. 1921-ci ildə isə o, FİFA-nın üçüncü prezidenti seçilir. 1928-ci ildə J.Rimenin ciddi səyləri nəticəsində FİFA-nın Amsterdamdakı (Hollandiya) konqresində futbol üzrə ilk dünya çempionatının keçirilməsi haqqında yekun qərar qəbul edilir.

J.Rimenin dünya çempionatının keçirilməsi ideyasını gerçəkləşdirdikdən sonra dünya kubokunun hazırlanması üzərində düşünür. Bunun üçün o, dövrünün tanınmış heykəltəraşlarından olan Abel Lafleurə müraciət edir. Təbii ki, kubok da Jül Rimenin şəxsi vəsaiti hesabına hazırlanmalı idi. Beləliklə ilk dünya çempionatı ərəfəsi 3.8 kq ağırlığında olan kubok hazır olur. Abel Laflerin hazırladığı ilk dünya kubokunun üzərində Nike-qədim yunanların “Qələbə İlahəsi” həkk olunmuşdur.

Futbol üzrə dünya birinciliyi və ya ilk dəfə “Jül Rime kuboku” adlandırılan turnirin 1930-cu ilin iyulunda Uruqvayda keçirilməsinə qərar verilir. Dünya çempionatı marafonun startının Uruqvayda keçirilməsi səbəbsiz deyildi. Əvvəla, bu çempionat ölkənin İspaniya müstəmləkəçiliyindən azad olmasının 100 illik yubileyinə həsr edilmiş bayram tədbirlərinin tərkib hissəsi olacaqdı. İkincisi isə, turnir futbolun La-Plata sahillərində böyük şöhrət tapmasına yol açacaqdı. Olimpiya oyunlarında iki dəfə qələbə qazanmış bu kiçik ölkədə ən yaxşı futbolçuları az qala ilahiləşdirirdilər. Təkcə futbol azarkeşlərinin təşəbbüsü ilə uruqvaylılar 400 min dollar toplayıb qısa müddətə o vaxtlar dünyada ən böyük stadionu - “Sentenario”nu tikmişdilər. Lakin Avropa turnirə qatılmaq dəvətini qəbul etməyə tələsmirdi. Uruqvaylılar yarış iştirakçılarının gəmi ilə gəlmək haqlarını və başqa xərcləri ödəməyə hazır olsalar da məsafə uzaq olduğundan bu, müəyyən dərəcədə riskli idi.

Digər tərəfdən, dünya çempionatlarında iştirak etmək vətəndəki yarışlara bir neçə ay fasilə vermək və ya ən yaxşı komandaların tərkibini zəiflətmək, bununla da yerli oyunlara marağı azaltmaq, klubların və milli futbol ittifaqlarının onsuz da ağır olan maliyyə vəziyyətini daha da pisləşdirmək demək idi.

Avropa komandaları yolun uzaqlığını əsas gətirək FİFA-nın qərara qarşı çıxırlar. Yalnız FIFA prezidenti Jül Rimenin nüfuzu və səyləri nəticəsində Avropanın 4 komandası - Belçika, Fransa, Rumıniya və Yuqoslaviya okeanın o tayına getməyə razılıq verirlər.

Mundialın iştirakçısı olan 13 ölkə seçmə mərhələ oynamadan - FİFA-nın dəvətnaməsi ilə yarışa qatılır.





İyunun 21-də Fransa, Rumıniya və Belçika yığma komandaları" "Konte Verde" gəmisində Cənubi Amerika sahillərinə yola düşdü. Jül Rimes də onun adını daşıyan kuboku həmin gəmidə öz çantasında Uruqvaya gətirir...

Bir neçə gündən sonra Marseldən daha bir gəmi çıxdı. Bu, Yuqoslaviyanın yığma komandasını aparan “Florida” gəmisi idi.

Beləliklə, çempionat 1930-cu il iyulun 13-də Fransa-Meksika matçı ilə start götürdü. Bu, fransızlar üçün xüsusi gün idi. Çünki futbolçular uzaq Montevideoda “Pokitos” stadionunun yaşıl meydanına çıxanda vaxt fərqinə görə Fransada artıq iyulun 14-ü, yəni Bastiliyanın alınmasının başladığı gün idi. Sanki Lüsyen Loran milli bayram şərəfinə artıq görüşün 10-cu dəqiqəsində topu meksikalıların qapısına vurdu və adını dünya çempionatlarında ilk qol vuran futbolçu siyahısına yazdırdı.

İlk dünya çempionatının qalibi isə ev sahibi Uruqvay olub. Meydan sahibləri finalda Argentinanı 4:2 hesabı ilə yenib. Kubokun ilk sahibi də Uruqvay olur. Jül Rimenin çantasında gətirdiyi kubok da Uruqvaya verildi. Çempion komanda kuboku 4 illiyinə öz federasiyasının muzeyində saxlamalı və daha sonra növbəti çempion komandaya təhvil verməli idi. Qaydalara əsasən, 3 dəfə çempionluq yaşayan ölkənin millisi isə kuboku həmişəlik öz vətinində saxlayacaqdı.

II Dünya müharibəsi başladığına görə 1942 və 1946-cı illərdə dünya çempionatının keçirilməsi mümkün olmadı. Kubok çempionatın son qalibi İtaliya olduğundan İtaliya Futbol Federasiyasının prezidenti Ottorino Barassi onu evinə gətirir. 1950-ci illərdə “Jül Rime kuboku” üçün müəmmalı dövr olur. 1954-cü ildə Qərbi Almaniya çempion olduqdan sonra 1958-ci il İsveçdə keçirilən dünya çempionatı zamanı kubokun yenilənmiş, bir neçə santimetr hündür forması ortaya çıxır. O zaman belə xəbərlər yayılır ki, bu kuboku sonuncu dünya çempionu Almaniya ya oğurlayıb, ya da itirib.

1966-cı il İngiltərədə keçiriləcək dünya çempionatına 3 ay qalmış isə “Jül Rime kuboku” oğurlanır. Çempionatın keçirilməsinin bütün öhdəliklərini öz üzərinə götürən İngiltərə Futbol Assosiasiyası polislə birgə axtarışlara qoşulur. Yeddi gün sonra Pickles adlı it kuboku təsadüfən torpaqdan tapır. 1970-ci ildə Braziliya millisi üçüncü dəfə dünya çempionu olduğu üçün kubok əbədi olaraq Braziliya Futbol Federasiyasına bağışlanır. Növbəti dünya çempionatının əsas kubokunun hazırlanması prosesi başlanır. FİFA “Dünya kuboku” adlanacaq baş mükafatın hazırlanması üçün müsabiqə elan edir. FİFA-ya “Dünya kuboku”nun eskizinin vermiş 53 namizəd arasında italiyalı heykəl ustası Silviyo Qazzaniqanın əl işinin bəyənir. Beləliklə, 4.970 qram ağırlığındakı saf qızıldan hazırlanan, uzunluğu 36 santimetr olan “Dünya kuboku” çempionatın qaliblərinə verilir.

1982-ci il İspaniya dünya çempionatı başa çatdıqdan sonra Braziliyadakı dünya kubokunun oğurlanaraq əridib satıldığı xəbəri yayılır. O vaxtan bəri də “Jül Rime” kubokunun taleyi haqda məlumat yoxdur.

İyunun 13-də “Dünya kuboku” öz sahibini tapacaq. Milyonlarla azarkeş sevinəcək, milyonlar göz yaşı tökəcək...

❑ **Orxan ƏLİYEV**

YENİ MÜSAVAT

# Son səhifə

N 172 (5881) 7 iyul 2014



## Nazir arvadı qumarda uduzdu

Əmmanın xarici işlər naziri Səyid Bədir Bin Suud Əl-Buseydin arvadı İngiltərədə bir otelin qumarxanasında 2 milyon sterlinq uduzub. Ölkənin ən tanınmış nazirlərindən birinin arvadı olan Nora Əl-Daher qumarda pul uduzduqdan sonra oteli məhkəməyə verib. 50 yaşlı qadın otel işçilərini onu qumar oynamağa məcbur etməkdə günahlandırır.

Əl-Daherin sözlərinə görə, otel rəhbərliyi onun milyoner olduğunu bildikdən sonra pulunu əlindən almaq üçün qumar oynamağa məcbur edib. 1999-cu ildən bəri qumar aludəçisi olan qadın istəsə də qumar masasından uzaqlaşa bilmədiyini etiraf edib. İddialara görə, son illərdə nazirin həyat yoldaşı qumarda 7 milyon sterlinqdən çox pul uduzub.



## Köpəkbalığı dəhşəti

Amerikanın Kaliforniya ştatında faciəvi hadisə baş verib. Belə ki, Sakit okeana doğru uzanan çimərliklərə köpək balıqları hücum ediblər. Yırtıcı balıqların hücumundan xəbərsiz olan sakinlər dənizə girdikləri zaman facıə ilə üzləşiblər. Ayağından ağır yaralanan bir nəfər qısa müddətdə xəstəxanaya çatdırılıb. Sözügedən çimərliklərdə dənizə girmək qadağan edilib.

# 10 dəqiqədə 61 sendviç yedi

1916-cı ildən bəri Amerikada təşkil edilən sendviç yarışlarının qalibi "Çənə" ləqəbli Joey Çestnut olub. Son 7 ildə təşkil edilən bütün yarışların qalibi olan Joey 10 dəqiqə ərzində 61 sendviç yeyib. Nyu-Yorkda təşkil edilən yarışları izləməyə gələnlər maraqlı hadisələrin şahidi olublar. Kişilər arasında təşkil edilən yarışlarda ötən il 69 ədəd sendviç yeyən kişi, bu il 61-ni yeyə bilib. Yarışları 8-ci dəfə qazanan Joey bundan sonra sevgilisinə evlənmək təklif edib. Hər kəsin gözü önündə evlənmək təklifini qəbul edən Ricasa adlı qadın bir müddət şokda olub.




Qadınlar arasında keçirilən sendviç yarışını isə Miko Suda adlı qadın qazanıb. O, 10 dəqiqədə 34 sendviç yeyib. Ötən il 40 min nəfərin izlədiyi yarışları bu il maraq o qədər də çox olmayıb. Amerikada baş verən "Artur" qasırğası da yarışlara öz təsirini göstərib.

# Saqqızın faydaları

Bəzən ictimai yerlərdə istifadəsi mədəniyyətsizlik sayılan saqqız, sən demə, insan sağlamlığı üçün çox faydalı imiş. Saqqızın yaranma və istifadə tarixi çox qədimlərə dayanır, belə ki, qədim Roma və Yunanıstanda saqqızdan istifadə edilib. İlk olaraq 1848-ci ildə Jhon Curtis tərəfindən satılmağa başlayan saqqızın patenti 2 il sonra William Finely Semple tərəfindən alınıb.

Lakin ilk təkmilləşdirilmiş saqqız 1869-cu ildə Tomas Adams tərəfindən hazırlanıb. Günümüzdə vitrinlərin əvəzedilməzlərindən olan saqqızın aşağıdakı faydaları var:

- Saqqız iştahanı azaldır və arıqlamağa kömək edir.
- Gərginliyi azaldır ki, bu da stress zamanı çox yeyənlər üçün xeyirdir.
- Kalori itkisinə səbəb olur. Araşdırmalar göstərir ki, saqqız çeynəmək saatda 11 kalori itkisinə səbəb olur.
- Beyinə gedən qanı artırır. "Appetite" jurnalının araşdırmalarına əsasən, saqqız həm də yaddaşı möhkəmləndirir.
- Ağız və diş sağlamlığı üçün əvəzolunmaz vasitədir. Ağızı bakteriyalardan qoruyur, diş çürüməsini əngəlləyir, dişin mina qatındakı problemləri aradan qaldırır.





## Bir əsrdir oruc tutur

Türkiyənin Doğubayazıt bölgəsində yaşayan İsa Cengiz adlı kişi bir əsrdir dayanmadan oruc tutur. Övladları ilə birlikdə yaşayan kişinin 14 uşağı, 77 nəvəsi var. 107 yaşlı kişi 106 il əvvəl ailəsi ilə birlikdə İrandan gəlib. Özünə Türkiyədə həyat quran yaşlı kişi uzun yaşamanın sirrinin təbii qidalarla bağlı olduğunu deyir.

İ.Cengiz zamanının çoxunu Quran oxumaqla keçirir. Namazlarını isə evindən xeyli uzaq məsafədə olan məsciddə qılır. 100 yaşında həccə, 104 yaşında Ümrə ziyarətinə gedən yaşlı kişi 7 yaşından bəri oruc tutur. Dediyinə görə, bir dəfə belə olsun oruc tutmaqdan imtina etməyib. Rəcəb və Şaban aylarında da oruc tutan kişi hər zaman yeyib-içdiyinə diqqət edir. İ.Cengiz yaşı çox olsa da oruc tutmaqda çətinlik çəkmir. Sağlam olduğu üçün bütün ehtiyaclarını ödəyə bilir.




**QOÇ** - Hiss olunur ki, səhhətiniz ürəkaçan deyil. Lakin narahatçılığa əsas yoxdur. Çünki həkim əlinə düşməyəcəksiniz. Günortadan sonra sevindirici xəbər eşidəcəyinizə inanın.

**BUĞA** - Ulduzların düzümü maraqlı insanlarla rastlaşma ehtimalınızdan xəbər verir. Amma onların arasında bir neçəsi ovqatınızı aşağı salmağa çalışa bilər. Uzaqgörən və dözümlü olun.

**ƏKİZLƏR** - Qarşınızda füsunkar bir gün var. Bəxtinizə inanırsınızsa risk etməyə dəyər. Çünki gözlənilməz sürprizlər yolunuzu gözləyir. İstənilən ikitərəfli əməkdaşlıq uğurludur.

**XƏRÇƏNG** - Təxminən saat 14-ə qədər özünüzü gərgin situasiyalardan qorumağa çalışın. Köhnə palan içi sökməyin. Bunu bacarsanız, günortadan sonra sevindirici xəbər eşidəcəksiniz. Maraqlı təkliflər də gözlənilir.

**ŞİR** - Maliyyə problemlərinizin artması ümumi ovqatınızda mənfi çalarlar yaratmaqdadır. Azacıq səbr edin, yaxın vaxtlarda kisəniz ağırlaşacaq. Gün boyu əsas diqqətinizi sevgiyə yönəldin ki, rahatlanasınız.

**QIZ** - Mövcud problemlərinizi həll etmək üçün kənardan dəstək almalısınız. Əks təqdirdə uğursuzluqla üzləşəcəksiniz. Saat 14-17 aralığı bu baxımdan çox əlverişlidir.

**TƏRƏZİ** - İxtiyarınızda olduqca gərgin bir gün durur. Bəri başdan bütün vacib işlərinizi təxirə salın. Münaqişələrə həvəs göstərməyin, neytral olmağa çalışın. Bəxtinizdə pul da var.

**ƏQRƏB** - Astroloji göstəricilər yalnız qonaqlıq və səfərlər üçün uğurlu ərəfə olduğunu bildirir. Odur ki, digər işlər barədə baş sındırmağa dəyməz. Nəzərə alın ki, səhər saat 00:33-dən Ay da sizin bürcdədir.

**OXATAN** - Göy qübbəsi yalnız ailə-sevgi məsələlərində uğurlara yaxın olacağınızı bildirir. Fəaliyyətdə və ya digər münasibətlərdə isə vəziyyət heç də qənaətbəxş olmayacaq. Yalan danışmayın.

**OĞLAQ** - Yaxşı olar ki, saat 13-ə qədər bütün vacib işlərinizi təxirə salasınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli sövdələşmələrin iştirakçısı olacaqsınız.

**SUTÖKƏN** - Daxili tərəddüdləriniz ümumi sabitliyinizi pozmaqdadır. Nəyi, necə edəcəyinizi müəyyənləşdirə bilmirsiniz. Odur ki, həyata açıq gözlə baxın. Enerjinizi sevgidən alın.

**BALIQLAR** - Nə qədər yorucu təqvim olsa da, usanmağa dəyməz. Çünki yeni həftədə zəhmətinizin bəhrəsini görəcəksiniz. Saat 17-dən sonra ürəyinizə yaxın simsarlarınıza baş çəkməyə çalışın. Dərman qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 31 gün dənizdə qaldı



Floridadakı sualtı araşdırma mərkəzində dənizə girən Fabien Cousteau adlı oğlan 31 gün su altında qalaraq babasının rekordunu təzələyib. Bununla da dünyanın ən məşhur dəniz araşdırmaçısının nəvəsi onun kimi su altında ən çox yaşamaq üzrə rekordu qırıb. 31 gün suyun altında qaldıqdan sonra normal həyatına qayıdan Fabien su altındakı həyatın da maraqlı olduğunu deyib. Fabienin babası da 30 gün Qızıl dənizdə suyun altında qalmışdı.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 6.500